# AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT NAZİRLİYİNİN 2018-Cİ İL ƏRZİNDƏ GÖRDÜYÜ İŞLƏR HAQQINDA

## H E S A B A T I

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən 2018-ci il ərzində mədəniyyət, incəsənət, tarix və mədəniyyət abidələrinin qorunması, nəşriyyat və kinematoqrafiya sahələrinin inkişafı, həmçinin ölkəmizin milli mədəni irsinin və multikultural dəyərlərinin dünyada təbliği, tanıdılması istiqamətində müxtəlif beynəlxalq və respublika əhəmiyyətli forumlar, konfranslar, simpoziumlar, sərgilər, festivallar, mədəniyyət günləri və digər tədbirlər keçirilmişdir.

Dövr ərzində həyata keçirilən tədbirlər, reallaşdırlan layihələr Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin mədəniyyət sahəsinin inkişafı ilə əlaqədar müəyyən etdiyi dövlət siyasətinin, ölkə rəhbərliyi tərəfindən imzalanan fərman və sərəncamların oprativ icrasının, qarşıya qoyulan vəzifələrin və yeni dövrün tələblərinə uyğun səmərəli fəaliyyətin yüksək səviyyədə təşkilinə xidmət etmişdir.

### İNCƏSƏNƏT SAHƏSİ

Azərbaycan Respublikası Prezidentinin "Görkəmli Azərbaycan bəstəkarı Qara Qarayevin 100 illik yubileyi haqqında" 17 oktyabr 2017-ci il tarixli, 3299 nömrəli Sərəncamına uyğun olaraq Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Bəstəkarlar İttifaqının təklifləri nəzərə alınaraq, Mədəniyyət Nazirliyi tərəfindən müvafiq Tədbirlər planı hazırlanmışdır. Tədbirlər planına əsasən fevral ayından başlayaraq bir çox ölkədə Azərbaycan mədəniyyətinin görkəmli nümayəndəsi, böyük bəstəkar, tanınmış alim-pedaqoq və ictimai xadim, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, akademik Qara Qarayevin 100 illiyinə həsr olunmuş silsilə tədbirlər təşkil olunmuşdur.

Cari ilin 1 fevral 2018-ci il tarixində Moskva Dövlət Konservatoriyasının kiçik zalında rusiyalı musiqiçilər – pianoçu Olqa Domnina, skripka ifaçısı Yelena Reviç və vokalçı Yevgeni Astafurovun iştirakı ilə kamera konserti, 5 fevral tarixində Nilniy-Novqorod Filarmoniyasında pianoçu Olqa Domninanın solo konserti, 5 fevral tarixində Azərbaycan Dövlət Akademik Filarmoniyasında yubiley gecəsi keçirilmişdir.

Azərbaycan Respublikasının Qırğız Respublikasındakı Səfirliyinin təşəbbüsü ilə cari ilin 8 fevral tarixində Bişkek Opera və Balet Teatrında dahi Azərbaycan bəstəkarı Qara Qarayevin 100 və görkəmli müğənni Müslüm Maqomayevin 75 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir. Tədbirdə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının dirijoru, Xalq artisti Yalçın Adıgözəlov, solistlər - Xalq artisti Azər Zeynalov (tenor), Əməkdar artist Afaq Abbasova (soprano) çıxış edərək Qara Qarayev, Fikrət Əmirov, Niyazi və Müslüm Maqomayevin əsərlərini səsləndirmişlər.

TÜRKSOY-un təşəbbüsü ilə cari ilin 15 fevral tarixində Ankara Bilkənd Universitetinin konsert zalında böyük Azərbaycan bəstəkarı Qara Qarayevin 100 illiyinə həsr olunmuş yubiley gecəsində Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor Firəngiz Əlizadə rəsmi qonaq qismində iştirak etmişdir. Yubiley çərçivəsində Qara Qarayevə həsr olunmuş kitab və not sərgisi, habelə "Bu, həqiqətin səsidir. Bəstəkar Qara Qarayev" adlı sənədli film nümayiş olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin "Elza İbrahimovanın 80 illik yubileyinin keçirilməsi haqqında" 22 dekabr 2017-ci il tarixli 3532 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə 2018-ci il fevralın 21-də Heydər Əliyev Sarayında yubiley gecəsi keçirilmişdir.

Cari ilin 1 mart tarixində Beynəlxalq Muğam Mərkəzində qocaman qoboy ifaçısı, Xalq artisti, “Şərəf” və “Şöhrət” ordenli Kamil Cəlilovun 80 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir.

Heydər Əliyev Fondu, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Bəstəkarlar İttifaqı və Azərbaycan Milli Konservatoriyası tərəfindən Bakıda 2018-ci il 7-14 mart tarixində “Muğam aləmi” V Beynəlxalq Muğam Festivalı keçirilmişdir. Festival çərçivəsində Bakı və Gəncə şəhərlərində Azərbaycan və xarici musiqiçilərin iştirakı ilə konsertlər təşkil edilmiş, beynəlxalq elmi simpozium, beynəlxalq muğam müsabiqəsi keçirilmişdir. Tədbirlərdə iştirak etmək üçün Türkiyə, Moldova, Polşa, İran, İraq, Özbəkistan, İordaniya, Misir, Suriya, Tacikistan, Qazaxıstan, Mərakeş, Gürcüstan, Hindistan, İsrail və başqa ölkələrdən musiqiçi və münsiflər heyəti dəvət olunmuşdur.

28 mart 2018-ci il tarixində D.Şostakoviç adına Sankt-Peterburq Akademik Filarmoniyasında Qara Qarayevin 100 illiyinə həsr olunmuş konsert keçirilmişdir. Konsertdə görkəmli dirijor, Xalq artisti, Dövlət mükafatı laureatı, professor Rauf Abdullayevin rəhbərliyi ilə Rusiyanın Əməkdar Kollektivi Sankt-Peterburq Akademik Simfonik Orkestrinin ifasında dahi bəstəkarın “Leyli və Məcnun” simfonik poeması, “İldırımlı yollarla” baletindən 2 nömrəli süita, “Don Kixot” simfonik qravürləri, dünya şöhrətli skripka ifaçısı, Beynəlxalq müsabiqələr laureatı, 2 dəfə “Grammy” mükafatı laureatı Maksim Vengerovun ifasında isə Qara Qarayevin skripka və simfonik orkestr üçün konserti səslənmişdir.

Cari ilin 3 aprel tarixində Heydər Əliyev sarayında ustad xanəndə, Xalq artisti, “Şöhrət” və “İstiqlal” ordenli, Prezident təqaüdçüsü, professor Arif Babayevin 80 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir. 80 illik yubiley münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Arif Babayev “Şərəf” ordeninə layiq görülmüşdür.

4 aprel 2018-ci il tarixində Bişkek Milli Akademik Opera və Balet Teatrında görkəmli yazıçı Mir Cəlal Paşayevin 110 illiyinə həsr olunmuş yubiley gecəsində iştirak etmək üçün Əməkdar artistlər, Azərbaycan Dövlət Musiqili Teatrının solisti Nərgiz Kərimova və Dövlət Xor Kapellasının solisti Aqşin Abdullayev Qırğızıstana ezam olunmuşlar.

4-11 aprel 2018-ci il tarixində Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında Qara Qarayevin 100 illiyinə həsr olunmuş “Qara Qarayevin yaradıcılığında milliliklə müasirliyin vəhdəti” adlı V Respublika elmi-ifaçılıq müsabiqəsi, elmi konfrans və seminar keçirilmiş, İstanbul Dövlət Texniki Universitetinin Türk klassik musiqisi Dövlət Konservatoriyasının fortepiano şöbəsinin müdiri Züleyxa Bağırova münsiflər heyətinin üzvü qismində iştirak etmişdir.

9 aprel 2018-ci il tarixində Moskva Dövlət Konservatoriyasının böyük zalında Azərbaycan Respublikasının Xalq artisti, tanınmış vokalçı Dinarə Əliyeva, Beynəlxalq müsabiqələr laureatı, skripka ifaçısı Nikita Borisoqlebskinin iştirakı ilə dahi Azərbaycan bəstəkarı Qara Qarayevin 100 illiyinə həsr olunmuş yubiley konserti keçirilmişdir.

14 aprel 2018-ci il tarixində Azərbaycan Dövlət Akademik Filarmoniyasında Qara Qarayevin 100 illiyinə həsr olunmuş festival çərçivəsində “Tristessa” müasir musiqi gecəsi təşkil edilmişdir. Gecədə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri Əməkdar artist Fuad İbrahimovun rəhbərliyi ilə Qara Qarayev, Fərəc Qarayev və Alban Berqin əsərlərini səsləndirmişlər.

Cari ilin 21 aprel tarixində İsveç Krallığının Stokholm şəhərində türk diaspor təşkilatları tərəfindən keçirilmiş Beynəlxalq Uşaq Gününə həsr olunmuş tədbirdə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, gənc vokalçı Taleh Yəhyayev iştirak etmişdir.

2018-ci ilin 27-30 aprel tarixində Gəncə Dövlət Filarmoniyasında görkəmli oftalmoloq-alim, SSRİ Əməkdar elm xadimi, tibb elmləri doktoru, akademik Zərifə Əliyevanın anadan olmasının 95 illiyinə həsr olunmuş Beynəlxalq musiqi festivalı təşkil olunmuşdur. Festivalda

azərbaycanlı solistlər – SSRİ Xalq artisti Fərhad Bədəlbəyli, xalq artistləri Murad Adıgözəlzadə, Aygün Bayramova, Samir Cəfərov, Şükür Səmədov, əməkdar artistlər Sahib Paşazadə, Ehtiram Hüseynov, Aleksey Miltıx, Səbinə Əsədova, Fəridə Məmmədova, İlahə Sadıxzadə, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti Taleh Yahyayev, beynəlxalq müsabiqələr laureatı Ceyla Seyidova ilə yanaşı, xarici ölkələrdən dəvət olunmuş solistlər tanınmış violonçel ifaçısı, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Dmitri Yablonski (ABŞ), görkəmli vokalçılar Teymuraz Ququqşvili (Gürcüstan) və Olqa Naqornaya (Ukrayna), eyni zamanda Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri iştirak etmişlər.

22 may 2018-ci il tarixində Bakı şəhərində Kamera və Orqan Musiqisi Zalında Almaniyada yaşayan həmyerlimiz, tanınmış orqan ifaçısı, Əməkdar artist Rəna İsmayılovanın iştirakı ilə “Qara Qarayev və onun davamçıları” adlı orqan gecəsi təşkil olunmuşdur.

25-29 may tarixində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı, Azərbaycan Dövlət Musiqili Teatrı, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı, Azərbaycan Dövlət Rus Dram Teatrı və Azərbaycan Dövlət Akademik Filarmoniyasının akustika sistemi, səs avadanlıqlarına baxış keçirilməsi, eyni zamanda Bakı şəhərinin teatr-konsert müəssisələrində çalışan texniki heyətə dəyərli tövsiyələrin verilməsi məqsədilə Moskva Dövlət Akademik Filarmoniyasının səs rejissorları Pavel Lavrenenkov və Natalya Jukova Bakıya dəvət olunmuşlar.

28 may tarixində Berlin şəhərində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş konsertdə tanınmış dirijor, Xalq artisti, professor Yalçın Adıgözəlov, Əməkdar artist, vokalçı İlham Nəzərov və gənc istedadlı tarzən Orxan Zeynalov çıxış etmişlər.

29 may tarixində Vyana şəhərində Azərbaycan Xalq Cumhuriyyətinin 100 illiyinə həsr olunmuş konsertdə tanınmış Azərbaycan müğənnisi, Əməkdar artist Tünzalə Ağayevanın rəhbərlik etdiyi kollektiv iştirak etmişdir.

Azərbaycan Respublikası Prezidentinin “Bülbülün 120 illik yubileyinin keçirilməsi haqqında” 11 may 2017-ci il tarixli, 2847 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə cari ilin 4-7 iyun tarixində Bakıda Azərbaycan professional vokal məktəbinin banisi, görkəmli müğənni, tədqiqatçı-alim və pedaqoq, tanınmış ictimai xadim, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı Vokalçıların Bülbül adına VII Beynəlxalq müsabiqəsi keçirilmişdir.

Müsabiqə iştirakçılarını münsiflər heyətinin sədri, Rusiya Federasiyasının Xalq artisti Sergey Leyferkus, Azərbaycandan SSRİ Xalq artisti Fərhad Bədəlbəyli, xalq artistləri Siyavuş Kərimi, Murad Adıgözəlzadə, Gürcüstanın Xalq artisti Teymuraz Ququşvili, Ukraynadan SSRİ Xalq artisti Mariya Stefyuk, Rusiya Akademik Böyük Teatrının gənclər proqramının rəhbəri, Əməkdar incəsənət xadimi Dmitri Vdovin kimi musiqi mədəniyyətinin görkəmli nümayəndələri qiymətləndirmişlər.

İyun ayının 8-də Heydər Əliyev Sarayında keçirilmiş SSRİ Xalq artisti, Dövlət mükafatları laureatı, professor Bülbülün anadan olmasının 120 illiyinə həsr olunmuş yubiley gecəsində müsabiqə qaliblərinə mükafatlar təqdim olunmuşdur. Müsabiqə qaliblərinin iştirakı ilə konsert iyunun 9-da Gəncə Dövlət Filarmoniyasında da təşkil edilmişdir.

17 iyun tarixində Varşavanın Kral Sarayında Azərbaycan Xalq Cumhuriyyətinin 100 illiyinə həsr olunmuş konsertdə tanınmış Azərbaycan musiqiçiləri – Xalq artisti, professor Murad Hüseynov (piano), əməkdar artistlər, Prezident mükafatçıları Sahib Paşazadə (tar) və Aleksey Miltıx (violonçel) çıxış etmişlər.

Mədəniyyət Nazirliyinin təşəbbüsü və təşkilatı dəstəyi ilə İstanbul Opera və Balet Teatrının dirijoru, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Elşad Bağırovun Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri və Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri ilə birgə layihəsi çərçivəsində 14 və 20 iyun 2018-ci il tarixində Azərbaycan Dövlət Akademik Filarmoniyasında konsertlər təşkil edilmişdir.

29 iyun tarixində Azərbaycan Dövlət Mahnı Teatrında "TÜRKSOY" Təşkilatının 25 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir. Tədbirdə Xalq artisti Ağaverdi Paşayevin rəhbərliyi ilə Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı, Qazaxıstanın "Murager" Xalq Çalğı Alətləri Ansamblı, Türkiyə, Özbəkistan, Qırğızıstan, Tuva Xalq Respublikasının tanınmış kollektivləri çıxış etmişlər.

27 iyun – 1 iyul tarixində Şəki şəhərində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqı və Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə IX "İpək Yolu" Beynəlxalq Musiqi Festivalı keçirilmişdir. Festivalda Azərbaycan Dövlət Sərhəd Xidmətinin Nümunəvi Hərbi Orkestri, Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri, Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri, muğam ifaçıları, Macarıstan musiqi qrupu, Dövlət Akademik Opera və Balet Teatrının Simfonik Orkestri, xor və solistləri, Rusiya musiqiçiləri, Qazaxıstanın Mahnı və Rəqs Ansamblı, Türkiyənin xalq çalğı alətləri ansamblı, TÜRKSOY-un Birləşmiş Xalq Çalğı Alətləri Orkestri iştirak etmişlər.

16 iyul tarixində Heydər Əliyev Sarayında Beynəlxalq Musiqi Təhsili Cəmiyyətinin (International Society for Music Education – ISME) 33-cü Ümumdünya Konfransının açılış mərasimi baş tutmuşdur. Tədbirdə dirijor Fuad İbrahimovun rəhbərliyi ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, Dövlət Xor Kapellası, Dövlət Rəqs Ansamblı, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının truppası və solistləri geniş konsert proqramı ilə çıxış etmişlər. Konsert proqramı respublikanın tanınmış elm, mədəniyyət və incəsənət xadimləri, habelə konfransda iştirak etmək üçün ölkəmizə təşrif buyuran beynəlxalq təşkilatların təmsilçiləri tərəfindən rəğbətlə qarşılanmışdır.

16 sentyabr tarixində Rusiya Federasiyası Mordova Respublikasının Dövlət Musiqili Teatrının təşəbbüsü və Mədəniyyət Nazirliyinin maliyyə dəstəyi ilə Saransk şəhərində Qara Qarayevin "Yeddi gözəl" baleti səhnələşdirilmişdir.

18-26 sentyabr tarixində Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Üzeyir Hacıbəyliyə həsr olunmuş X Beynəlxalq Musiqi Festivalı keçirilmişdir. Festivalda Rusiya, ABŞ, Türkiyə, İtaliya və Slovakiyadan tanınmış musiqiçi və kollektivlər – T.Dokşitser adına "New life brass" kvinteti, "Dədə Qorqud" kamera orkestri, Murad Kajlayev, Murad Annamamedov, Sergey Roldugin, Pavel Milyukov, Azər Dəmirov, Fərhad Aşumov və başqalarının iştirakı ilə 30-a yaxın tədbir keçirilmişdir. Festivalın açılış mərasimi 18 sentyabr tarixində Heydər Əliyev Sarayında baş tutmuşdur. Tədbirdə Xalq artisti, dirijor Fəxrəddin Kərimovun rəhbərliyi ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri və Dövlət Xor Kapellası (bədii rəhbər Gülbacı İmanova) çıxış etmişlər. Festival çərçivəsində görkəmli müğənni, SSRİ Xalq artisti Firəngiz Əhmədovanın 90 illiyinə həsr olunmuş "Azərbaycan opera səhnəmizin Nigarı" adlı silsilə tədbirlər keçirilmişdir. Eyni zamanda Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı, Azərbaycan Dövlət Musiqili Teatrı, R.Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrı, Ü.Hacıbəylinin Ev Muzeyi, Musiqi Mədəniyyəti Dövlət Muzeyi, Ağcabədi rayonu "Qarabağ Muğam Mərkəzi"ndə müxtəlif tamaşa, konsert və sərgilər təşkil olunmuşdur.

Cari ilin 21 sentyabr tarixndə Heydər Əliyev Sarayında SSRİ Xalq artisti, görkəmli bəstəkar Murad Kajlayevin müəllif gecəsi keçirilmişdir. Gecədə Rusiyanın Xalq artisti, dirijor Murad Annamamedovun rəhbərliyi ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri və Azərbaycan Dövlət Xor Kapellası iştirak etmişlər.

Festivalın bağlanış mərasimi 26 sentyabr tarixində Heydər Əliyev Mərkəzində baş tutmuşdur. Konsertdə Əməkdar artist, dirijor Əyyub Quliyevin rəhbərliyi ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, Rusiyanın Xalq artisti, məşhur violonçel ifaçısı Sergey Roldugin və P.İ.Çaykovski adına beynəlxalq müsabiqənin laureatı skripkaçı Pavel Milyukov çıxış etmişlər.

22 sentyabr tarixində P.İ.Çaykovski adına Konsert Zalında Qara Qarayevin 100 illiyinə həsr olunmuş konsert keçirilmişdir. Tədbirdə görkəmli dirijor Xalq artisti, Dövlət mükafatı

laureatı, professor Rauf Abdullayev və tanınmış skripka ifaçısı, Beynəlxalq müsabiqələr laureatı Alyona Bayeva iştirak etmişlər. Konsertdə P.İ.Çaykovski adına Böyük Simfonik Orkestrin ifasında bəstəkarın “Don Kixot” simfonik qravürləri, 3 saylı simfoniyası, Skripka və orkestr üçün konserti və “İldırımlı yollarla” baletindən 2 saylı süitası səslənmişdir. Rusiya ictimaiyyətinin böyük marağına səbəb olan bu konsert “Kultura” telekanalı tərəfindən lentə alınmışdır. Eyni zamanda P.İ.Çaykovski adına Konsert Zalının foyesində bəstəkarın həyat və yaradıcılıq yolunu əks etdirən sərgi də nümayiş olunmuşdur.

11 oktyabr 2018-ci il tarixində Azərbaycan Dövlət Akademik Filarmoniyasında dünya şöhrətli skripka ifaçısı Maksim Vengerovun iştirakı ilə SSRİ Xalq artisti, görkəmli Azərbaycan bəstəkarı Qara Qarayevin anadan olmasının 100, SSRİ Xalq artisti Arif Məlikovun 85 illiyinə, Xalq artisti Xəyyam Mirzəzadənin xatirəsinə həsr olunmuş konsert keçirilmişdir.

21 oktyabr 2018-ci il tarixində Mordoviya Respublikasının Dövlət Musiqili Teatrında dahi Azərbaycan bəstəkarı Qara Qarayevin “Yeddi gözəl” baletinin ikinci premyerasında Azərbaycan Dövlət Musiqili Teatrının dirijoru Orxan Həşimov iştirak etmişdir.

19 oktyabr tarixində Azərbaycan Dövlət Akademik Filarmoniyasında görkəmli opera müğənnisi, SSRİ Xalq artisti, “İstiqlal” ordenli, professor Lütfiyar İmanovun anadan olmasının 90 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir.

27 oktyabr 2018-ci il tarixində Heydər Əliyev Sarayında bəstəkar, şair-müğənni Rizvan Sədirxanovun “Səyyah Sindibad” adlı rok-operasının premyerası baş tutmuşdur.

16 noyabr 2018-ci il tarixində Moskva Dövlət Konservatoriyasının Ağ zalında tanınmış pianoçu, Azərbaycan Respublikasının Xalq artisti, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru Ülviyyə Hacıbəyovanın iştirakı ilə konsert keçirilmişdir.

24 noyabr 2018-ci il tarixində Azərbaycan Dövlət Akademik Filarmoniyasında tanınmış rusiyalı pianoçu, beynəlxalq müsabiqələr laureatı Filipp Kopaçevskinin iştirakı ilə konsert keçirilmişdir.

28 noyabr - 2 dekabr 2018-ci il tarixində Ankara, Paris, Vyana və Bratislavada TÜRKSOY təşkilatının 25 illik yubileyinə həsr olunmuş konsertlərdə Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijoru Mustafa Mehmandarov, alt ifaçısı Üzeyir Mahmudbəyli və Əməkdar artist, xanəndə Nuriyyə Hüseynova iştirak etmişlər.

28 noyabr 2018-ci il tarixində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Ü.Hacıbəylinin “Koroğlu” operasının tamaşası nümayiş olunmuşdur. Tamaşa görkəmli rəssam Tahir Salahovun 90 illiyinə həsr olunmuşdur.

Rusiya Federasiyası Moskva Hökumətinin təşəbbüsü, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilati dəstəyi ilə 5-8 dekabr 2018-ci il tarixində Bakıda “Moskva Mədəniyyət Günləri” keçirilmişdir. Tədbir çərçivəsində Moskva fotoqraflarının sərgisi, “На струнах дождя” tamaşası nümayiş olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin “Gülxar Həsənovanın 100 illik yubileyinin qeyd edilməsi haqqında” müvafiq Sərəncamının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən Tədbirlər Planı hazırlanaraq təsdiq edilmişdir. Tədbirlər Planına uyğun olaraq 5 dekabr tarixində Musiqi Mədəniyyəti Dövlət Muzeyində “Gülxar Həsənova-100” adlı tədbir təşkil olunmuş, 10 dekabr – Gülxar Həsənovanın doğum günündə İkinci Fəxri Xiyabanda onun məzarı ziyarət edilmiş, Azərbaycan Dövlət Akademik Filarmoniyasında sənətkarın 100 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir.

17 dekabr 2018-ci il tarixində Moskva Dövlət Konservatoriyasının Raxmaninov zalında Əməkdar artist, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti Fəridə Məmmədova və konsertmeyster Yuliya Kərimovanın iştirakı ilə kamera konserti keçirilmişdir.

19 dekabr 2018-ci il tarixində Beynəlxalq Muğam Mərkəzində dahi Azərbaycan bəstəkarı Qara Qarayevə həsr olunmuş yubiley tədbirlərinin yekunu olaraq bəstəkarın 100 illiyinə həsr

olunmuş kamera konserti keçirilmişdir. Tədbirdə tanınmış rusiyalı musiqiçilər, Beynəlxalq müsabiqələr laureatları – pianoçu Olqa Domnina, skripka ifaçısı Stanislav Malışev, o cümlədən istedadlı gənc vokalçı, Vokalçıların Bülbül adına VII Beynəlxalq müsabiqəsinin "Ümid" diplomuna layiq görülmüş Mahir Tağızadə iştirak etmişlər.

25 dekabr 2018-ci il tarixində Azərbaycan Dövlət Akademik Filarmoniyasında tanınmış rusiyalı skripka ifaçısı, beynəlxalq müsabiqələr laureatı Sergey Doqadinin iştirakı ilə konsert keçirilmişdir.

## TEATR SAHƏSİ

Hesabat dövründə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramının icrasını təmin etmək məqsədi ilə Mədəniyyət Nazirliyi tərəfindən Azərbaycan teatrının zəngin bədii irsinin və yaradıcılıq ənənələrinin qorunması, bəşəri dəyərlərin təbliği, teatrların maddi-texniki bazalarının modernləşdirilməsi, informasiya və maliyyə resurslarından səmərəli istifadə edilməsi, günün tələblərinə uyğun repertuarların formalaşdırılması istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

Mədəniyyət Nazirliyinin 2018-ci il üçün təsdiq olunmuş Repertuar planına əsasən Azərbaycan Dövlət Opera və Balet Teatrında Q.Qarayev və F.Qarayevin "Qoya" baleti, S.Fərəcovun "Cavad xan" baleti, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Y.Polyakovun "Sinif yoldaşları", K.Abdullanın "Bir, iki - bizimki", Ç.Aytmatovun "Manqurt", Ə.Əmirlinin "Ah, bu uzun sevda yolu", M.Qavranın "Qəribə, çox qəribə əhvalat", Azərbaycan Dövlət Musiqili Teatrında Ə.Əmirlinin "Nuri-didə Ceyhun", Azərbaycan Dövlət Rus Dram Teatrında Y.Poddubnayanın "Kraliçanın sonuncu ehtirası", R.Kuninin "Mən, o, pəncərə və sevgili", Anarın "Yuxularımdan uzaqlaş", İ.Berqmanın "Payız sonatası", Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında E.Uspenskinin "Çeburaşka", H.X.Andersenin "Qar kraliçası", F.Dürrenmattın "Dəlixanada qətl", P.Cüllifordun "Şirinlər", Ə.Qurbanovun "Tənbəl Əhməd", Ə.Nesinin "Öldür məni, canikom", "YUĞ" Dövlət Teatrında A.Çexovun "Təklif.Elçilik", Azərbaycan Dövlət Pantomima Teatrında E.Rzayevin "Mənim balığımsan", A.Çexovun "İt gəzdirən xanım", Azərbaycan Dövlət Kukla Teatrında M.Müşfiqin "Şəngülüm, Şüngülüm", ərəb xalq nağılı "Əlibaba və qırx quldur", Şuşa Dövlət Musiqili Dram Teatrında "Aşıq Qərib", İ.Coşqunun "Çal, oyna", A.Məmmədovun "Dəli Domrul", Gəncə Dövlət Dram Teatrında H.Cavidin "İblis", A.Çexovun "Vanya dayı", Sumqayıt Dövlət Dram Teatrında N.Muradoğlunun "Zülmətdə nur", Gəncə Dövlət Kukla Teatında Ə.Orucun "Zınqırovlu pişik", K.Ağaqızının "Tənbəl Əhməd", Lənkəran Dövlət Dram Teatrında M.Meterlinkin "Korlar", Sofoklun "Antiqona", Şəki Dövlət Dram Teatrında Ə.Səmədlinin "Hərənin bir ulduzu", B.Appayevin "Gözəlləri necə qaçırırlar", Füzuli Dövlət Dram Teatrında Elçinin "Qatil", N.Kazımovun "Ələddinin sehrli çırağı", Ə.Orucoğlunun "Nənəmin kələyi", Ağdam Dövlət Dram Teatrında H.Mirələmovun "Xəcalət", C.Cabbarlının "Aydın", Qusar Dövlət Ləzgi Dram Teatrında M.Rüstəmovun "Səfər bəyin toyu", X.Əlibəylinin "Dovşanın ad günü", Salyan Dövlət Kukla Teatrında R.Rəhimlinin "Göyçək Fatma", O.Ümmanın "Qızıl balığın nağılı", T.Mehdiyevin "Tək əldən səs çıxmaz", Qax Dövlət Kukla Teatrında T.Kərimlinin "Quyruğsuz ulağın sərgüzəştləri", K.Ağayevanın "Göyçək Fatma", Qazax Dövlət Dram Teatrında İ.Coşqunun "Çal, oyna", V.Hüqonun "Edam məhkumunun son günü", Mingəçevir Dövlət Dram Teatrında S.İbrahimlinin "Sadıqın toyu", A.Şaiqin "Bir saat xəlifəlik" tamaşalarının premyeraları keçirilmişdir.

Mədəniyyət və incəsənət xadimlərinin yaradıcılıq fəaliyyətlərinin stimullaşdırılması məqsədilə 10 fevral tarixində Azərbaycan Dövlət Rus Dram Teatrında Xalq artisti Aleksandr Şarovskinin 70 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmiş, 28 mart tarixində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında A.M.Şərifzadə adına Kiçik səhnədə Xalq artisti Rafiq Əzimovun 80 illiyinə həsr olunmuş M.Qavranın "Qəribə, cox qəribə əhvalat" tamaşası nümayiş olunmuşdur.

Cari ilin 30 yanvar tarixində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Azərbaycan lirik-psixoloji teatr məktəbinin yaradıcısı, görkəmli rejissor, Xalq artisti, Dövlət mükafatları laureatı Tofiq Kazımovun 95 illiyinə həsr olunmuş xatirə gecəsində "Ölülər" tamaşası, 8 iyun tarixində isə Xalq artisti Sofya Bəsirzadənin 100 illiyinə həsr olunmuş xatirə gecəsində N.Qoqolun "Müfəttiş" tamaşası oynanılmışdır.

Mədəniyyət Nazirliyi Azərbaycan Teatr Xadimləri İttifaqı ilə birgə 10 mart tarixində Milli Teatr Gününə həsr olunmuş elmi-praktiki konfrans təşkil etmişdir. Həmin tədbirdə teatr sahəsində xüsusi xidmətlər göstərmiş sənətçilərə Mədəniyyət Nazirliyinin "Fəxri mədəniyyət işçisi" döş nişanı, Mədəniyyət Nazirliyinin və Teatr Xadimləri İttifaqının fəxri fərmanları təqdim olunmuşdur. Respublikada fəaliyyət göstərən teatr-tamaşa müəssisələrində Milli Teatr Günü ilə əlaqədar yeni tamaşaların premyeraları və dəyirmi masalar keçirilmişdir.

Hesabat dövründə Novruz bayramı ölkə başçısının müvafiq Sərəncamına uyğun olaraq respublikada böyük təntənə ilə qeyd edilmişdir. Hər il olduğu kimi bu ildə 19 mart 2018-ci il tarixində Dənizkənarı Milli Parkda Azərbaycan Respublikası Prezidentinin, hökumət, dövlət xadimlərinin və geniş ictimaiyyətin iştirakı ilə Novruz bayramı şənliyi keçirilmişdir. Qız Qalasının ətrafından başlayaraq Dənizkənarı Bulvar boyu davam edən bayram tədbirində respublikamızın bütün bölgələri milli adət-ənənələri, mətbəx nümunələri, kənd təsərrüfatı məhsulları ilə təmsil olunmuşlar. Tədbirdə 3000-ə yaxın mədəniyyət və incəsənət xadimi iştirak etmişdir.

"Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramının icrasını təmin etmək məqsədilə 2018-ci il 12-19 may tarixində Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Şəki şəhər İcra Hakimiyyəti və Azərbaycan Teatr Xadimlərinin təşkilatı dəstəyi ilə "Sərhədsiz teatr" III Şəki Beynəlxalq Teatr Festivalı keçirilmişdir. Festival ümummilli lider Heydər Əliyevin anadan olmasının 95, müsəlman Şərqində ilk parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 və milli peşəkar teatrın yaradılmasının 145 illiyinə həsr olunmuşdur. Respublikamızda artıq üçüncü dəfə keçirilən və teatr ənənələrimizdən birinə çevrilən "Sərhədsiz teatr" festivalında iştirak etmək istəyən kollektivlərin çoxluğunu nəzərə alınaraq, festivalın iki mərhələdə - milli və beynəlxalq miqyasda keçirilməsinə qərar verilmişdir. Milli Teatr mərhələsinə respublika teatrlarının Sumqayıt, Xırdalan, Lənkəran, Mingəçevir, Xaçmaz, Yevlax, Ağdam, Bərdə, Ağstafa, Zaqatala, İsmayıllı, Göygöl bölgələrinə səfərləri daxil edilmişdir. Festivalın Beynəlxalq mərhələsində Acto Teatro Columbiya Teatrının Q.Q.Markesin "Məsum Erendira", İrandan Benderabbas Şəhər Teatrının V.Şekspirin "Maqbet" və Muğan-Hünər Teatrının M.Məhdəbinin "Canavar", Gürcüstandan Muvement Teatrının V.Şekspirin "Fırtına", Rusiyanın "Yaradıcı qrup" Kazan Mədəni Təşəbbüslər Fondunun "Əlif" və V.Txapsayev adına Şimali Osetiya Dövlət Akademik Teatrının uşaqlar üçün "Möcüzələr ölkəsində" tamaşaları ilə çıxış etmişlər.

"Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı çərçivəsində beynəlxalq əlaqələrin genişləndirilməsi məqsədilə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı fevralın 27-dən martın 2-dək BƏƏ-nin Əl-Füceyra şəhərində təşkil olunan VIII Beynəlxalq Monodram Tamaşalar Festivalında və 3-8 mart tarixində Hindistanın Dehli və Kəlküttə şəhərlərində keçirilmiş Beynəlxalq Teatr Festivalında T.Vəliyevanın "Cəza" tamaşası ilə, 24-30 aprel tarixində Sumqayıt Dövlət Dram Teatrı Türkiyənin Mersin şəhərində keçirilən IV Türk Dünyası Tiyatro Günlərində T.Özakmanın "Ocaq" tamaşası ilə, aprel ayının 26-dan mayın 3-dək Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının kollektivi Türkiyənin Konya şəhərində "Min nəfəs, bir səs" festivalında Elçinin "Cəhənnəm sakinləri" tamaşası ilə, aprelin 30-dan mayın 6-dək Rusiyanın Şimali Osetiya – Alanya Respublikasının Vladiqavqaz şəhərində A.Şaiqin "Tıq-tıq xanım" tamaşası ilə, həmçinin 10-16 may tarixində Makedoniyanın Bitola şəhərində keçirilən XX Beynəlxalq Monotamaşa Teatr Festivalında R.Zyuskindin "Kontrabas" tamaşası ilə çıxış etmişlər. Azərbaycan Cümhuriyyətinin yaradılmasının və azərbaycanlıların soyqırımının 100 illiyi çərçivəsində 2018-ci ilin may ayında İrəvan Dövlət Azərbaycan Dram Teatrı Türkiyədə qastrol səfərində olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin "Mingəçevir Dövlət Dram Teatrının 50 illiyi haqqında" 2 fevral 2018-ci il tarixli 3632 nömrəli Sərəncamına, "Həsən Turabovun 80 illik yubileyinin keçirilməsi haqqında" 6 mart 2018-ci il tarixli 3755 nömrəli Sərəncamına, "Mehdi Məmmədovun 100 illik yubileyinin keçirilməsi haqqında" 23 aprel 2018-ci il tarixli 17 nömrəli Sərəncamına, "Sumqayıt Dövlət Dram Teatrının 50 illiyi haqqında" 5 iyul 2018-ci il tarixli 268 nömrəli Sərəncamına, "Gənc Tamaşaçılar Teatrının 90 illiyi haqqına" 9 iyul 2018-ci il tarixli 296 nömrəli Sərəncamına əsasən Tədbirlər Planı hazırlanaraq həyata keçirilmişdir.

Cari ildə də Dövlət Proqramına uyğun olaraq teatr sahəsindəki islahatlar davam etdirilmişdir. Belə ki, Azərbaycan Respublikası Mədəniyyət Nazirinin müvafiq əmrinə əsasən bir neçə dövlət teatrında kadr dəyişikliyi aparılmışdır.

Nazirliyin Teatr sektorunun müdiri Naidə İsmayılzadə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının direktoru, nazirliyin əməkdaşı Gülnarə İbrahimova həmin teatrın direktor müavini, Fərmail Paşayev Gəncə Dövlət Kukla Teatrının direktoru, Əməkdar artist Mübariz Həmidov Sumqayıt Dövlət Dram Teatrının direktoru, İslam Həsənov isə "YUĞ" Dövlət Teatrının direktoru vəzifəsinə təyin olunmuşlar.

Ölkəmiz 3-9 sentyabr tarixində London şəhərində keçirilən "Unlimited" - incəsənət fəaliyyəti ilə məşğul olan məhdud imkanlı insanlar üçün təşkil olunmuş Konfransda təmsil olunmuşdur.

Sentyabr ayının 15-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Azərbaycan mədəniyyətinin və incəsənətinin inkişafındakı xidmətlərinə görə təltif olunmuş mədəniyyət xadimlərinin mükafatlandırılması mərasimi keçirilmişdir.

15 sentyabr tarixində Respublikada fəaliyyət göstərən teatrlar 146-cı Teatr mövsümünü təntənəli şəkildə qeyd etmişlər.

13-17 sentyabr tarixində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı A.Məmmədovun "İuda" tamaşası ilə Qazaxıstanın Aktau şəhərində Xəzəryanı ölkələrin Teatr festivalında, Azərbaycan Dövlət Kukla Teatrı 22-25 sentyabr tarixində Rusiya Federasiyasının Həştərxan Vilayətində keçirilən "Kaspiyskiy bereq" (Xəzərin sahili) adlı VI Beynəlxalq Teatr Festivalında, Azərbaycan Dövlət Rus Dram Teatrı 2-9 oktyabr tarixində Rusiya Federasiyasının Dağıstan Respublikasında Şimali Qafqaz, Qara dəniz və Xəzər reqionununda yerləşən ölkələrin Rus dram tearlarının V Beynəlxalq Teatr Festivalında, Azərbaycan Dövlət Kukla Teatrı 5-14 oktyabr tarixində Rusiyanın paytaxtı Moskva şəhərində keçirilmiş S. V. Obraztsov adına IX Beynəlxalq Kukla Teatrları Festivalında iştirak etmişlər.

Azərbaycan Respublikası Prezidentinin "Mingəçevir Dövlət Dram Teatrının 50 illiyi haqqında" 2 fevral 2018-ci il tarixli 3632 nömrəli Sərəncamına əsasən 17 oktyabr tarixində Mingəçevir Dövlət Dram Teatrının - 50 illiyi, "Sumqayıt Dövlət Dram Teatrının 50 illiyi haqqında" 5 iyul 2018-ci il tarixli 268 nömrəli Sərəncamına əsasən 30 oktyabr tarixində isə Sumqayıt Dövlət Dram Teatrının 50 illik yubileyi təntənəli şəkildə qeyd olunmuşdur. Bu teatrların bir qrup əməkdaşları ölkə başçısının müfaviq Sərəncamı ilə fəxri ad, medal və diplomlarla təltif edilmişdir.

5-6 noyabr tarixində Bakıda "XX əsr teatr fəlsəfəsi: mövcudluq konsepsiyası"mövzusunda V Bakı Beynəlxalq Teatr Konfransı keçirilmişdir. Konfransda 49 ölkədən 131 teatr mütəxəsssisi iştirak etmişdir.

15 noyabr tarixində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında ölkə başçısının "Həsən Turabovun 80 illik yubileyinin keçirilməsi haqqında" 6 mart 2018-ci il tarixli 3755 nömrəli Sərəncamına əsasən Xalq artisti Həsən Turabovun 80 illiyi qeyd edilmişdir.

Azərbaycan Dövlət "YUĞ" Teatrı cari ilin 27 oktyabr-3 noyabr tarixində Türkiyənin Adana şəhərində keçirilən "V Şəhər Teatrları" Festivalında A.Çexovun "Təklif. Elçilik" tamaşası ilə, 12-17 noyabr tarixində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı Ç.Aytmatovun

“Manqurt” tamaşası ilə Qırğızıstanın paytaxtı Bişkek şəhərində “Aytmatov və teatr-2018” Beynəlxalq Teatr Festivalında, 20-25 noyabr tarixində Lənkəran Dövlət Dram Teatrı İran İslam Respublikasının Həmədan şəhərində keçirilən 25-ci Beynəlxalq Uşaq və Gənclər Teatr Festivalında iştirak etmişlər.

Azərbaycan Dövlət Rus Dram Teatrı 22 noyabr tarixində A.Qriboyedov adına Gürcüstan Dövlət Rus Dram Teatrında İ.Berqmanın “Payız sonatası” tamaşası ilə, 29 noyabr tarixində isə Gürcüstanın A.Qriboyedov adına Gürcüstan Dövlət Rus Dram Teatrı Bakıda “А.Л.Ж.И.Р.” tamaşası ilə qarşılıqlı qastrol səfərlərində olmuşlar.

3 dekabr tarixində Teatr Xadimləri İttifaqında Əməkdar artist Hamlet Qurbanovun 80 illik yubileyi keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının 90 illiyi haqqına” 9 iyul 2018-ci il tarixli 296 Sərəncamına əsasən 7 dekabr tarixində Gənc Tamaşaçılar Teatrının 90 illik yubileyi keçirilmişdir. Teatrın bir qrup əməkdaşı ölkə başçısının müfaviq Sərəncamı ilə fəxri ad, medal və diplomlarla təltif edilmişdir.

Ölkə başçısının “Mehdi Məmmədovun 100 illik yubileyinin keçirilməsi haqqında” 23 aprel 2018-ci il tarixli 17 nömrəli Sərəncamına əsasən SSRİ Xalq artisti Mehdi Məmmədovun 100 illik yubileyi 18 dekabr tarixində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında qeyd olunmuşdur.

Cari ilin 24 dekabr tarixində Şuşa Dövlət Musiqili Dram Teatrının binasının təmirdən sonra təntənəli açılış mərasimi keçirilmişdir.

## DÖVLƏT ƏHƏMİYYƏTLİ TƏDBİRLƏRİN TƏŞKİLİ

Cari ilin 15 mart tarixində “Bulvar” oteldə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi VI Qlobal Bakı Forumunun ziyafət konserti təşkil olunmuşdur. Konsertdə Xalq artisti Samir Cəfərov, Əməkdar artistlər Nərgiz Əliyeva, Nərgiz Kərimova və “Qaytağı” instrumental ansamblı çıxış etmişdlər.

5 aprel tarixində Heydər Əliyev Mərkəzində Qoşulmama hərəkatı çərçivəsində Xarici İşlər nazirlərinin XVIII aralıq iclasına həsr olunmuş ziyafətin konsert proqramı keçirilmişdir. Konsertdə Azərbaycan Dövlət Kamera orkestri və bir sıra tanınmış musiqiçilər iştirak etmişlər.

Türkiyə Respublikasındakı Azərbaycanın Turizm nümayəndəliyi və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə İstanbul şəhərində yerləşən “Askeri muzeyi”nin konsert salonunda Azərbaycanın turizm potensialını, mədəniyyətini, tarixini, bütövlükdə ölkəmizi tanıtmaq üçün 2018-ci il 24 aprel - 3 may tarixlərində “5 gün, 5 müzik” adlı konsertlər təşkil edilmişdir. Tədbirlərdə Xalq artisti Samir Cəfərov, əməkdar artistlər Nigar Şabanova, Səbuhi İbayev, Afaq Abbasova, Xalq artisti Samir Cəfərov, Xalq artisti Ənvər Sadıqovun rəhbərliyi ilə “Qaytağı” ansamblı,Əməkdar artist Elçin Şirinovun rəhbərliyi ilə caz qrupu, Arslan Növrəslinin rəhbərliyi ilə etno-caz qrupu iştirak etmişlər.

Cari ilin 22 may tarixində Azərbaycanının İspaniya krallığı və Andorra knyazlığındakı səfirliyinin və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə İspaniyanın Madrid şəhərində 28 may Respublika Gününə həsr olunmuş tədbir keçirilmişdir. Bu məqsədlə mayın 21-dən 23-dək incəsənət xadimlərindən ibarət 4 nəfərlik heyət Madrid şəhərinə ezam olunmuşdur.

23 may 2018-ci il tarixində Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində “Bruklin-Bakı” dostluq assosiasiyasının və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə “Qafqaz irsi” adlı festival çərçivəsində “Azərbaycan Mədəniyyəti Günü” qeyd olunmuşdur. Tədbirdə iştirak etmək üçün musiqiçi Sahib Paşazadənin rəhbərliyi ilə 4 nəfərdən ibarət musiqiçilər qrupu 2018-ci il mayın 21-dən 24-dək Amerika Birləşmiş Ştatlarının Nyu York şəhərinə ezam olunmuşlar.

28 may 2018-ci il tarixində Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş konsert təşkil olunmuşdur. Tədbirdə Q.Qarayev adına Azərbaycan Dövlət Kamera orkestri, xalq artistləri Azər Zeynalov, Samir Cəfərov, əməkdar artistlər Sahib Paşazadə, Anar Şuşalı, Nərgiz Kərimova və başqaları iştirak etmişlər.

30 may 2018-ci il tarixində Bakı Konqres Mərkəzində "Azərbaycan Qadınına Seçki Hüququnun verilməsinin 100 illiyinə həsr edilmiş Qadınların V Beynəlxalq Forumu" keçirilmişdir. Tədbir zamanı musiqi proqramı nümayiş olunmuşdur.

26 iyun 2018-ci il tarixində "Gülüstan" sarayında Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaranmasının 100-ci ildönümü münasibətilə təntənəli tədbir keçirilmişdir.Tədbirdə xalq mahnıları, Azərbaycan və xarici bəstəkarların əsərlərini ifa olunmuşdur.

2 iyul 2018-ci il tarixində "Buta Palace" da Azərbaycan Polisinin 100 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilmişdir. Mərasimin bədii hissəsində tanınmış sənətçilərin çıxışı təmin edilmişdir.

18 iyul 2018-ci il tarixində İtaliya Respublikasının Prezidenti cənab Sergio Mattarelanın Azərbaycana rəsmi səfərinə həsr olunmuş ziyafətin konsert proqramı təşkil olunmuşdur.

20 iyul tarixində MDB ölkələrinin daxili işlər nazirlərinin Bakı iclasının ziyafət-konsert hissəsi təşkil olunmuşdur.Tədbirdə Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri, Azərbaycan Dövlət Rəqs Ansamblı, xalq artistləri F.Hacıyevanın, S.Cəfərovun, "Qaya Dövlət Vokal" ansamblının çıxışları təmin olunmuşdur.

21 sentyabr tarixində "Gülüstan sarayında" Azərbaycan Parlamentinin yaranmasının 100 illiyinə həsr olunmuş tədbir zamanı təşkil olunmuş konsert proqramında Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı, Q.Qarayev adına Azərbyacan Dövlət Kamera orkestri, Xalq artisti Fidan Hacıyeva, Əməkdar artistlər Afaq Abbasova, Aqşin Abdullayev, Qorxmaz Qurbanov, Sevda Ələkbərzadə, İlham Nəzərov və digər musiqiçilər çıxışı təmin edilmişdir.

27 sentyabr 2018-ci il tarixində Heydər Əliyev Mərkəzində IX Azərbaycan-Rusiya Regionlarasası Forumunun ziyafət konsert proqramı təşkil olunmuşdur.

1 oktyabr tarixində Azərbaycan Prokurorluğunun 100 illik yubileyi münasibətilə təşkil olunmuş ziyafətin bədii hissəsində Azərbyacan Dövlət Xor Kapellası, Q.Qarayev adına Azərbyacan Dövlət Kamera orkestri, Xalq artistləri Samir Cəfərov, Fidan Hacıyeva, Əməkdar artistlər Nərgiz Kərimova, Aqşin Abdullayev, Təyyar Bayramov, Abbas Bağırov və digər sənətçilərin. çıxışı təmin olunmuşdur.

14-28 oktyabr tarixində Bakıda Mədəniyyət Nazirliyi və Azərbyacan Mədəniyyət Fondu tərəfindən Bakı Beynəlxalq Caz Festivalı keçirilmişdir.

23 oktyabr tarixində Rusiya Federasiyasının daxili işlər naziri, RF-nin polis generalı Vladimir Kolokoltsevin başçılıq etdiyi nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdə olmuşdur. Səfər çərçivəsində "Xəzri" istirahət mərkəzində təşkil olunan ziyafətin bədii hissəsində Azərbaycan Dövlət Rəqs Ansamblı, Muğam üçlüyü və solistlərin iştirakı ilə konsert proqramı təşkil olunmuşdur. Tədbir zamanı Xalq artistləri Mənsum İbrahimov, Samir Cəfərov, Fidan Hacıyeva, Əməkdar artist Ceyhun İsmayılov çıxışı təşkil edilmişdir.

4 noyabr tarixində Səudiyyə Ərəbistanının Krallığıının daxili işlər naziri şahzadə Əbdüləziz bin Səud bin Nayif al Səudin başçılıq etdiyi nümayəndə heyəti üçün Xəzri istirahət mərkəzində təşkil olunmuş ziyafətin bədii hissəsi zamanı Azərbaycan Dövlət Rəqs Ansamblı, Muğam üçlüyü və solistlərin iştirakı ilə konsert proqramı təşkil olunmuşdur. Tədbir zamanı Xalq artistləri Mənsum İbrahimov, Samir Cəfərov, Fidan Hacıyeva və əməkdar artist Ceyhun İsmayılovun çıxışı təmin olunmuşdur.

11 noyabr tarixində Fransanın Strasburq şəhərində Azərbaycan muğamının YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsinin 10 illiyinə həsr olunmuş tədbir

keçirilmişdir. Konsert proqramı zamanı Azərbaycan Dövlət Rəqs ansamblı, Xalq artisti Ənvər Sadıqov və “Qaytağı” instrumental ansamblı çıxışı təşkil edilmişdir.

14 noyabr tarixində Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə WADA (Ümumdünya Antidopinq Agentliyinin- ÜADA) Təsisçilər Şurasının və İcraiyyə Komitəsinin iclaslarına həsr olunmuş ziyafət baş tutmuşdur. Ziyafətin bədii hissəsində Azərbaycan Dövlət Rəqs ansamblı, Q.Qarayev adına Azərbaycan Dövlət Kamera orkestri, Xalq artisti Ənvər Sadıqov, Əməkdar artistlər Ehtiram Hüseynov, Sahib Paşazadə, Toğrul Əsədullayev, İlahə Əfəndiyeva, Aqşin Abdullayev, Nərgiz Kərimova və Emil Əfrasiyabın çıxış təmin olunmuşdur.

22 noyabr tarixində “Mariot” oteldə Azərbaycan Ədliyyə orqanlarının yaranmasının 100 illiyi ilə bağlı tədbir təşkil olunmuşdur. Tədbirin konsert hissəsində Azərbaycan Dövlət Kamera Orkestri, Azərbaycan Dövlət Rəqs ansamblı, “Qaya” Dövlət vokal ansamblı, Əməkdar artistlər Aqçin Abdullayev, Afaq Abbasova, Təyyar Bayramov, İnara Babayeva, Abbas Bağırov və İlham Nəzərovun çıxışı təşkil edilmişdir.

29 noyabr tarixində Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət komitəsinin dəstəyi ilə Beynəlxalq Muğam Mərkəzində “Azərbaycan ailəsi” film festivalının mükafatlandırılma mərasimi zamanı konsert proqramı təşkil olunmuşdur.

13 dekabr tarixində Almaniya Federativ Respublikasının Berlin şəhərində Azərbaycan Respublikasının Almaniyadakı səfirliyi və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan muğamının YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsinin 10 illiyinə həsr olunmuş tədbir keçirilmişdir. Tədbir çərçivəsində Əməkdar artist, tarzən Sahib Paşazadənin rəhbərliyi ilə muğam üçlüyünün konserti keçirilmişdir.

14 dekabr tarixində Milli Məclisdə Parlamentlərarası İttifaqın gənc parlament üzvlərinin V Qlobal konfransı çərçivəsində “Buta Palace”də konsert proqramı təşkil olunmuşdur. Tədbirdə Q.Qarayev adına Azərbaycan Dövlət Kamera orksetri, Azərbaycan Dövlət Rəqs ansamblı, Əməkdar artist Nərgiz Kərimova və Süleyman Süleymanov, Fəxri Kazım Nicat, Sevda Yəhyayeva və digər sənətçilərin iştirakı təşkil edilmişdir.

## TƏSVİRİ VƏ DEKORATİV SƏNƏT SAHƏSİ

Hesabat dövrü ərzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin qeyd olunması ilə bağlı yubileyə həsr olunmuş müxtəlif loqotiplərin variantları hazırlanmışdır.

Cari ilin 3 may tarixində Cənubi Koreya Respublikasının Seul şəhərində keçirilmiş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş Azərbaycan milli geyim sərgisinin təşkili məqsədilə “Bakı” Milli Geyim Evinin rəhbəri ezam olunmuşdur.

22-26 may tarixində Muzey Mərkəzində əslən cənubi Azərbaycandan olan rəssam Vədud Müəzzinin fərdi sərgisi təşkil olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 27 may 2018-ci il tarixli Sərəncamına əsasən Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə 7 nəfər “Xalq rəssamı”, 9 nəfər “Əməkdar rəssam”, 1 nəfər “Əməkdar mədəniyyət işçisi” fəxri adlara layiq görülmüşdür.

Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin “Yaşlı və gənc nəsil yazıçı, rəssam və bəstəkarların yaradıcılıq fəaliyyətini təmin etmək üçün xüsusi təqaüd fondu haqqında” 06.08.2007-ci il tarixli 612 nömrəli Fərmanı, Nazirliyin 15.05.2017-ci il tarixli, 116 nömrəli Əmri, Azərbaycan Rəssamlar İttifaqının 16.04.2018-ci il tarixli 036 nömrəli təqdimatlarına əsasən 50 nəfər yaşlı nəsil, 20 nəfər gənc nəsil rəssamlar xüsusi təqaüdlərə layiq görülmüşlər.

8-10 iyun tarixində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi çərçivəsində Xətai Sənət Mərkəzində Azərbaycan Rəssamlar İttifaqının üzvü, Şeyxzamanovlar nəslinin davamçısı Fərhad Əliyevin fərdi sərgisi təşkil olunmuşdur.

Polşanın Krakov Dağ-Mədən Akademiyasının binasına vurulması üçün görkəmli Azərbaycan alimi Yusif Məmmədəliyevin xatirə lövhəsi hazırlanmışdır.

“Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə İran İslam Respublikasının Mədəniyyət və İslami İrşad Nazirliyi arasında 2018 – 2021-ci illər üçün Mədəni Mübadilə Proqramı”na əsasən 27 iyun - 1 iyul 2018-ci il tarixində Azərbaycan Respublikasında İran İslam Respublikasının Mədəniyyət Günləri keçirilmişdir. Mədəniyyət Günləri çərçivəsində İran Milli Orkestrinin iştirakı ilə 27 iyun tarixində Azərbaycan Dövlət Akademik Filarmoniyasında, 29 iyun tarixində isə Gəncə Dövlət Filarmoniyasında konserti, 27 iyun tarixində İranın tanınmış incəsənət ustalarının, dekorativ sənət, rəsm, foto, xəttatlıq və turizm sərgisi, 28 iyunda Nizami Kino Mərkəzində tanınmış rejissor Məhəmmədrza Məcidi Taleşin “Məhəmməd: Allahın Elçisi” filminin təqdimatı, 28-29 iyunda Azərbaycan Dövlət Musiqili Teatrında Titovak Teatrının “İlahi komediya, cəhənnəm” tamaşasının nümayişi keçirilmişdir.

29 iyun tarixində “Qalereya 1969” Qalereyasında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və Birləşmiş Krallığın Hərbi Hava Qüvvələrinin 100 illiyinə həsr olunmuş fotosərgi təşkil olunmuşdur. Bu tədbir Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuşdur.

27-29 sentyabr tarixində “Qalereya 1969” Qalereyasında Qax rayonu Sarıbaş kəndinin turizm potensialını əks etdirmək məqsədilə Qax rayonunun qədim tarixi və özünəməxsus ənənələri olan Sarıbaş kəndinə ezam olunan rəssamlar Fərhad Yalquzaq və Nazim Məmmədovun əsərlərindən ibarət “Sarıbaş” adlı sərgi təşkil olunmuşdur.

Mədəniyyət Nazirliyinin tabeçiliyində fəaliyyət göstərən Azərbaycan Dövlət Rəsm Qalereyası və “Xətai” Sənət Mərkəzinin birgə təşkilatçılığı ilə uşaq və yeniyetmələr arasında keçirilməsi planlaşdırılan “Mənim yay tətilim”, gənc rəssamlar arasında isə “Qrafika dünən və bu gün” adlı respublika rəsm müsabiqələri təşkil edilmişdir. 18 sentyabr tarixində Azərbaycan qalereyanın təşkilatçılığı ilə “Starbooks Azərbaycanda” kofe incəsənəti adlı ustad təlimi keçirilmiş, 25-26 sentyabr tarixində isə həmin qalereyanın təşkilatçılığı ilə bölgələrdə fəaliyyət göstərən qalereyaların rəsm dərnəklərinin şagirdləri və gənc rəssamlar üçün Cəlilabad və Şirvan şəhərlərində plener və ustad dərslər keçirilmişdir.

Ümmumən Mədəniyyət Nazirliyinin tabeçiliyində fəaliyyət göstərən mədəniyyət müəssisələrinin iş səmərəliliyinin artırılması, bölgələrdə mədəni mühitin rəngarəng tədbirlərlə zənginləşdirilməsi, əhalinin mədəni istirahətinin təşkili, Azərbaycan rəssamlarının yaradıcılığının təbliği, gənc nəslin rəssamlıq sənətinə olan marağının artırılması məqsədi ilə “Paytaxtdan bölgələrə” silsilə sərgilərin və ustad dərslərinin təşkili olunmuşdur. 12 avqust tarixində Azərbaycan Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə Azərbaycanın ən böyük gənclər təşkilatı olan İB Club əməkdaşları ilə “Portret psixologiyası” seminarı keçirilmiş, seminarda incəsənət tarixində yer tutmuş məşhur portretlər haqqında maraqlı məlumatlar verilmiş, seminarın praktik hissəsində iştirakçıların çəkdiyi eskizləri nöropsixoterapevt Nuranə Kazımova təhlil etmişdir.

2-8 senyabr tarixində Qırğız Respublikasında III Ümumdünya Köçəri Oyunları və Beynəlxalq Etnomədəniyyət Festivalında Azərbaycan milli və müasir geyim sərgisində Mədəniyyət Nazirliyinin dəstəyi ilə modelyer Gülnarə Xəlilova uğurla iştirak etmişdir.

24 sentyabr - 4 oktyabr tarixlərində Belarus Respublikasının Mogilyov vilayətində keçirilən Belarus mənşəli rus rəssamı Sergey Konstantinoviç Zaryankonun 200 illiyinə həsr olunmuş 23-cü Beynəlxalq Rəngkarlıq Plenerində Azərbaycanı istedadlı rəssam Cəlal Ağayev təmsil etmişdir.

14 dekabr 2018-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Bakı Ekspo Mərkəzində Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı, dünya şöhrətli rəssam Tahir Salahovun 90 illik yubileyinə həsr olunmuş sərginin açılışı mərasimı uğurla həyata keçirilmişdir.

**MUZEY İŞİ VƏ MƏDƏNİ SƏRVƏTLƏRƏ NƏZARƏT SAHƏSİ**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində aşağıdakı profillər üzrə 222 muzey fəaliyyət göstərir.

| | | | | | |
|---|---|---|---|---|---|
| Tarix-diyarşünaslıq | — | 71 | Bədii | — | 13 |
| Heydər Əliyev mərkəzləri | — | 60 | Ədəbiyyat | — | 7 |
| Ev muzeyləri | — | 48 | Döyüş şöhrəti | — | 6 |
| Tarix | — | 17 | | | |

Azərbaycan xalqının tarixi-mədəni irsinin, maddi mədəniyyət nümunələrin qorunması, onların geniş miqyasda tanınması məqsədilə əhali arasında daim təbliğat işi aparılır. Qeyd edilən müddət ərzində tarixi hadisə, bayram günləri, habelə dahi şəxsiyyətlərin həyat, yaradıcılığı, fəaliyyəti və onların mühüm tarixləri, yubileyləri ilə bağlı müxtəlif səpkili tədbirlər keçirilmişdir.

1990-cı il 20 yanvar faciəsinin 28-ci ildönümü ilə bağlı respublikanın muzey və Heydər Əliyev Mərkəzlərində silsilə tədbirlər keçirilmişdir. Tədbirlərdə sərgilər, mühazirələr, tarix dərsləri, faciənin şahidləri ilə görüşlər keçirilmiş, şəhidlər xiyabanı, abidələr ziyarət edilmişdir.

Belə ki, Azərbaycan Milli İncəsənət Muzeyində xalqımızın qan yaddaşında əbədi yaşayacaq 20 Yanvar hadisələrinin 28-ci ildönümünə həsr olunmuş tədbirlər keçirilmişdir. Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən Qara yanvar faciəsini yetişməkdə olan gənc nəslə aşılamaq məqsədi ilə 18 yanvar tarixində tarixçi Rizvan Hüseynovla 20 Yanvar hadisələrinin müzakirəsinə həsr olunmuş dəyirmi masa-diskussiya təşkil edilmişdir.

19 Yanvar tarixində Milli İncəsənət Muzeyində uşaqların maariflənməsi məqsədi ilə 6 saylı tam orta məktəbin şagirdlərinə “Qanlı qərənfil” adlı ustad dərsi keçirilmişdir. Həmçinin şagirdlər Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələrinin “Sülhə çağırış” adlı mövzunda çəkilmiş rəsm əsərləri və öz həmyaşıdlarının yazdıqları esselerlə tanış olmuşlar.

18 yanvar tarixində Azərbaycan İstiqlal Muzeyinin ekspozisiyasında “Sağalmayan yara” adlı tədbir-sərgi keçirilmişdir. Sərgidə muzeyə yeni daxil olmuş 20 Yanvar şəhidlərinin şəxsi əşyaları nümayiş olunmuş və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin “Teatr sənəti və Musiqi sənəti” fakültəsinin tələbərinin hazırladığı bədii hissə təqdim edilmişdir.

Xocalı Soyqırımının 26-cı ildönümü ilə bağlı Bakı şəhərində fəaliyyət göstərən Azərbaycan Milli İncəsənət, Azərbaycan Xalça, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət, Azərbaycan İstiqlal muzeylərində, habelə respublikanın muzey və Heydər Əliyev Mərkəzlərində sərgilər, xatirə görüşləri, tədbirlər keçirilmişdir.

Mayın 18-də Azərbaycan Xalça Muzeyində Beynəlxalq Muzeylər Gününə həsr olunmuş tədbir keçirilmişdir. Bu il Muzeylər günü “Hiperkommunikasiya dövründə muzeylər: yeni yanaşmalar, yeni auditoriyalar” mövzusuna həsr olunmuşdur. Tədbir zamanı Azərbaycan Xalça Muzeyi "Öz ilməni toxu" adlı interaktiv instalyasiya hazırlamışdır. Muzeyin foyesində "zili" xovsuz xalça növünü toxumaq üçün üç böyük çərçivə-hana quraşdırılmışdır. Çərçivələrdə rəngli iplik kələflər bərkidilmişdir. Hər bir ziyarətçi zövqünə görə rəng seçərək bir və ya daha çox ip sırası toxunan xovsuz xalça toxunuşunda iştirak etmişlər.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə cari ilin 27-30 sentyabr tarixində Bakı şəhərində görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsimiyə həsr olunmuş Festival təşkil edilmişdir. Qeyd edilən festivalın təşkili ilə bağlı Heydər Əliyev Fondu ilə birgə Proqram hazırlanmışdır.

Hazırlanmış dörd günlük festival proqramı çərçivəsində müxtəlif səpkili tədbirlər, müsabiqələr, poeziya və musiqi axşamları, sərgilər, Şairin doğulduğu Şamaxı şəhərinə səfər və orada onun həyatı ilə bağlı məkanlara ziyarət daxil edilmişdir.

Noyabrın 27-də Muzey Mərkəzinin sərgi qalereyasında “Bizi yurdumuza qaytarın” adlı sərgi-konfrans keçirilmişdir. Tədbir Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Azərbaycan Qaçqın və Məcburi Köçkün Gənclər Təşkilatı, İstiqlal Muzeyi və Muzey Mərkəzinin təşkilati dəstəyi ilə baş tutmuşdur. Sərgidə erməni işğalından xilas edilmiş Kəlbəcər, Xocalı, Ağdam, Laçın, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan və Şuşa tarix-diyarşünaslıq muzeylərinin fondlarına məxsus eksponatlar nümayiş olunmuşdur. Tədbirin məqsədi ölkəmizin məruz qaldığı işğala biganə yanaşan beynəlxalq təşkilatlara cansız əşyaların dili ilə yaşadığımız reallığı çatdırmaq idi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 10 yanvar 2018-ci il tarixli, 3568 nömrəli Sərancamına əsasən 2018-ci il Azərbaycan Respublikasında “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi və Azərbaycan Xalq Cümhuriyyəti İli çərçivəsində cari ilin 25 may tarixində Salyan şəhərində Əli bəy Hüseynzadəyə məxsus foto, sənəd və arxiv materiallarının surətləri və kitablardan ibarət “Milli istiqlal aşiqi” adlı sərgi və eyni zamanda dəyirmi masa təşkil edilmişdir. Tədbir çərçivəsində Azərbaycan İstiqlal Muzeyinin fonduna məxsus Əli bəy Hüseynzadənin bir ədəd şəxsi əşyasının Ə.Hüseynzadə adına Salyan rayon Tarix-Diyarşünaslıq Muzeyinə verilməsi ilə bağlı təqdimat mərasimi keçirilmişdir.

May ayının 25-də “Azərbaycan Xalq Cümhuriyyəti İli” çərçivəsində Azərbaycan Milli İncəsənət Muzeyində “İrs. Azərbaycan Xalq Cümhuriyyəti-100” adlı sərginin açılışı təşkil olunmuşdur. Sərgidə Azərbaycan Milli İncəsənət Muzeyinin, Azərbaycan Dövlət Rəsm Qalereyasının fondlarından və rəssamların şəxsi kolleksiyalarından seçilmiş incəsənət əsərlər, Bakı İncəsənət Mərkəzinin təqdimatında əsas etibarilə Cümhuriyyət tarixini əks etdirən arxiv foto və sənədlər, o cümlədən tanınmış hüquqşünas Rəşid Rzayevin şəxsi kolleksiyasından 1919-1920-ci illərə aid əskinaslar və poçt markaları nümayiş etdirilmişdir. Burada İstiqlal Bəyannaməsini qəbul etmiş Milli Şura üzvlərinin portretləri, Azərbaycan Cümhuriyyət hökumətinin üzvləri haqqında məlumat, Azərbaycanı rus-imperialist və daşnak işğalçılarından azad etmiş Qafqaz İslan Ordusunun və Azərbaycan ordusunun və sərkərdələrinin foto görüntüləri verilmişdir. Eksponatlar arasında Azərbaycan Cümhuriyyətinin xəritələri xüsusi yer tutur. Bu xəritələr sırasında Paris Sülh Konfransına təqdim edilmiş xəritə, eləcə də Cümhuriyyətin sərhədlərini əks etdirən digər siyasi xəritələr vardır. Ekspozisiyada həmçinin, 1920-ci il aprelin 28-də Cümhuriyyəti süquta yetirmiş rus bolşevik hökumətinin 11-ci Qızıl Ordusunun vaxtı ilə Bakıda çəkilmiş fotoları da yer almışdır.

Azərbaycan dövlətinin uğurlu mədəniyyət siyasəti nəticəsində son illər dünyanın nüfuzlu muzeyləri ilə əlaqələr genişlənmiş, beynəlxalq əməkdaşlıq sahəsində yeni nailiyyətlər əldə edilmişdir.

Cari ilin 12 mart tarixində mədəniyyət naziri Əbülfəs Qarayev Tvinninq layihəsi çərçivəsində İtaliyanın Turin şəhərində fəaliyyət göstərən "Musei Reali di Torino" Muzeyinin direktoru xanım Enrika Pagella ilə görüş keçirmişdir. Görüşdə Azərbaycan və İtaliya muzeyləri arasında əməkdaşlığın qurulması, birgə layihələrin təşkili müzakirə edilmişdir. Xüsusi hazırlanmış mədəni proqram çərçivəsində E.Pagella səfər zamanı Bakı şəhərində fəaliyyət göstərən Heydər Əliyev Mərkəzi, Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Xalça Muzeyi, Yarat Müasir İncəsənət Mərkəzi ilə tanış olmuş, bununla bağlı görüş zamanı məmnuniyyətini ifadə etmiş və əməkdaşlığa dair müvafiq təkliflərini bildirmişdir.

2018-ci ilin mart-iyul aylarında Rusiya Federasiyasının Moskva şəhərində fəaliyyət göstərən Dövlət Tretyakov Qalereyasında görkəmli rus rəssamı Vasili Vasilyeviç Vereşaqinin fərdi sərgisinin keçirilməsi ilə bağlı Azərbaycan Milli İncəsənət Muzeyinə məxsus V.V.Vereşaqinin “Gəzintidə” adlı rəsm əsəri sərgidə nümayiş üçün Moskva şəhərinə göndərilmişdir.

Mayın 30-da Azərbaycan Mədəniyyət Nazirliyi, Latviyanın ölkəmizdəki səfirliyi və “AGA Group” şirkətinin dəstəyi ilə Muzey Mərkəzinin İncəsənət Qalereyasında Latviya rəssamı Datse Ştrausanın “Canlı miras” adlı sərgisinin açılış mərasimi təşkil olunmuşdur. Sərgi Azərbaycan Xalq Cümhuriyyətinin və Latviya Respublikasının yaradılmasının 100 illik yubileylərinə həsr olunmuşdur.

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin eksponatları əsasında cari ilin 30 may tarixində Rusiya Milli Musiqi Muzeyində dahi bəstəkar, SSRİ xalq artisti Qara Qarayevin 100 illik yubileyinə həsr olunmuş onun həyat və yaradıcılığını əks etdirən və 31 may – 3 iyun tarixlərində “İntermuzey-2018” adlı festival çərçivəsində sərgi təşkil edilmişdir.

2018-ci ilin 2-6 iyun tarixində Çin Xalq Respublikasının Çinqay vilayətinin Sinin şəhərində Çinqay Beynəlxalq Xalça Sərgisi keçirilmişdir. Sərgidə Azərbaycanın xalçalarının təmsil olunması, xalça toxunma texnikasının nümayişi, xarici ölkələrin aparıcı muzeyləri, xalça üzrə beynəlxalq assosiasiya və nəşriyyat nümayəndələri ilə əməkdaşlığın qurulması məqsədilə nazirliyin və Azərbaycan Xalça Muzeyinin nümayəndə heyəti Sinin şəhərinə ezam olunmuşlar.

Azərbaycan Milli İncəsənət Muzeyi və Gürcüstanın Milli Muzeyi ilə imzalanmış əməkdaşlıq memorandumuna əsasən Azərbaycan Xalq Cumhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş Gürcüstan Milli İncəsənət Muzeyinin eksponatları əsasında İrəvan Sərdarının Sarayına aid “Xilas edilmiş incilər” adlı sərginin təşkili nəzərdə tutulmuşdur. Sərginin yüksək səviyyədə təşkil edilməsi və nadir tarixi mədəni sənət əsərlərinin beynəlxalq miqyasda təbliğ edilməsi məqsədilə hazırlıq işlərinin iki mərhələdə keçirilməsi planlaşdırılmışdır.

Sərgidə təqdim olunacaq eksponatların bir qismi – Azərbaycanın dahi rəssamı Mirzə Qədim İrəvaninin müəllifi olduğu və mədəni tarixi irsimizin inciləri sayılan tarixi şəxsiyyətlərin 6 ədəd portreti seçilərək bərpa üçün Bakıya gətirilmişdir. Hazırda işlər davam etdirilir.

Azərbaycan Milli İncəsənət Muzeyi və Moldovanın Milli Təsviri İncəsənət Muzeyi arasında əməkdaşlıq müqaviləsi imzalanmışdır. Sənədi Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru, Əməkdar incəsənət xadimi Çingiz Fərzəliyev və Moldovanın Milli Təsviri İncəsənət Muzeyinin icraçı direktoru Tudor Zbarnea imzalamışdır. Müqavilə çərçivəsində qarşılıqlı elmi-tədqiqat fəaliyyətinin və bərpa-konservasiya işinin aparılması, muzey əməkdaşları arasında təcrübə mübadiləsi, birgə və çarpaz sərgilərin hazırlanması nəzərdə tutulub. Eləcə də, bu əməkdaşlıq müqaviləsi Azərbaycanda Moldova mədəniyyətinin və Moldovada Azərbaycan mədəniyyətinin təbliğinə xidmət edəcəkdir. İmzalanma mərasimində Moldovanın ölkəmizdəki səfiri George Leuka, Azərbaycanın bu ölkədəki səfiri Qüdsi Osmanov iştirak etmişdir.

10-12 oktyabr 2018-ci il tarixində Azərbaycan Xalça Muzeyində Beynəlxalq Muzeylər Şurasının (ICOM) iki beynəlxalq komitəsinin – Dekorativ sənət, dizayn muzeyləri və kolleksiyaları (ICDAD), Tarixi ev muzeyləri üzrə beynəlxalq komitələrinin (DEMHIST) “Dekorativ sənət və interyer” adlı konfransı keçirilmişdir. Konfrans Azərbaycanın Mədəniyyət Nazirliyi, ICOM Azərbaycan Milli Komitəsi və Xalça Muzeyi, ICOM, ICDAD və DEMHIST-in təşkilatçılığı, Azərbaycan Milli İncəsənət Muzeyi, “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu, Bülbülün Memorial Muzeyi və “Az-Granata” şirkətinin dəstəyi ilə keçirilmişdir. Konfransda Azərbaycan, Avstriya, İtaliya, Portuqaliya, Almaniya, Livan, Niderland, Yaponiya, ABŞ, Hindistan, Misir, Çexiya, Gürcüstan, Türkiyə olmaqla, 14 ölkədən 42 nümayəndə iştirak etmişdir. Tədbirdə iştirak etmək məqsədilə ICOM-un prezidenti Suay Aksoy Bakı şəhərinə ilk dəfə olaraq səfər etmişdir. Səfər çərçivəsində Suay Aksoy Azərbaycan Respublikası Mədəniyyət naziri Əbülfəs Qarayevlə görüşmüşdür.

Ölkəmizi konfransda Azərbaycanın aparıcı muzey mütəxəssisləri təmsil etmişdir. Tədbirdə, həmçinin UNESCO-nun dəstəyi ilə üzv dövlətlərin fəaliyyəti ilə bağlı 2016-2017-ci illər üzrə iştirak proqramı çərçivəsində nəşr edilən, Şirin Məlikovanın müəllifi olduğu “Azərbaycan Xalça Muzeyinin kolleksiyasından bədii tikmələr” adlı kitabın təqdimatı da keçirilmişdir. Konfransda Azərbaycanda fəaliyyət göstərən görkəmli şairlərin, yazıçıların, rəssamların, bəstəkarların ev muzeyləri barədə məlumat verilmişdir.

2018-ci ilin noyabr ayından 2019-cu ilin mart ayınadək Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində fəaliyyət göstərən Ümumrusiya Dekorativ-tətbiqi və Xalq Sənəti Muzeyində Azərbaycanın görkəmli bəstəkarı Qara Qarayevin 100 illiyinə həsr edilmiş “Yeddi gözəl” adlı sərginin keçirilməsi məqsədilə Azərbaycan Xalça Muzeyinə məxsus 38 ədəd və Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinə məxsus 28 ədəd nümayiş olunacaq eksponatlar “Azərbaycan Respublikası Muzey Sərvətlərinin və Muzey Kolleksiyasının Uçotu və Mühafizəsinə Dair Təlimata” uyğun olaraq Ümumrusiya Dekorativ-tətbiqi və Xalq Sənəti Muzeyinə müvəqqəti təhvil verilmişdir.

Noyabrın 16-da Muzey Mərkəzinin sərgi qalereyasında Mədəniyyət Nazirliyinin dəstəyi ilə Portuqaliyanın Azərbaycandakı Nümayəndəliyi və Fəxri Konsulluğu tərəfindən Portuqaliyalı məşhur rəssam Karlos Motanın “Found and findings” adlı beynəlxalq rəsm sərgisinin açılış mərasimi təşkil olunmuşdur. Sərgi fəaliyyətini 23 noyabr 2018-ci il tarixinədək davam etdirmişdir.

6-7 dekabr 2018-ci il  tarixində Avstriyanın Vyana şəhərində Avropa Mədəni İrs İli-2018 adlı tədbirin bağlanış mərasimi keçirilmişdir.

Mövzu və konsepsiyasına görə Mədəni irsin qorunması, inkişafı, mədəni turizm, muzey, inkluziv mədəniyyət, yaradıcı və innovativ mədəniyyət məsələlərini əhatə edən tədbirə Avstriyanın Avropa İttifaqı Şurasına sədrliyi çərçivəsində Avropa Şurası, Avropa Birliyinin aidiyyəti komissiyaları ilə yanaşı, Avropa İrs Günləri, Europeana, Europe Nostra kimi bir sıra beynəlxalq layihələr tərəfdaşlıq etmişdir. Tədbir çərçivəsində Avropa İlinin müzakirəsi, mədəniyyət siyasətinə həsr olunmuş sessiyalar və Vyana şəhərində fəaliyyət göstərən muzeyləri və mədəni irs istiqamətlərini əhatə edən xüsusi marşrutların təqdimatı həyata keçirilmişdir.

Tədbirdə ölkəmizi Mədəniyyət Nazirliyinin əməkdaşları təmsil etmişdir. Rəsmi açılış mərasimində Avstriyanın Avropa Birliyi, İncəsənət, Mədəniyyət və Media naziri Gerno Blumel, Avropa Parlamentinin Mədəniyyət və Təhsil Komitəsinin sədri Petra Kammerevert, Təhsil, Mədəniyyət, Gənclər və İdman müvəkkili Tibor Navracsiks iştirak ediblər. Tədbirdə Mədəni İrs üzrə e-tvinninq sahəsində ən yaxşı layihələrin təltifetmə mərasimi keçirilmiş və qaliblər Avropa Komissiyasının Mədəniyyət və Yaradıcılıq direktoru Mişel Maqnier tərəfindən mükafatlandırılmışlar.

Açılış mərasimində və növbəti günün tədbirlərində Avropa ölkələri ilə yanaşı, bir çox dünya ölkələrinin sahə üzrə təşkilatları və mütəxəssisləri iştirak etmişlər. Mədəniyyət Nazirliyinin nümayəndələri Avropa Komissiyasının Mədəniyyət və Yaradıcılıq direktoru Mişel Maqnier ilə görüşmüş və gələcək əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparmışlar.

Nazirliyin 7 dekabr 2018-ci il tarixli, 110-e nömrəli əmrinə əsasən Muzey işi və mədəni sərvətlərə nəzarət şöbəsinin rəhbəri 2018-ci il dekabr ayının 11-dən 14-dək Minsk şəhərinə ezam edilmişdir. Səfər çərçivəsində Minsk şəhərində MDB iştirakçı dövlətlərinin muzey işi sahəsində əməkdaşlıq üzrə Saziş layihəsinin işlənib hazırlanması və razılaşdırılmasına dair ekspert qrupunun görüşündə iştirak etmişdir.

Regionlarda fəaliyyət göstərən muzey və Heydər Əliyev mərkəzlərinin vəziyyətinin təhlil edilməsi, tövsiyələrin verilməsi və təlimlərin keçirilməsi üçün Nazirlik əməkdaşları və Bakı şəhər muzeylərinin nümayəndələri rayonlara ezam edilmlər.

Nazirliyin 9 iyul 2018-ci il tarixli, 31-e  nömrəli və 30 iyul 2018-ci il tarixli, 39-e nömrəli əmrlərinə əsasən cari ilin iyul və avqust aylarında Azərbaycan İstiqlal Muzeyinin baş fond mühafizi Aida Axundova və elmi-kütləvi işlər şöbəsinin müdiri Sədi Mirseyibli Gəncə, Şəki şəhərləri, habelə Ağstafa, Qazax, Tovuz, Gədəbəy, Daşkəsən, Şəmkir, Göygöl, Goranboy, Samux, Naftalan, Balakən, Zaqatala, Qax, Oğuz , Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Qobustan, Ağdaş, Ucar, Zərdab, Göyçay, Sabirabad, Saatlı, Hacıqabul, Şirvan rayonlarında yerləşən Heydər Əliyev mərkəzləri və muzey əməkdaşlarına “Muzey əşyalarının daimi mühafizə portalı”ndan  istifadəyə dair təlimlər keçirmişlər.

Nazirliyin 26 iyul 2018-ci il tarixli, 37-e nömrəli əmrinə əsasən müvafiq işçi qrupu 27-30 iyul 2018-ci il tarixində Gədəbəy, Tovuz, Daşkəsən rayonlarına ezam edilmişdir. Ezamiyyə zamanı qeyd edilən regionlarda fəaliyyət göstərən muzey və Heydər Əliyev mərkəzlərinin vəziyyəti təhlil edilmişdir.

Nazirliyin 26 iyul 36-e nömrəli əmrinə, əsasən, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyin tabeliyində fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərinin və muzeylərin yeni albom kataloqunun yaradılması və "museum.az" internet bələdçisinin hazırlanması üçün muzey binalarının eksteryer və interyerlərinin foto şəkillərinin çəkilməsi məqsədilə bu sahədə bir sıra əlavə tədbirlərin həyata keçirilmişdir.

Bununla əlaqədar nazirliyin tabeliyində fəaliyyət göstərən Heydər Əliyev mərkəzləri və muzey binalarının eksteryer və interyerlərinin peşəkar, yüksək icazəli foto şəkillərinin çəkilməsi məqsədilə Fotoqraflar Etibar Cəfərov və Kənan Əliyev 2018-ci ilin iyul ayının 27-dən avqust ayının 5-dək müəyyən edilmiş qrafik üzrə rayonlara ezam edilmişlər. Hazırda respublikada fəaliyyət göstərən muzey müəssisələrinin fotoşəkilləri yüksək səviyyədə işlənilmiş və kataloqun yaradılması üçün hazırdır.

Muzey işinin inkişafı ilə əlaqədar respublikamızda fəaliyyət göstərən bir sıra muzeylərdə təmir, bədii-tərtibat işləri həyata keçirilmişdir/

Avqustun 31-də Şəki şəhərində Xalq şairi, görkəmli dramaturq, ədəbiyyatşünas alim, ictimai xadim Bəxtiyar Vahabzadənin Ev-Muzeyinin açılış mərasimi keçirilmişdir. Ev muzeyində bərpa, yenidənqurma işləri Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən aparılmışdır. Xalq şairi Bəxtiyar Vahabzadənin anadan olduğu Ə.Haqverdiyev küçəsi, 73 ünvanında yaradılan ev muzeyinin ekspozisiyası 70 kvadratmetr təşkil edir və 3 otaqdan ibarətdir. Həmçinin inzibati və fond otaqları mövcuddur. Muzeyin ekspozisiyası şairin ailəsi tərəfindən təqdim edilmiş sənəd, kitab, əlyazma, foto və arxiv sənədləri, şəxsi əşyalar əsasında formalaşdırılmışdır. Burada ümumilikdə 735 ədəd eksponat nümayiş olunur.

Oktyabrın 1-də dahi bəstəkar, SSRİ Xalq artisti Qara Qarayevin Bakı şəhərində ev-muzeyinin açılış mərasimi keçirilmişdir. Dünya muzey standartları əsasında hazırlanan informativ ekspozisiya tarixi ardıcıllıqla, o cümlədən elektron vasitələrdən istifadə edilməklə, Azərbaycan və ingilis dillərində təqdim olunmuşdur. Muzeyin tərtibatı Avstriyanın "Partner Culture+Projects Gmbh" şirkəti tərəfindən həyata keçirilmişdir.

2018-ci ildə Azərbaycan Milli İncəsənət Muzeyinin Niyazi küçəsi, 9 ünvanında yerləşən binasında təmir işləri aparılmış və hazırda bədii tərtibat işləri yekunlaşmaq üzrədir. Yaxın zamanlarda muzeyin binasının təntənəli açılış mərasiminin təşkili planlaşdırılır.

Nəsimi Festivalı çərçivəsində Şamaxı Tarix-Diyarşünaslıq Muzeyində təmir və bədii tərtibat işləri aparılmışdır. Dünya muzey standartları əsasında hazırlanan informativ ekspozisiya tarixi ardıcıllıqla, o cümlədən elektron vasitələrdən istifadə edilməklə, Azərbaycan və ingilis dillərində təqdim olunmuşdur. Hazırda muzeyin yeddi mindən çox eksponatı var və ekspozisiyada Şamaxının ən qədim dövrlərdən başlayaraq son zamana qədər olan tarixi, arxeoloji tapıntı nümunələri və maddi-mədəniyyət abidələri, eləcə də etnoqrafik, epiqrafik və numizmatika nümunələri nümayiş etdirilir. Heydər Əliyev Fondu tərəfindən Şamaxını təsvir edən XVI əsrə aid üç ədəd qravür muzeyin fonduna hədiyyə edilmişdir. Onlar Avropa ölkələrindən əldə edilərək Azərbaycana gətirilmişdir. Qravürlər XVI əsrin məşhur alman səyyah və coğrafiyaçısı Adam Oleariyə, niderlandlı səyyah Yan Jansen Streysə və niderlandlı kitab naşiri Olfert Dapperə məxsusdur.

**Mədəniyyət sərvətlərinə nəzarət və reyestrlər sahəsi**

Azərbaycan milli mədəniyyət nümunələrinin qorunub saxlanmasına nəzarətin gücləndirilməsinin həyata keçirilməsi üçün onların qeydiyyata alınması və sistemləşdirilməsi

məqsədilə reyestrlər, portallar və saytlar yaradılmış və bu istiqamətdə hazırda intensiv formada işlər davam etdirilir.

Nazirliyin sifarişi ilə müvafiq şirkət tərəfindən yaradılmaqda olan “Muzey əşyalarının daimi mühafizə portalı” Muzey işi və mədəni sərvətlərə nəzarət şöbəsinin Mədəniyyət sərvətlərinə nəzarət və reyestrlər sektorunun səlahiyyətinə verilməsi ilə əlaqədar cari ilin 18-19 oktyabr tarixində sektor tərəfindən sözügedən portalın strukturu və funksionallığı ilə bağlı audit aparılmış və müəyyən edilmiş nəticələr, o cümlədən çatışmazlıqlar şirkətə bildirilmişdir. Portalın ümumi strukturu və funksionallığı ilə bağlı müvafiq məsələlər razılaşdırılmışdır. Hazırda prosedur qaydalarına əsasən görüləcək işlərin həcmini müəyyən edəcək müvafiq “Texniki tapşırıq” hazırlanmaqdadır. O cümlədən, respublikanın aparıcı muzeyləri, ev və xatirə muzeyləri, şəhər (rayon) tarix-diyarşünaslıq muzeyləri, şəhər (rayon) Heydər Əliyev Mərkəzləri kimi təşkilatlar tərəfindən muzey fondlarını təşkil edən eksponatlar haqqında məlumatlar “Muzey əşyalarının daimi mühafizə portalı”na daxil edilməkdədir

3 oktyabr 2018-ci il tarixində Muzey Mərkəzində uzun müddət ərzində üzərində iş aparılan "Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin Dövlət Reyestri" portalının təqdimat mərasimi keçirilmişdir. Portal istifadəçilərə açıq elan edilmişdir. Hazırda portalın fəaliyyətinin tam formalaşdırılmaı, məlumat bazasının genişləndirilməsi istiqamətində işlər davam etdirilir. Məlumat bazasının genişləndirlməsi üçün Azərbaycan Aşıqlar Birliyi, AMEA Folklor İnstitutu, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, AMEA Dilçilik İnstitutu, AMEA Memarlıq və İncəsənət İnstitutu, AMEA Milli Azərbaycan Tarixi Muzeyi, Azərbaycan Xalça Muzeyi, Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi, Azərbaycan Milli Kulinariya Assosiasiyası kimi müvafiq qurumlara materialların toplanması istiqamətində dəstəklə bağlı müraciət edilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin rayon (şəhər) Heydər Əliyev Mərkəzləri üçün veb-saytın hazırlanması üzrə müvafiq işlər həyata keçirilir. “Texniki tapşırığ”ın hazırlanmasına dair müvafiq şirkətə göstəriş verilmiş və saytın strukturu, arxitekturası, kontenti və bu kimi meyarlar barədə tələblər irəli sürülmüşdür.

Mədəni sərvətlərin mühafizəsi sahəsində vahid dövlət siyasətinin aparılması məqsədilə mədəni sərvətlərin mühafizəsi işinin nazirliyin müvafiq şöbələri və bölmələri, digər qurumlar və təşkilatlar ilə birlikdə muzey fondları, qeyri-maddi mədəni irs, daşınmaz sərvətlər, nadir kitab fondları, incəsənət fondları, audiovizual fondlar, arxiv və əlyazmalar, şəxsi kolleksiyalar kimi ümumi istiqamətlər üzrə aparılmasını, mədəni sərvətlərin uçotu və mühafizəsini, müvafiq reyestrlərin tərtib edilməsini və nəticə etibarilə özündə sadalanan istiqamətlər üzrə mövcud və hazırlanacaq reyestrləri ehtiva edən “Azərbaycan Respublikasının mədəniyyət sərvətləri” veb-portalının yaradılmasına dair müvafiq təkliflər hazırlanmışdır.

Mədəniyyət sərvətlərinin ekspertizasının keçirilməsi, tarixi, bədii, elmi dəyərinin müəyyənləşdirilməsi və respublikadan çıxarılması üçün şəhadətnamə (icazə sənədi) verilməsi üzrə aşağıdakı işlər həyata keçirilmişdir.

Mədəniyyət sərvətlərinə nəzarət sahəsində turizmin inkişafı, o cümlədən ölkənin turizm potensialından istifadə imkanlarının artırılması şəraitində, mədəniyyət məhsullarının turistlər tərəfindən ixracı üçün sənədlərin verilməsi prosedurunun sadələşdirilməsi və müddətlərin optimallaşdırılması məqsədilə mədəniyyət sərvətlərinin ekspertizasının keçirilməsi, tarixi, bədii, elmi dəyərinin müəyyənləşdirilməsi və respublikadan çıxarılması üçün şəhadətnamə (icazə sənədi) verilməsi üzrə Nazirliyin Azərbaycan Milli İncəsənət, Azərbaycan Xalça, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında yerləşən Ekspert Komissiyalarının səlahiyyətli nümayəndələri il birgə müvafiq tədbirlərr görülmüşdür.

Mədəni sərvətlərin idxalı, ixracı və Azərbaycan Respublikasının ərazisindən tranzitlə keçirilməsi ilə əlaqədar Ekspert Komissiyalarının fəaliyyəti, mədəniyyət məhsullarının ixracı

üçün sənədlərin verilməsi prosedurunun sadələşdirilməsi və müddətlərin optimallaşdırılması barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq hesabat təqdim edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 28.02.2018-ci il tarixli, 3722 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" nın 7.12.13-cü bəndinin icrasının təmin edilməsi ilə məqsədilə aidiyyəti dövlət qurumlarının və təşkilatlarının sahə üzrə mütəxəssislərinin iştirakı ilə cari ilin 3 avqust tarixində İqtisadiyyat Nazirliyində keçirilmiş tədbirdə iştirak təmin olunmuşdur. Müşavirədə Tədbirlər Planının 7.2.13-cü bəndində nəzərdə tutulmuş ölkədən çıxarılmaq üçün xalçalara şəhadətnamə verilməsi ilə bağlı ödənişlərin azaldılması və şəhadətnamə verilməsi prosedurunun sadələşdirilməsi ilə bağlı müzakirələr aparılmışdır. Bununla əlaqədar ekspert komissiyalarına tapşırıq verilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi arasında elektron məlumat mübadiləsinin təşkili yolu ilə idxal, ixrac və tranzit əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsinə, gömrük rəsmiləşdirilməsi prosesində gömrük prosedurlarının tətbiqinin sadələşdirilməsinə və qanunvericiliyə riayət edən şəxslərə daha əlverişli şəraitin yaradılmasına öz töhfəsini verməsi məqsədilə "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi arasında idxal-ixrac əməmliyyatlarına dair elektron məlumat mübadiləsi haqqında Razılaşma Protokolu"nun imzalanması istiqamətində iş aparılmışdır.

Cari ilin 21 avqust tarixində Azərbaycan Respublikası Prezidentinin 28 iyun 2018-ci il tarixli, 260 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "İdxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsinə dair Tədbirlər Planı"nın 1.2 və 2.1 bədlərinin icrası ilə əlaqədar müzakirələrin aparıldığı Dövlət Gömrük Komitəsində təşkil edilmiş işçi görüşdə iştirak təmin olunmuş və həmin müşavirədə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 iyun tarixli 260 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "İdxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsinə dair Tədbirlər Planı"nın 1.2. və 2.1. bəndinə əsasən hazırlanmış və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi arasında elektron məlumat mübadiləsinin təşkili yolu ilə idxal, ixrac və tranzit əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsi, gömrük rəsmiləşdirilməsi prosesində gömrük prosedurlarının tətbiqinin sadələşdirilməsi və qanunvericiliyə riayət edən şəxslər üçün daha əlverişli şəraitin yaradılması məqsədi daşıyan "Gömrük Xidmətinin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi"nin idxal, ixrac və tranzit məlumatlarına dair alt informasiya sistemi vasitəsilə müvafiq icazə sənədləri haqqında onlayn rejimdə məlumat mübadiləsi barədə Razılaşma Protokolu" layihəsi müzakirə edilmişdir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsindən məktubla daxil olmuş "Fiziki şəxslər tərəfindən malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi Qaydaları"nın təsdiqi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarının layihəsinə və təqdim edilmiş digər sənədlərə baxılmış və layihəyə aidiyyəti üzrə təklif verilmişdir.

Nazirliyin 57-e nömrəli, 18.09.2018 tarixli əmrinə əsasən nazirliyin əməkdaşı Xorvatiya Respublikasının Riyeka şəhərində 9-11 oktyabr 2018-ci il tarixində Avropa Şurası, Xorvatiya Respublikasının Mədəniyyət Nazirliyi və "Mədəniyyət siyasəti və təmayülləri Kompendiumu" Assosiasiyası tərəfindən birgə təşkil olunmuş 1998-ci ildən etibarən artıq 20 ildir davam etdirilən və Avropanın qırx iki ölkəsinin qoşulduğu "Mədəniyyət siyasəti və təmayülləri Kompendiumu" adlı beynəlxalq layihənin Milli Müəlliflərinin Baş Assambleyasında iştirak etmişdir.

1960-cı ildən etibarən kütləvi və seriyalı istehsal olunan və mədəni sərvətlərə aid edilməyən suvenir və bu kimi turizm məhsullarının ölkədən çıxarılması prosedurunun sadələşdirilməsi məqsədilə Nazirlər Kabineti tərəfindən müvafiq dövlət qurumlarının (Mədəniyyət Nazirliyi, Dövlət Gömrük Komitəsi, İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, Turizm

Agenliyi və s.) funksiyalarını müəyyən edəcək Qaydaların layihəsinin hazırlanmasına dair müvafiq tədbirlər görülmüşdür.

### KİNEMATOQRAFİYA SAHƏSİ

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev cari ildə "Azərbaycan kinosunun 120 illiyinin qeyd edilməsi haqqında" 31 yanvar 2018-ci il tarixli, 3616 nömrəli Sərəncam imzalamışdır. Sərəncamın icrasını təmin etmək məqsədilə hazırlanmış Tədbirlər Planına uyğun olaraq il ərzində paytaxtda və bölgələrdə yerləşən mədəniyyət müəssisələrində müxtəlif tədbirlər, sərgilər, müsabiqələr, kitab təqdimatları, film nümayişləri və s. təşkil olunmuşdur.

Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında "Balaca əsgər" qısametrajlı bədii filminin, "Qalxan və Qılınc", "Biri var idi, biri yox idi..." və "Şəki, mən səni sevirəm" sənədli filmlərinin, "Salnaməfilm studiyası"nda "Cümhuriyyət tələbələri" ("102 tələbə") sənədli filminin, "Yaddaş" studiyasında "Azərbaycanın Milli Qəhrəmanları" silsiləsindən 2 sənədli filmin, "Azanfilm studiyası"nda "Mənim balaca şahzadəm" cizgi filminin, eləcə də Nazirliyin sifarişi ilə Rusiya Federasiyasının "Телекомпания ДИВИ" şirkəti tərəfindən çəkilən "Qara Qarayev. Musiqinin rəssamı" adlı tammetrajlı sənədli filminin istehsalı başa çatdırılmışdır. "Azərbaycanfilm"də "Daxildəki ada" tammetrajlı bədii-sənədli, "Rəqs" qısametrajlı bədii filmlərinin və "Yadelli nağıllar" ("Azərbaycan musiqisi və erməni plagiatı") sənədli filminin, "Salnaməfilm studiyası"nda "Köç", "20 Yanvar", "Azərbaycan memarı Elbay Qasımzadə", "Şəki" və "Saxurlar" sənədli filmlərinin, "Azərbaycanın Milli Qəhrəmanları" sənədli filmlər silsiləsindən 10 filmin və 3D formatda olan "Cırtdan və Sehrli xalat" cizgi filminin, "Mozalan studiyası"nda "Əlvida, Şmidt" tammetrajlı bədii filminin istehsalı davam etdirilmişdir. "Azərbaycanfilm"də "Protez", "Estakadada", "Salam" və "Naməlum dahi" qısametrajlı bədii filmləri, "Salnaməfilm studiyası"nda isə "Azərbaycanın Milli Qəhrəmanları" sənədli filmlər silsiləsindən 10 film istehsala buraxılmışdır.

Bununla yanaşı, "SS Production" şirkəti ilə birgə Xalq Yazıçısı Anarın həyat və yaradıcılığına həsr olunmuş "Ardı yaşanılır" adlı sənədli filmin istehsalı başa çatdırılmışdır.

Gənc nəslin milli təfəkkürünü formalaşdırmaq, onlara vətənpərvərlik ruhunu aşılamaq və tariximizi yaxından tanıtmaq məqsədilə, həmçinin 20 yanvar faciəsinin iyirmi səkkizinci ildönümü ilə əlaqədar yanvarın 15-dən 19-dək dövlət sifarişi ilə "Azərbaycanın Milli Qəhrənamları" silsiləsindən çəkilmiş Elman Hüseynov haqqında "İlk komandir", Salatın Əsgərova haqqında "23 dəqiqə", Oqtay Güləliyev haqqında "Laçın qartalı", Pəhləvan Fərzəliyev haqqında "Şərəfli ömrün manifesti", Nadir Əliyev haqqında "Vətən sevgisi", Yusif Əliyev haqqında "Vətənə bağışlanan ömür", Eldar Məcidov haqqında "Ürəklərdə yaşayan qəhrəman", Fəxrəddin Musayev haqqında "Qartaltək Vətənin keşiyində", Etibar İsmayılov haqqında "Vətənə etibarlı oğul", Allahverdi Bağırov haqqında "Qartal qamətli qəhrəman", Ənvər Fərəcov haqqında "Vətənə dönənim", Mübariz İbrahimov haqqında "Mübarizlik zirvəsi", Muxtar Qasımov haqqında "Vətən sevgisi", Əliyar Əliyev haqqında "Pəhləvan komandir", Ramiz Qəmbərov haqqında "Şuşalı şəhid", Cavanşir Rəhimov haqqında "Cavanşir", Yavər Əliyev haqqında "Sonuncu uçuş", Mirəsgər Seyidov haqqında "Vətən əsgəri", Aqil Quliyev haqqında "Vətən sağ olsun" sənədli filmlərinin Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində olan mədəniyyət müəssisələrində nümayişləri təşkil olunmuşdur.

2 fevral – Gənclər günü ilə əlaqədar keçirilən "Gəncliyin səsi" festivalı çərçivəsində fevralın 3-də Masallı "Asan həyat" Kompleksində gənc rejissorlar Ruslan Hüseynovun "Usta Yusifin Kamançası", Pərviz Həsənovun "Ayaqqabı əməliyyatı", fevralın 5-də Quba "Asan həyat" Kompleksində isə Amil Məmiyevin "Qara bağ", Ayşad Səfərəliyevin "İnikas" bədii filmlərinin təqdimatları təşkil olunmuşdur.

Fevralın 23-də Fövqəladə Hallar Nazirliyinin Akademiyasında Tərtər batalyonunun Qarabağ döyüşlərində göstərdiyi qəhrəmanlıqlardan bəhs edən “Batalyon” sənədli filminin təqdimatı olmuşdur.

Xocalı soyqırımının 26-cı ildönümü münasibəti ilə fevralın 26-da Nizami Kino Mərkəzində Milli Qəhrəmanlar İsgəndər Aznaurova həsr edilmiş “İsgəndərin sorağında” və Yusif Mirzəyev haqqında “İgid əsgər” sənədli filmləri Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin və Fövqəladə Hallar Nazirliyinin Akademiyasının tələbələri üçün nümayiş etdirilmişdir. “İsgəndərin sorağında” filminin həmçinin aprelin 16-da Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbdə, aprelin 17-də Gədəbəydə, aprelin 18-də isə Şəmkir hərbi birliyinin hərbi şəhərciyində təqdimatı olmuşdur.

Fevralın 23-dən 27-dək İran İslam Respublikasının ölkəmizdəki səfirliyinin Mədəniyyət Mərkəzi ilə birgə Azərbaycanda İran Kinosu Günləri təşkil edilmiş və İran kinematoqrafçılarının son illər çəkdikləri “Cangüdən”, “Xəyalın şirin tamı”, “Divanə top”, “Ayaqqabım hanı?” kimi bədii filmlər Azərbaycan tamaşaçılarına təqdim olunmuşdur.

Yanvarın 10-da “Azərbaycan” kinoteatrında "Yoxdubeləsöhbət" romantik-komediyasının, Nizami Kino Mərkəzində martın 16-da Azərbaycan və Gürcüstan kinematoqrafçılarının iştirakı ilə istehsal edilmiş “Eviniz abad” bədii filminin, mayın 4-də dünya şöhrətli müğənni, SSRİ Xalq artisti Rəşid Behbudova həsr edilmiş “Nəğmə dolu bir ürəyəm” sənədli filminin, mayın 24-də tanınmış idman ustası, dəfələrlə dünya və Avropa çempionu Ceyhun Məmmədov haqqında çəkilən "Çempion" sənədli filminin, iyunun 14-də Milli Qurtuluş Günü ərəfəsində ümummilli lider Heydər Əliyevin 95 illiyi münasibəti ilə çəkilmiş “Qalxan və Qılınc” sənədli filminin təqdimatı keçirilmişdir.

Aprelin 24-də Milli Qəhrəman Alı Mustafayevə həsr edilmiş “Alı zirvəsi” sənədli filminin Ağstafada və Qazaxda nümayişləri olmuşdur.

Mayın 6-da Bakıdakı Rusiya Mədəniyyət İnformasiya Mərkəzində Sovet İttifaqı Qəhrəmanı Həbibulla Hüseynova həsr edilmiş “Qürbətdə qalmış məzar” sənədli filmi nümayiş etdirilmişdir.

Mayın 23-də Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Mühafizə alayında görkəmli ictimai və siyasi xadim Əlimərdan bəy Topçubaşova həsr edilmiş “Parisdən məktublar” sənədli filmi nümayiş olunmuşdur.

Azərbaycan tamaşaçısında, xüsusən gənc nəslin nümayəndələrində milli-mənəvi dəyərlərə sevgi, vətənə-torpağa bağlılıq hisslərini daha da gücləndirmək məqsədilə noyabrın 5-dən 21-dək ali təhsil müəssisələrində “Azərbaycan Kinosu Günləri” keçirilmişdir. Kino Günləri çərçivəsində Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Slavyan Universiteti və Azərbaycan Memarliq və İnşaat Universitetində mədəniyyətimizin müxtəlif sahələrinə, Qarabağ mövzusuna və milli-mənəvi dəyərlərimizə həsr edilən 40-dək sənədli film nümayiş olunmuş, filmlərin yaradıcı heyətləri ilə görüşlər keçirilmişdir.

Noyabrın 14-dən 17-dək Gənclər və İdman Nazirliyi ilə birgə Bakıda 9-cu START Beynəlxalq Qısa Filmlər Festivalı təşkil olunmuşdur. Festivala dünyanın 45 ölkəsindən 490 film göndərilmiş, seçim komissiyasının qərarına əsasən beynəlxalq və yerli müsabiqədə “Qızıl nar” uğrunda 30 ölkədən 100 film mübarizə aparmışdır. Yerli və beynəlxalq kino mütəxəssislərindən ibarət münsiflər heyəti tərəfindən seçilən qalib filmlər müxtəlif diplom və mükafatlara layiq görülmüşdür.

Nizami Kino Mərkəzində noyabrın 28-də kino tarixçisi Aydın Kazımzadənin Cəfər Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasının tarixinə və keçdiyi inkişaf yoluna həsr olunmuş “Kino və zaman” kitabının, noyabrın 29-da Azərbaycanın Milli Qəhrəmanı Koroğlu Rəhimovun 65 illik yubileyinə həsr olunmuş xatirə axşamı və “Salnaməfilm” studiyasında rejissor Kamalə Musazadənin qəhrəman haqqında çəkdiyi “Vətənim mənim” sənədli filminin,

dekabrın 19-da isə dahi Azərbaycan bəstəkarı, SSRİ Xalq artisti Qara Qarayevin anadan olmasının 100 illiyi ilə əlaqədar Mədəniyyət Nazirliyinin sifarişi ilə Rusiyanın “Телекомпания ДИВИ» şirkəti tərəfindən çəkilmiş “Qara Qarayev. Yol” adlı sənədli filminin təqdimatı keçirilmişdir.

Noyabrın 24-də Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı ilə birgə görkəmli Azərbaycan kinorejissoru, Xalq artisti Rasim Ocaqovun doğulduğu Şəki şəhərində ölkənin tanınmış kino xadimlərinin və sənətsevərlərin iştirakı ilə sənətkarın 85 illik yubiley tədbiri keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev görkəmli kino və teatr aktyoru, Xalq artisti Həsən Məmmədovun 80 illik yubileyinin qeyd edilməsi haqqında 30 iyul 2018-ci il tarixli, 365 nömrəli Sərəncam imzalamışdır. Sərəncamın icrasını təmin etmək məqsədi ilə müvafiq qurumların təklifləri nəzərə alınmaqla hazırlanmış Tədbirlər Planına uyğun olaraq dekabrın 6-da doğulduğu Salyan rayonunda tanınmış kino xadimlərinin iştirakı ilə Xalq artisti Həsən Məmmədovun 80 illiyinə həsr edilmiş tədbir təşkil olunmuşdur.

Milli və dünya kino incilərini tamaşaçılara daha da yaxından tanıtmaq, eləcə də yaradıcı görüşlərin və kino axşamlarının keçirilməsi məqsədilə Dövlət Film Fondu və Nizami Kino Mərkəzi ilə birgə “Kino Klub” sosial layihəsi fəaliyyətə başlamış və layihə çərçivəsində noyabrın 2-də Əməkdar incəsənət xadimi, rejissor Ayaz Salayevin təqdimatı ilə tanınmış fransız rejissoru Roman Polanskinin “Acı ay” bədii filmi, dekabrın 6-da kinossenarist Elşad Ərşadoğlunun təqdimatında macar rejissoru İldiko Enyedinin “Bədən və Ruh haqqında” bədii filmi, dekabrın 21-də isə Əməkdar incəsənət xadimi, rejissor Cəmil Quliyevin təqdimatında amerikalı rejissor Riçard Lesterin “Ağır günün axşamı” bədii filmi nümayiş olunmuşdur.

27 iyun-1 iyul 2018-ci il tarixində keçirilən Azərbaycanda İran Mədəniyyəti Günləri çərçivəsində iyunun 28-də Nizami Kino Mərkəzində dünya şöhrətli İran rejissoru Məcid Məcidinin iştirakı ilə rejissorun “Məhəmməd: Allahın elçisi” bədii filminin nümayişi keçirilmişdir. İyunun 29-da isə Azərbaycan Dövlət Film Fondunda Məcid Məcidi ilə azərbaycanlı gənc kinematoqrafçıların yaradıcı görüşü təşkil olunmuşdur.

Dövlət Film Fondu ilə birgə aprelin 3-də Muzey Mərkəzində onilliklər ərzində milli filmlərə çəkilmiş afişa və plakatlardan ibarət “Azərbaycan kinosu afişalarda”, oktyabrın 12-də isə filmlərimizin çəkiliş proseslərini əks etdirən “Azərbaycan kinosu çəkiliş meydançalarında” adlı sərgi, mayın 4-də Dövlət Film Fondunda tanınmış aktyor Bahadur Əliyevin 85 illik yubileyi, mayın 8-də Nizami Kino Mərkəzində ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci il dönümü münasibəti ilə “Heydər Əliyev və Azərbaycan kinosu” mövzusunda elmi-praktik konfrans, iyulun 17-də tanınmış kino aktyoru və rejissoru Şahmar Ələkbərovun 75 illik, noyabrın 30-da görkəmli kinorejissor Arif Babayevin 90 illik yubiley tədbiri, eləcə də, 9-10 oktyabr tarixində “Azərbaycanfilm” kinostudiyası və Dövlət Film Fondu ilə birgə vaxtilə milli filmlərdə istifadə edilmiş kinotexnikaların nümayiş olunduğu “Keçmişdən səslər” adlı sərgi təşkil olunmuşdur.

Kinomuzun beynəlxalq əlaqələrinin inkişaf etdirilməsi istiqamatində də müəyyən işlər görülmüş, filmlərimiz dünyanın müxtəlif ölkələrində keçirilən beynəlxalq kino festivallarında ölkəmizi təmsil etmişdir. Belə ki, hesabat dövründə "Nar bağı" bədii filmi Tacikistanda keçirilən Didor Beynəlxalq Film Festivalında (“Qran-Pri” mükafatına layiq görülüb), Bolqarıstanda keçirilən 10-cu Sofia MENAR Film Festivalında, İranda Fəcr Beynəlxalq Film Festivalında, İspaniyada 17-ci IMAGINEINDIA Beynəlxalq Film Festivalında, ABŞ-da SEEfest Film Festivalında (festivalın baş mükafatına - "BEST FEATURE FILM. GRAND JURY PRIZE. Bridging the Borders Award" layiq görülmüşdür), Polşada 12-ci Lüblin Beynəlxalq Film Festivalında (“Qran-Pri” mükafatı qazanıb), "Qırmızı bağ" bədii filmi Rusiyada keçirilən 17-ci Baykal Beynəlxalq Film Festivalında ("Ən yaxşı bədii film" mükafatına layiq görülmüşdür), “Dərs” bədii filmi Cənubi Koreyada 6-cı Seul Guro Beynəlxalq Uşaq Filmləri Festivalında (“Mədəni mübadilə mükafatı”na layiq görülüb), “Balaca” qısametrajlı bədii filmi Türkiyədə 8-ci

Malatya Beynəlxalq Film Festivalında, Gürcüstanda Batumi Beynəlxalq Art-Haus Film Festivalında, Ruminiyada Alternativ Qısa Film Festivalında, Qırğızıstanda “Qısametrajlı Filmlər Ölkəsi” Film Festivalında, “Eliza” qısametrajlı bədii filmi ABŞ-ın Nyu-York şəhərində “Bronx World Cinema” Festivalında, Rusiyada “Zilant” Beynəlxalq Filmlər Festivalında (“Ən yaxşı xarici bədii film” mükafatı qazanıb), “Eviniz nurla dolsun” sənədli filmi Belarusda 3-cü “Euroasia.doc” Sənədli Filmlər Festivalında (“Xüsusi Diplom”a layiq görülüb) iştirak etmiş, “Çölçü” bədii filmi Hindistanın Kəlküttə şəhərində keçirilən festivallarda “Qızıl Tülkü”, “Yanvar ayının ən yaxşı bədii filmi”, “Fevral ayının ən yaxşı bədii filmi”, "GOLDEN GALAXY AWARD 2018" və Avropa, Asiya və Amerikadan olan kino ekspertlərindən ibarət münsiflər heyətinin rəyi nəticəsində "Cult Critic Movie Awards" jurnalının “Jan Lük Qodar” mükafatına layiq görülmüşdür.

Bundan əlavə, cari ilin 22-30 sentyabr tarixində Türkiyə Respublikasında keçirilən 25-ci Adana Beynəlxalq Film Festivalı çərçivəsində, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) təşəbbüsü ilə sentyabrın 23-də Azərbaycan kinosunun 120 illik yubileyi münasibəti ilə “Azərbaycan kinosu – 120” adlı tədbir keçirilmişdir. Adana Atatürk Sənət Qalereyasında təşkil olunan tədbirdə əvvəlcə Azərbaycan kinosunun tarixini və inkişaf yolunu əks etdirən fotosərgi nümayiş olunmuş, daha sonra Azərbaycan nümayəndə heyəti tərəfindən Azərbaycan kino tarixi, onun təkmilləşmə mərhələləri, müasir kinomuzun inkişaf dinamikası, o cümlədən bu sahəyə göstərilən dövlət qayğısı haqqında iştirakçılara məlumat verilmişdir. Sonda Azərbaycan kinosunun tarixi haqqında “Azərbaycanfilm” kinstudiyasında çəkilmiş “Biri var idi, biri yox idi” sənədli filmi nümayiş olunmuş və tamaşaçılar tərəfindən maraqla qarşılanmışdır. Adana Film Festivalı çərçivəsində sentyabrın 28-də isə “Azərbaycanfilm” kinostudiyasında çəkilmiş “İçəri Şəhər” bədii filmi nümayiş olunmuşdur.

Hesabat dövründə özəl kino şirkətləri tərəfindən istehsal edilmiş “4 baş”, “De sən öl”, “Qaranlıq”, “Cekpot”, “Bəxt üzüyü 2”, “Qulyabani”, “Güləhməd”, “Bir xalanın sirri”, “Ağ tük”, “Qatillə görüş”, “Son nəfəsədək”, “İkinci güllə”, "Şollerin arxivi", "El qəhrəmanı", "Cümhuriyyətin 9 şəkli", "Hiyləgər axmaqlar", "ÇAO", "İtkin", "61 qram", "Balta”, "2 mal", “Mübarizə”, “Qaragöz”, “Bəla”, “Taxta ayı”, “Əsgərlər unudulanda ölürlər”, “Fəlakət”, “Xüsusi təyinatlı İbad 2”, “Əngəl sərhəd tanımır” kimi tam və qısametrajlı bədii, sənədli və cizgi filmləri Dövlət Reyestrində qeydə alınaraq Yayım vəsiqəsi ilə təmin olunmuşdur.

## XALQ YARADICILIĞI VƏ MƏDƏNİ MARŞRUTLARIN İNKİŞAFI SAHƏSİ

Hesabat dövrü ərzində nazirliyin müəyyən edilmiş İş Planına müvafiq olaraq xalq yaradıcılığı və mədəni marşrutlar sahələrində mövcud vəziyyət öyrənilmiş və təhlil edilmişdir. Təhlillər nəticəsində xalq yaradıcılığı və mədəni marşrutların inkişafının təmin edilməsi, bu sahədə müasir, innovativ yeniliklərin tətbiqi, potensialın üzə çıxarılması və perspektivlərin hesablanması məqsədilə uzunmüddətli (strateji) əhəmiyyətə malik və sistemləşdirilmiş “Xalq Yaradıcılığının 2019-2023-cü illər üzrə İnkişafına dair Strateji Fəaliyyət Planı”, “Xalq yaradıcılığı üzrə sahəvi inkişaf modeli” və “Mədəni Marşrutların İnkişafı və Marketinqin 2018-ci ilin II yarısı 2019-cu il üzrə Fəaliyyət Planı” hazırlanmışdır. “Xalq Yaradıcılığının 2019-2023-cü illər İnkişafına dair Strateji Fəaliyyət Planı” özündə “Xalq Sənətkarlığının 2019-2023-cü illər üzrə İnkişafına dair Tədbirlər Planı”, “Xalq Teatrlarının 2019-2023-cü illər üzrə İnkişafına dair Tədbirlər Planı”, “Azərbaycan Aşıq Sənətinin 2019-2023-cü illər üzrə İnkişafına dair Tədbirlər Planı”, “Milli Folklor və Adət-ənənələrin 2019-2023-cü illər üzrə İnkişafı və Qorunmasına dair Tədbirlər Planı”, “Milli Geyimlər Ənənəsinin 2019-2023-cü illər üzrə İnkişafına dair Tədbirlər Planı”nı ehtiva edir.

Azərbaycan qeyri-maddi mədəni irsinin mühüm tərkib hissəsi olan aşıq yaradıcılığının inkişafı, qorunması və təbliği məqsədilə Azərbaycan Aşıqlar Birliyi ilə birgə səmərəli iş aparılır. Cari ilin 28 sentyabr tarixində Azərbaycan Aşıqlarının VI Qurultayının keçirilməsinə nazirlik

tərəfindən müvafiq dəstək göstərilmiş, qurultay R.Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında nazirliyin rəhbər şəxslərinin, ictimai xadimlərin və tanınmış aşıqların iştirakı ilə təşkil edilmişdir. Bundan əlavə Azərbaycan Aşıqlar Birliyi ilə birlikdə cari ilin 15 noyabr tarixində aşıq İmran Həsənovun və 30 noyabr tarixində aşıq Cəlal Qəhrəmanovun 90 illik yubileyləri qeyd edilmişdir. Ustad sənətkarların xatirəsinin yad edilməsi ilə bağlı təşkil edilən tədbirlərin davamı olaraq cari ilin 17 dekabr tarixində aşıq Əmrah Gülməmmədovun 110 illik yubileyi keçirilmişdir.

Azərbaycan sərvətlərinin və milli mətbəx ənənələrinin tanıdılması, respublika ictimaiyyəti və ölkəmizə gələn xarici qonaqlar arasında təbliği məqsədilə 29 sentyabr tarixində Zaqatala rayonunda keçirilmiş I Beynəlxalq fındıq, qoz, şabalıd festivalının mədəni proqramının təşkilinə müvafiq köməklik edilmişdir.

26-29 iyul 2018-ci il tarixində Bakı şəhərində keçirilmiş “Jara 2018” beynəlxalq musiqi festivalına Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən dəstək göstərilmiş və bununla əlaqədar, tərəfimizdən müvafiq işlər görülmüşdür.

Ölkəmizin mədəniyyətinin tanıdılması və təbliği məqsədilə dünyada məşhur xarici televiziya kanalları olan “CNN” və “Euronews” telekanalları ilə əməkdaşlıq davam etdirilir. Eyni zamanda, 27-30 sentyabr 2018-ci il tarixində keçirilmiş “Nəsimi Festivalı” haqqında “Euronews” kanalında xüsusi reportaj hazırlanıb yayımlanmışdır.

Cari ilin 26-28 sentyabr tarixində Almaniya Federativ Respublikasının Görlitz şəhərində keçirilmiş Avropa Şurası Mədəni Marşrutların İllik Məşvərət Forumunda nazirlik təmsil olunmuş, həmçinin “Zeytun Yolları” beynəlxalq mədəni marşrutunda Azərbaycanın iştirakı, marşrut boyunca ölkəmizin mədəni irsinin, mədəniyyətinin və incəsənətinin üzv ölkələrdə tanıdılması, xarici qonaqların cəlb olunması məqsədilə təqdimat edilmişdir. Bununla əlaqədar, ölkəmizin “Zeytun Yolları” beynəlxalq mədəni marşrutuna qoşulması üçün Avropa Şurasının Mədəni Marşrutlar layihəsinin ekspertlərinin 2019-cu ilin fevral ayında Azərbaycana səfər etməsi qərara alınmışdır.

18 sentyabr–05 oktyabr 2018-ci il tarixlərində “Böyük İpək Yolu” beynəlxalq mədəni marşrutu çərçivəsində İngiltərənin “Golden Eagle Luxury Trains” şirkəti tərəfindən ölkəmizə qatar vasitəsilə səfərin təşkilində tərəfimizdən müvafiq köməklik göstərilmişdir.

2019-cu ildə Bakı şəhərində keçirilməsi nəzərdə tutulan Beynəlxalq Memarlar İttifaqının Növbədənkənar Baş Assambleyasının, həmçinin “Mədəni İrs Şəhərləri və Turizm Çağırışları” mövzusunda Beynəlxalq Forumunun təşkilinə hazırlıq işləri görülməkdədir.

Beynəlxalq təşkilatlar ilə əməkdaşlıqda istifadə olunması və mədəni marşrutların fəaliyyətinin səmərəliyinin artırılması məqsədilə layihələrin elmi əsaslarla araşdırılması, işlənilməsi, pasportlaşdırılması, marşrut üzrə xəritələrinin hazırlanması və marketinqinin həyata keçirilməsi üzrə işlər görülür.

Azərbaycanın mədəniyyətinin təbliğ edilməsi, yerli və xarici turistlərin mədəniyyət obyektlərinə cəlb edilməsi və yeni mədəni marşrutların yaradılması məqsədilə tərəfimizdən Azərbaycan musiqi mədəniyyəti ilə bağlı “Şərqin musiqi paytaxtına səyahət” mədəni marşrutunun layihəsi hazırlanmış və layihənin həyata keçirilməsi ilə bağlı müvafiq işlər həyata keçirilir.

03-05 oktyabr 2018-ci il tarixində İspaniya Krallığının Orense şəhərində keçirilən Avropa Tarixi Termal Şəhərlər Assosiasiyasının (EHTTA) Baş Assambleyasında nazirliyin müvafiq struktur bölməsinin rəhbəri iştiraketmişdir. Assambleyanın iclasında Azərbaycanın maddi-mədəni irs və termal imkanları geniş olan Qəbələ şəhərinin 2019-cu ildə bu beynəlxalq təşkilata üzv seçilməsi ilə bağlı təqdimat keçirilmişdir. Qeyd etmək lazımdır ki, EHTTA-nın üzv ölkələrinin və elmi komitənin nümayəndələrinin iştirak etdiyi təqdimat mərasimində həm Qəbələ rayonunun termal infrastruktur imkanları, həm də “Qəbələ Dövlət Tarixi Bədii Qoruğu” haqqında geniş məlumat verilmiş və iştirakçılar tərəfindən böyük maraqla qarşılanmışdır.

İslam, Təhsil, Elm və Mədəniyyət Təşkilatı (İSESKO) və Statistik, İqtisadi və Sosial Tədqiqat və Təlim Mərkəzinin birgə təşkilatçılığı ilə 16-18 oktyabr 2018-ci il tarixində Türkiyə Respublikasının paytaxtı Ankara şəhərində "İSESKO-ya üzv ölkələrdə icma əsaslı iqtisadiyyatın inkişafında əl sənətinin rolu" üzrə keçirilmiş regional seminarda Xalq yaradıcılığı sektorunun rəhbəri ekspert qismində iştirak etmişdir.

Azərbaycanla yanaşı Türkiyə, İordaniya, Mərakeş, Fələstin, Tunis, Oman Sultanlığı, Qazaxıstan, İran, Tacikistan və Özbəkistandan sənətkarlıq və sənayə sahələri üzrə ekspertlərin, həmçinin sahibkarlıq subyektlərinin nümayəndələrinin qatıldığı regional seminarda mədəni sənayelər və əl sənətinin iqtisadi, sosial və mədəni aspektlər üzrə təşviq edilməsi, İslam dünyasında bu sahəyə investisiyanın cəlb edilməsi və elementlərin məhv olmaqdan qorunması, sahə üzrə müəlliflik hüquqlarının həyata keçirilməsi, innovasiya və yenilənmənin inkişaf edən mədəni sənayelərdə rolu mövzularında müzakirələr aparılmışdır. Seminarda Azərbaycan tərəfindən "Yaradıcı sənayelər üzrə innovativ yanaşma" mövzusunda təqdimat və məruzə ilə çıxış edilmiş və iştirakçılar tərəfindən maraqla qarşılanmışdır.

Ölkəmizin əkinçilik mədəniyyətinin və ənənələrin qorunması, təbliği məqsədilə cari ilin 27-28 oktyabr tarixində Balakən rayonunda təşkil edilmiş "II Beynəlxalq xurma festivalı"nın mədəni proqramının həyata keçirilməsinə köməklik edilmişdir.

Respublikamızın ayrı-ayrı bölgələrinin özünəməxsus adət və ənənələri, milli mədəniyyətimizin ayrılmaz hissəsi olan mədəni dəyərləri vardır. Həmin adət və ənənələrin, o cümlədən mətbəx, meyvəçilik mədəniyyətinin və onun təqdimatının təşviq edilməsi, bu istiqamətdə müxtəlif festival və yarmarkaların keçirilməsinin dəstəklənməsi məqsədilə cari ilin 10 noyabr tarixində Lənkəran şəhərində keçirilmiş "II Çay, Çəltik və Sitrus festivalı"nda Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini Rafiq Bayramov iştirak etmişdir.

14-16 noyabr 2018-ci il tarixində Avropa Şurası və Xorvatiya Turizm Nazirliyinin təşkilatçılığı ilə Mali Losinj adasında keçirilmiş "Avropa dəyərləri, miras və davamlı inkişaf üçün Zeytun ağacları mədəni marşrutu modeli kimi" adlı beynəlxalq konfransda Mədəni marşrutların inkişafı və marketinq sektorunun rəhbəri iştirak etmişdir. Tədbir çərçivəsində Günel Aslanova və Avropa Şurasının nümayəndəsi Stefano Dominioni arasında görüş keçirilmişdir. Görüşdə Azərbaycanın "Zeytun ağacları mədəni marşrutu"na qoşulması barədə ətraflı müzakirələr aparılmış, paytaxt Bakı ətrafında mövcud olan zeytun bağları, habelə zeytundan hazırlananan qida və kosmetik məhsullar barədə məlumat verilmişdir. Eyni zamanda ölkəmizin mədəni zənginliyi, YUNESKO-nun maddi və qeyri-maddi mədəni irs reprezentativ siyahısına daxil edilmiş nümunələr haqqında təqdimat həyata keçirilmişdir.

"3-cü Sanya Beynəlxalq Mədəniyyət Sənayesi Yarmarkası"nda iştirak məqsədilə nazirliyin əməkdaşları, Dövlət Mahnı və Rəqs Ansamblının dörd nəfərdən ibarət üzvü və xalq dekorativ-tətbiqi və təsviri sənət ustaları Nailə Sultanova, Şəhla Əsgərova 13-18 noyabr tarixində Çin Xalq Respublikasının Xaynan vilayətinin Sanya şəhərində ezamiyyədə olmuşlar.

Mədəniyyət Nazirliyi tərəfindən təşkil edilən Azərbaycan stendində ölkəmizin tarixi, mədəniyyəti, milli mətbəximiz, eləcə də "Böyük İpək Yolu" mədəni marşrutu ilə sıx bağlı olan, müasirlik və tarixi irsin ahəngdar şəkildə birləşdiyi respublikamız haqqında məlumatların əks olunduğu kitablar təqdim edilmiş, habelə stenddə qurulmuş ekranda ölkəmiz haqqında videoçarxlar nümayiş olunmuşdur. Eyni zamanda xalq dekorativ-tətbiqi və təsviri sənət ustalarımızın hazırladıqları müxtəlif əl işləri yarmarka iştirakçılarının xüsusi diqqətini cəlb etmişdir. Ustalar tərəfindən milli əl işləri sənəti nümunələrinin hazırlanması interaktiv formada nümayiş olunmuş və stendin ziyarətçiləri üçün ustad dərsləri təşkil edilmişdir. Azərbaycanın stendi özünəməxsus məzmun və forma baxımından fərqləndiyi üçün tədbirin ən yaxşı pavilyonu olaraq seçilmişdir.

Bundan başqa Sənaye Yarmarkası çərçivəsində müxtəlif ölkələrin diplomatik nümayəndələrinin, mədəniyyət, iqtisadiyyat və turizm sahələri üzrə dövlət orqanlarının, özəl şirkətlərin, elmi müəssisələrin təmsilçilərinin iştirak etdiyi "Mədəniyyət və İqtisadi Turizm

Beynəlxalq Forumu” keçirilmişdir. Forumda ölkəmizi Azərbaycanın ÇXR-dakı səfiri Əkrəm Zeynallı və Mədəniyyət Nazirliyinin Xalq yaradıcılığı və mədəni marşrutların inkişafı şöbəsinin müdiri təmsil etmişdir.

Türkmənistan Respublikasının Mədəniyyət Nazirliyi və UNESCO-nun birgə təşkilatçılığı ilə cari ilin 4-8 dekabr tarixində Aşqabad şəhərində keçirilmiş “Böyük İpək Yolunun vacibliyi: təqdimat və inkişaf” beynəlxalq konfransında Mədəni marşrutların inkişafı və marketinq sektorunun əməkdaşı iştirak etmişdir. Konfrans çərçivəsində bir çox ölkələrin nümayəndələri ilə görüşlər keçirilmiş eləcə də “Böyük İpək Yolu” mədəni marşrutu ilə bağlı əlaqələrin genişləndirilməsi nəzdində müzakirələr aparılmışdır.

## KİTAB DÖVRİYYƏSİ VƏ NƏŞRİYYATLARLA İŞ SAHƏSİ

Ölkədə kitaba, mütaliəyə marağın daha da artırılması, yaradıcı şəxslərin həyat və yaradıcılığının ətraflı şəkildə öyrənilməsi məqsədilə ardıcıl olaraq incəsənət və ədəbiyyat xadimləri, mədəniyyət müəssisələri haqqında nəşr layihələri, dövlətin mədəniyyət siyasətinə uyğun müxtəlif mövzularda yüksək məzmunlu kitabların çapı, görkəmli yazıçı və şairlərin yubileylərinin, kitab sənəti ilə bağlı tədbirlərin təşkili və digər bu kimi mühüm işlərin icrası 2018-ci ildə də davam etdirilmişdir.

Yanvarın 18-də Beynəlxalq Muğam Mərkəzində “Qarabağ - əsrlərin salnaməsi” kitabının təqdimat mərasimi keçirilmişdir. Azərbaycanın işğal altındakı dilbər guşəsi Qarabağın tarixindən və faciəli taleyindən bəhs edən kitab Nazirliyin, “Paşa Həyat Sığorta” ASC-nin və “Silk Way Group” şirkətinin dəstəyi ilə “IRS Publishing House” tərəfindən nəşr olunmuşdur. Təqdimat mərasimində nazir Əbülfəs Qarayev, ölkəmizdə akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərləri və təmsilçiləri, ziyalılar iştirak etmişdir.

Yanvarın 31-də Nizami Kino Mərkəzində Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə çəkilən “Ardı yaşanılır” adlı sənədli filmin təqdimat mərasimi keçirilmişdir. Film Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar və həyat yoldaşı, görkəmli musiqişünas alim, AMEA-nın həqiqi üzvü, Əməkdar incəsənət xadimi Zemfira Səfərovanın 80 illik yubileylərinə həsr olunmuşdur. Filmin ssenari müəllifi Günel Anarqızı, rejissoru Gülər Həsənli, bəstəkarı Vaqif Gərayzadədir.

28 fevral – 4 mart tarixlərində keçirilmiş XXV Minsk Beynəlxalq Kitab Sərgi-Yarmarkasında Nazirliyin iştirakı ilə ölkəmiz təmsil olunmuşdur. Belarus Respublikasının İnformasiya Nazirliyi tərəfindən Azərbaycana ödənişsiz ayrılmış 6 kv.m.-lik stenddə 100 adda nəşr məhsulundan, ölkəmizin turizm imkanları haqqında təbliğat materiallarından ibarət ekspozisiyamız ziyarətçilərin geniş marağına səbəb olmuşdur. Sərgi müddətində stend Belarus Respublikasının İnformasiya naziri Aleksandr Karlyukeviç, Prezident Kitabxanasının direktoru Sergey Kvaçan, sərginin təşkilatçılarından olan “Makbel” şirkətinin rəhbəri Dimitriy Makarov, digər rəsmi şəxslər və müxtəlif nəşriyyatların rəhbərləri, nümayəndələri tərəfindən ziyarət edilmişdir.

1-3 mart tarixində Nazirliyin dəstəyi, Azərbaycan Yazıçılar Birliyi Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin təşkilatçılığı, Moldova Azərbaycanlıları Konqresinin iştirakı ilə Bakıda “Moldova ədəbiyyatı günləri” keçirilmişdir. Martın 1-də nazir Əbülfəs Qarayev bu münasibətlə ölkəmizdə səfərdə olan Moldova Respublikası Təhsil, Mədəniyyət və Tədqiqatlar Nazirliyi Aparatının rəhbəri Georq Postikenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Nümayəndə heyətinin tərkibində Moldova Yazıçılar Birliyinin sədri, şair Arkadi Suçevyanu, moldavan ədibləri Leo Butnaru, Nikolay Spetaru, İqor Volnitski yer almışdır. Daha sonra Azərbaycan Yazıçılar Birliyinin “Natəvan” klubunda Moldova Yazıçılar İttifaqının sədri Arkadi Suçevyanu başda olmaqla moldovalı ədiblərlə görüş keçirilmişdir. Açılışı Milli İncəsənət Muzeyinin akt zalında baş tutan ədəbiyyat günləri müxtəlif maraqlı tədbirlərlə yadda qalmışdır.

Martın 12-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında Xalq Şairi Cabir Novruzun 85 illiyinə həsr olunmuş "Tələsin insanlar, əldə tutmağa" adlı ədəbi-bədii gecə keçirilmişdir.

Martın 13-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif olunmuşdur. Martın 14-də nazir Əbülfəs Qarayev Azərbaycan Yazıçılar Birliyində "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"nu Xalq yazıçısı Anara təqdim etmiş və 80 illik yubileyi münasibətilə onu təbrik etmişdir.

Aprelin 16-da Qətərin paytaxtı Doha şəhərində Qətər Milli Kitabxanasının yeni binasının təntənəli açılış mərasimi olmuşdur. Mərasimdə bir sıra qonşu ölkələrin dövlət və hökumət başçıları, mədəniyyət və turizm nazirləri, 30-dan artıq ölkənin milli kitabxanasının direktorları iştirak etmişdir. Azərbaycanı açılış mərasimində nazirin birinci müavini Vaqif Əliyev, Milli Kitabxananın direktoru Kərim Tahirov və Azərbaycanın Qətərdəki səfiri Rəşad İsmayılov təmsil etmişdir. Qətər əmiri Şeyx Təmin bin Həməd Əl Sani ilə görüşən nazirin birinci müavini Vaqif Əliyev Azərbaycan Respublikasının Prezidentinin salamlarını əmirə çatdırmış və bu möhtəşəm layihə münasibətilə onu və Qətər xalqını təbrik etmişdir. Aprelin 17-də Qətər Milli Kitabxanasının yeni binasında Azərbaycan Milli Kitabxanası ilə Qətər Milli Kitabxanası arasında qarşılıqlı əməkdaşlığa dair Memorandumun imzalanma mərasimi olmuşdur.

25-28 aprel tarixində Qazaxıstanın paytaxtı Astana şəhərində keçirilmiş beynəlxalq kitab sərgi-yarmarkasında ölkəmiz təmsil edilmişdir. Türk dünyasının iki mühüm ölkəsi Azərbaycan və Qazaxıstan arasındakı qardaşlıq münasibətlərini, orada yaşayan soydaşlarımızın çoxluğunu, mədəni əlaqələrin daha da inkişafının vacibliyini nəzərə alaraq həmin sərgidə ölkə nəşriyyatlarının iştirakı Nazirlik tərəfindən məqsədəuyğun sayılmışdır. Ölkəmiz üçün ödənişsiz ayrılmış 6 kv.m. stenddə respublikamızın aparıcı nəşriyyatlarından "Hədəf" və "Altun kitab" milli nəşrlərin nümayişini təmin etmişdir.

Aprelin 30-da XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, istedadlı ədib, professor Mir Cəlal Paşayevin anadan olmasının 110 illiyi münasibətilə Mədəniyyət Nazirliyi və Milli Kitabxana tərəfindən nəşr olunmuş "Mir Cəlal. Biblioqrafiya", Nizami Cəfərovun "Mir Cəlalın milli idealları" kitablarının və "Mir Cəlal–110" elektron məlumat bazasının təqdimatı keçirilmişdir. M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında təşkil olunan tədbirdə Milli Məclisin deputatları, tanınmış elm və mədəniyyət xadimləri iştirak etmişlər.

Mayın 2-də Azərbaycan Milli Kitabxanasında "Zərifə Əliyeva. Biblioqrafiya" kitabının və "Zərifə xanım Əliyeva – 95" adlı elektron məlumat bazasının təqdimat mərasimi keçirilmişdir. Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə hazırladığı nəşr və kitabxana tərəfindən ərsəyə gətirilən məlumat bazası görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 95-ci ildönümünə həsr edilmişdir.

Mayın 2-də Beynəlxalq Muğam Mərkəzində üçüncü Buktreyler Festivalının qaliblərinin mükafatlandırılması mərasimi baş tutmuşdur. Buktreyler Festivalı eyni anda mədəniyyətin iki sahəsi – kitab və kino sənəti üçün əlamətdar hadisədir. Mədəniyyət Nazirliyinin, Beynəlxalq Muğam Mərkəzinin təşkilati dəstəyi, Azercell və Libraff-ın tərəfdaşlığı ilə keçirilən "Kitabı tanıdın, kitabla tanının" sloqanlı Buktreyler Festivalının məqsədləri kitab və mütaliənin cəmiyyətimizdə təbliği, mütaliəyə münasibətin yaradıcı formaların inkişafı və dəstəklənməsi, kino sahəsində istedadlı və yaradıcı gənclərin üzə çıxarılması, buktreylerlərin incəsənət və biznesdə bir istiqamət kimi inkişafıdır. Qaliblərə diplom və pul mükafatları təqdim olunmuşdur.

Mayın 3-də Mədəniyyət Nazirliyi və Milli Kitabxana tərəfindən Azərbaycan, rus və ingilis dillərində çap olunmuş "Ramiz Mehdiyev. Biblioqrafiya" kitabının və eyniadlı elektron məlumat bazasının təqdimatı keçirilmişdir. Yenidən tərtib olunmuş bu fundamental biblioqrafiyaya Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin son 10 ildə Azərbaycan, rus, ingilis, türk və digər xarici dillərdə nəşr edilmiş kitabları, elmi konqres, sessiya, konfrans materiallarında və dövri mətbuatda dərc edilmiş elmi-publisistik məqalələri, çıxışları və müsahibələri haqqında biblioqrafik məlumatlar daxil edilmişdir.

Mayın 5-də Milli Kitabxanada ümummilli lider Heydər Əliyevin 95 illik yubileyi ilə əlaqədar olaraq “Azərbaycanın özü qədər əbədi olan şəxsiyyəti – Heydər Əliyev” adlı kitab sərgisinin açılış mərasimini keçirilmişdir. Tədbirdə ulu öndərin dövlətçiliyimizin inkişafındakı tarixi rolundan, ölkəmizi parçalanmaqdan qorumasından, müstəqilliyini möhkəmləndirməsindən danışılmış, həmçinin milli mədəniyyətimizin bütün sahələrinin inkişafı və təbliğində, ana dilimizin dövlət dili kimi tətbiqində, onun imkanlarının genişləndirilməsi və Azərbaycan xalqının ən böyük sərvəti kimi dəyərləndirilməsində Heydər Əliyev şəxsiyyətinin rolu vurğulanmışdır.

10-14 may tarixində keçirilmiş Turin Beynəlxalq Kitab Sərgisində Mədəniyyət Nazirliyi tərəfindən ölkəmiz təmsil olunmuşdur. Sərgidə Nazirliyinin təşkilatçılığı ilə 32 kv.m.-lik sahədə xüsusi dizaynlı stendlə qurulmuş milli pavilyonumuzda 200 adda 300 nüsxə yüksək bədii və poliqrafik keyfiyyətə malik nəfis tərtibatlı kitablar, təbliğat materialları və s. nümayiş etdirilmişdir.

Mayın 17-də "Söz" ədəbi layihəsi çərçivəsində Azərbaycan Dövlət İncəsənət Muzeyində Azərbaycan xalqının böyük oğlu, əbədiyaşar şair Hüseyn Cavidin əziz xatirəsinə həsr olunmuş gecə keçirilmişdir.

Mayın 25-də Əli bəy Hüseynzadə adına Salyan Rayon Tarix-Diyarşünaslıq Muzeyində “İstiqlal aşiqi” adlı dəyirmi masa keçirilmişdir. Tədbir Xalq Cümhuriyyətinin 100 illik yubileyi çərçivəsində Azərbaycan ədəbi, ictimai fikrinin görkəmli nümayəndəsi Əli bəy Hüseynzadəyə (1864-1940) həsr olunmuşdur. Mərasim “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında” Prezident İlham Əliyevin 16 may 2017-ci il tarixli sərəncamına əsasən Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Kitabxanası və Salyan Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə gerçəkləşdirilimişdir.

İyunun 5-də XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Mikayıl Müşfiqin 110 illiyi və doğum günü ilə əlaqədar şairin Bakıdakı büstü ziyarət olunmuşdur. Daha sonra Azərbaycan Milli Kitabxanasında “Mikayıl Müşfiq-110” adlı geniş tərtibatda kitab sərgisi açılmışdır. Sərgidə şairin Azərbaycan və xarici dillərdə nəşr olunan əsərləri, redaktoru olduğu, tərcümə etdiyi, şair haqqında yazılmış kitablar və dövri mətbuat materialları sərgilənmişdir.

İyunun 12-də Azərbaycan Milli Kitabxanasında Azərbaycan ədəbiyyatının parlaq simalarından biri, görkəmli nasir və ssenarist, Xalq yazıçısı İsa Muğannanın ( İsa Mustafa oğlu Hüseynov) anadan olmasının 90 illiyi ilə əlaqədar olaraq “İsa Muğanna-90” adlı sərgi açılmışdır. Sərgidə yazıçının Azərbaycan və xarici dillərdə olan kitabları, ön söz yazdığı, redaktoru olduğu, tərcümə etdiyi və yazıçı haqqında ayrı-ayrı müəlliflərin yazdıqları kitablar, qəzet-jurnal materialları sərgilənmişdir.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən 2018-2019-cu illər üzrə yüksək bədii və sənətkarlıq keyfiyyətlərinə malik ədəbi əsərlərin dəyərləndirilməsi, təbliği, istedadlı ədiblərin səmərəli yaradıcılıq axtarışlarına zəmin yaradılması məqsədi ilə avqustun 1-dən etibarən “Qızıl Kəlmə” Ədəbi Mükafatı mwsabiq’sin’ əsərlərin qəbulu elan olunmuşdur.

Ümummilli lider Heydər Əliyevin “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” 2001-ci il 9 avqust tarixli Fərmanına əsasən 1 avqust tarixində Azərbaycan Milli Kitabxanasında “1 avqust - Azərbaycan Əlifbası və Azərbaycan Dili günü” münasibətilə tədbir keçirilmişdir.

Sentyabrın 5-9-u tarixində keçirilmiş 31-ci Moskva Beynəlxalq Kitab Sərgi-Yarmarkasında 18 kv.m.-lik stendə 150 addan çox milli nəşr məhsullarımız nümayiş etdirilmişdir. Sərgi çərçivəsində sentyabrın 8-də milli stenddə Avrasiya Xalqları Assambleyasının nümayəndələri ilə görüş olmuşdur. Görüşdə 2019-cu ildə VI Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası çərçivəsində keçirilməsi planlaşdırılan ədəbiyyat festivalının təşkili ilə bağlı məsələlər müzakirə edilmişdir.

“Sentyabrın 21– Beynəlxalq Sülh günü” münasibətilə Milli Kitabxanada, Gənclər Kitabxanasında müxtəlif tədbirlər təşkil olunmuşdur.

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası 21 sentyabr 2018-ci il tarixində kitabxananın 90 illiyi münasibəti ilə “Açıq Kitabxana”, “XXI əsr Gənclər Kitabxanaları-Ənənələr, innovasiyalar. Öyrənək, öyrədək” layihələri çərçivəsində kitab sərgisi təşkil etmişdir.

Azərbaycan Milli Kitabxanasının 95 illiyi ilə əlaqədar olaraq Milli Kitabxanada 27-28 sentyabr 2018-ci il tarixində “Milli Kitabxanalarda innovasiyalar – dəyişiliklərin əsası və inkişafın istiqaməti kimi” adlı Beynəlxalq Elmi-Praktik Konfrans keçirilmişdir.

Sentyabrın 28-də Mirzə Fətəli Axundzadə adına Azərbaycan Milli Kitabxanasında böyü qazax şairi Mağcan Cumabayın anadan olmasının 125 illiyinə həsr olunmuş tədbir və “TÜRKSOY kitabxanası seriyası”ndan Ankarada çap olunmuş “Mağcan Cumabay. Türküstan” və “Mağcan Cumabay şiirleri” adlı kitabların təqdimat mərasimi keçirilmişdir.

Oktyabrın 5-də Mirzə Fətəli Axundzadə adına Milli Kitabxanada görkəmli şair Mikayıl Müşfiqin anadan olmasının 110 illiyinə həsr edilmiş “Mikayıl Müşfiq. Biblioqrafiya” kitabının və “Mikayıl Müşfiq – 110” elektron məlumat bazasının təqdimat mərasimi keçirilmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Mikayıl Müşfiqin 110 illiyinin qeyd edilməsi haqqında” 17 may 2018-ci il tarixli 108 nömrəli Sərəncamına əsasən Oktyabrın 6-da Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında görkəmli şair Mikayıl Müşfiqin 110 illiyinə həsr edilmiş tədbir keçirilmişdir. Tədbir çərçivəsində şairin xatirəsinə həsr edilmiş “Ah, bu uzun sevda yolu” tamaşasının premyerası olmuşdur.

10-14 oktyabr tarixində keçirilmiş Frankfurt Beynəlxalq Kitab Sərgisində Azərbaycan təmsil olunmuşdur. 56 kv.m. sahədə, Qız Qalası və Qala divarları dizaynı ilə hazırlanmış stenddə ümummilli lider Heydər Əliyevin, cənab Prezident İlham Əliyevin həyat və fəaliyyətini əks etdirən kitablar, dövlətçiliyimizə, tariximizə, mədəniyyətimizə dair alman, ingilis və Azərbaycan dillərində 490 adda 700-ə yaxın nəşr məhsulu ziyarətçilərin diqqətinə təqdim edilmişdir. Sərgidə Nazirlik nümayəndələri ilə yanaşı ölkəmizin "Şərq-Qərb", "Qələm", "Radius", "Bərəkət" və s. nəşriyyatlarının təmsilçiləri də iştirak etmişdir. Sərgi çərçivəsində Azərbaycanın Mədəniyyət Nazirliyi, Azərbaycanın Almaniyadakı Səfirliyi, Avropa Mədəniyyətlərarası Əməkdaşlıq Forumu və Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə və görkəmli bəstəkar Qara Qarayevin 100 illiyinə həsr olunmuş tədbirlər və Mədəniyyət Nazirliyinin dəstəyi ilə Almaniyada çapdan çıxan “Qara Qarayev. Seçilmiş fortepiano əsərləri”, həmçinin alman publisist-tərcüməçi Hayke Maria Yohenninqin “Architekturführer Baku” (Bakının arxitektura bələdçisi) kitablarının təqdimat mərasimi keçirilmişdir. Azərbaycan stendində sərginin üçüncü günündə Almaniyanın Höte Universitetinin Kampuservis Akademiyasının müəllim və tələbələri ilə görüş olmuşdur. Tədbir boyunca qonaqların Azərbaycanla bağlı sualları cavablandırılmışdır. Sonda qonaqlara Azərbaycan Tərcümə Mərkəzinin alman dilində nəşr etdirdiyi "Azərbaycan ədəbiyyatı antologiyası" hədiyyə edilmişdir.

Oktyabrın 16-da Qara Qarayevin ev-muzeyində Azərbaycanın ötən əsrdə ilk ali təhsilli qadınlarından biri olan Sona Axundova-Qarayevanın 120 illik yubileyinə həsr edilmiş kitabın təqdimat mərasimi keçirilmişdir. Kitabda professor Şamil Qurbanov, Əməkdar jurnalist Flora Xəlilzadə, eləcə də Savalan Fərəcov və Aytən Qəhrəmanovanın məqalələri yer almışdır. Nəşrdəki materiallar Azərbaycan, rus və ingilis dillərində verilmişdir. M.F.Axundzadə adına Milli Kitabxananın iştirakı ilə hazırlanan kitab AYB-nin Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin nəşridir.

17 oktyabr tarixində M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında “18 oktyabr Dövlət Müstəqilliyi Günüdür” adlı kitab sərgisi açılmışdır. Sərgidə Azərbaycanın dövlət müstəqilliyindən bəhs edən 300-ə yaxın Azərbaycan, rus, ingilis və digər dillərdə nəşr olunmuş kitablar, dövri mətbuat materialları nümayiş olunmuşdur.

18 oktyabr Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında “Müstəqilliyimiz əbədidir” adı altında dəyirmi masa keçirilmişdir. Tədbirin sonunda “Müstəqil, azad Azərbaycan” adlı kitab sərgisinə baxış olmuşdur.

Oktyabrın 19-da Azərbaycan Milli Kitabxanasında Türkiyə Mədəniyyət və Turizm Nazirliyi və İLESAM (Türkiyə Elm və Ədəbi Əsər sahibləri Birliyi) tərəfindən toplanaraq ölkəmizə gətirilən kitabların təqdimat mərasimi keçirilmişdir. Tədbir Azərbaycan Mədəniyyət Nazirliyi, Yazıçılar Birliyi və Milli Kitabxananın birgə təşkilatçılığı ilə gerçəkləşdirilmişdir. Ölkəmizə gətirilən 15 min kitabın 2000 nüsxəsi Milli Kitabxanaya hədiyyə olunmuşdur. Bu nəşrlərdən Milli Kitabxananın oxucuları ilə yanaşı, ölkəmizin digər şəhər və rayon kitabxanalarının oxucuları da faydalanacaqdır.

19 oktyabr tarixində Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında Mədəniyyət Nazirliyinin dəstəyi, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun təşkilatçılığı ilə Qırğızıstan SSR-in Xalq yazıçısı, Qazaxıstanın Xalq yazıçısı, Qırğız Respublikasının Qəhrəmanı, Qırğızıstan SSR Elmlər Akademiyasının akademiki, Sosialist Əməyi Qəhrəmanı, Lenin və SSRİ-nin üç Dövlət Mükafatı Laureatı Çingiz Aytmatovun 90 illik yubileyi münasibətilə ədibin “Cəmilə” povesti əsasında qırğız dilində tamaşa göstərilmişdir. Tamaşada qırğız incəsənət ustaları da rol almışdır. Tədbirdə Çingiz Aytmatovun oğlu, qırğız diplomatı və dövlət xadimi Əskər Aytmatov da iştirak etmişdir.

Mədəniyyət Nazirliyinin dəstəyi və F.Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə “Uşaq Kitab Karvanı” layihəsi çərçivəsində 22-29 oktyabr tarixində İsmayıllı, Qəbələ, Şəki, Oğuz, Qax, Zaqatala, Balakən rayonlarında “Uşaq Kitab Karvanı – Qərb bölgəsində” adlı silsilə tədbirlər keçirilmişdir. Ümumilikdə layihə çərçivəsində 26 rayon uşaq kitabxanasına 23 minə yaxın kitab hədiyyə olunmuşdur.

Oktyabrın 30-da M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında Azərbaycan sənətşünaslıq elminə layiqli töhfələr vermiş görkəmli tədqiqatçı, alim, akademik Rasim Əfəndiyevin 90 illiyinə həsr edilmiş “Rasim Əfəndiyev-90” adlı sərgi açılmışdır.

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında 30 oktyabr tarixində “Milli gənclər siyasəti” mövzusunda dəyirmi masa keçirilmişdir.

Noyabrın 6-da Azərbaycan Dövlət Akademik Filarmoniyasında Xalq şairi Məmməd Arazın anadan olmasının 85 illiyinə həsr edilmiş tədbir keçirilmişdir. Tədbir Filarmoniya və “Mədəniyyət” kanalının birgə layihəsi olaraq Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşmışdır.

10-13 noyabr tarixində keçirilmiş İstanbul Beynəlxalq Kitab Sərgisində Nazirliyin təşkilatçılığı ilə 36 kv.m. sahədə xüsusi dizaynlı stendlə Azərbaycan pavilyonu fəaliyyət göstərmişdir. Sərgi zamanı 350 adda 700-dən çox ədəbiyyatdan ibarət ekspozisiya ziyarətçilərin diqqətinə təqdim edilmişdir. Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı xidmətlərini, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin, həmçinin birinci xanım Mehriban Əliyevanın mədəniyyət sahəsində fəaliyyətini əks etdirən kitablar, Azərbaycanın dövlətçiliyinə, tarixinə, Qarabağa dair nəşrlər, eyni zamanda Nazirliyin, Heydər Əliyev Fondunun dəstəyi ilə işıq üzü görmüş və müxtəlif qurumlar, nəşriyyatlar tərəfindən nəşr edilmiş, zəngin mədəniyyətimizə, incəsənətimizə, milli-mədəni irsimizə, multikultural dəyərlərə və tolerantlığa həsr olunmuş kitablar, həmçinin Azərbaycan Kitabının Dünyada Tanıdılması layihəsi çərçivəsində çap edilmiş ədəbiyyat insanların böyük marağına səbəb olmuşdur. Sərginin ilk günü Azərbaycan nümayəndə heyətinin, ölkəmizin İstanbuldakı Konsulluğunun, TÜRKSOY-un, Avropa Azərbaycanlıları Konqresinin nümayəndələri və çoxsaylı sərgi ziyarətçilərinin iştirakı ilə Azərbaycan Xalq Cümhuriyyətinin və dahi bəstəkar Qara Qarayevin 100 illiyinə həsr olunmuş tədbirlər keçirilmişdir. Tədbirlərdə TÜRKSOY-un Baş katibi Düsein Kaseinov da iştirak etmişdir. Noyabrın 11-də Azərbaycan stendində Türk yazarı Yertsevən Şənin qələmə aldığı “Mübariz” romanının imza günü təşkil edilmişdir. Milli qəhrəmanımız Mübariz İbrahimova həsr olunan bu roman Türkiyədə maraqla qarşılanmış və hər biri 5000 tirajla olmaqla ikinci dəfə çapdan çıxmışdır. Sərgi çərçivəsində bir sıra rəsmi şəxslərlə görüşlər keçirilmişdir.

Müasir Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi, nasir, ədəbiyyatşünas, tədqiqatçı-alim, mənsur şeirlər ustası, Xalq yazıçısı Gülhüseyn Hüseynoğlunun 95 illik yubileyi

münasibətilə 16 noyabr tarixində R.Behbudov adına Dövlət Mahnı Teatrında Nazirliyin dəstəyi və Azərbaycan Yazıçılar Birliyinin təşkilatçılığı ilə ədəbi-bədii gecə keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidentinin "İsa Muğannanın 90 illik yubileyinin keçirilməsi haqqında" 31 may 2018-ci il tarixli, 165 nömrəli Sərəncamının icrası ilə əlaqədar 20 noyabr Dövlət Akademik Filarmoniyasında təntənəli yubiley tədbiri keçirilmişdir.

Noyabrın 21-də Milli Kitabxanada Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi, nasir, dramaturq, kinossenarist və publisist, ictimai xadim, Dövlət mükafatı laureatı, Xalq yazıçısı İmran Qasımovun anadan olmasının 100 illiyi münasibətilə "İmran Qasımov - 100" adlı kitab sərgisi açılmışdır.

28-29 noyabr tarixində Düşənbə şəhərində MDB-nin "Dövri mətbuat, kitab nəşri, yayımı və poliqrafiya sahəsində əməkdaşlıq üzrə Dövlətlərarası Şura"sının XXIII iclasında Nazirliyin iştirakı təmin edilmişdir. İclasda 2019-cu ilin MDB-də "Kitab ili" olması ilə əlaqədar tədbirlər planı layihəsi, XV beynəlxalq "Kitab sənəti" müsabiqəsinin nəticələri və növbəti müsabiqəyə hazırlıq, Uşaq və gənclər üçün kitab festivalının əsasnaməsi, Şuraya sədrlik və s. kimi məsələlər müzakirə olunmuşdur. Şuranın Əsasnaməsinə uyğun olaraq 2019-cu ildə Şuraya sədrlik Azərbaycan Respublikasına verilmişdir.

Dekabrın 3-də M.F.Axundzadə adına Milli Kitabxanada "Respublika Xatirə Kitabı"nın xüsusi buraxılışının birinci cildinin təqdimat mərasimi keçirilmişdir. Nəşr Mədəniyyət Nazirliyi və Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası tərəfindən hazırlanmışdır. Nəşrdə 921 nəfərin taleyi barədə məlumatlar əks olunmuşdur.

Dekabrın 4-də Azərbaycan Milli Kitabxanasında Mədəniyyət Nazirliyinin dəstəyi və F.Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə "Mir Mehdi Seyidzadə: biblioqrafiya" kitabının və "Mir Mehdi Seyidzadə - 110" elektron məlumat bazasının təqdimatı keçirilmişdir. Kitab görkəmli şair və dramaturq, Əməkdar incəsənət xadimi Mir Mehdi Seyidzadəyə həsr edilmiş "Uşaq ədəbiyyatı xəzinəsi" seriyasından nəşr olunmuşdur.

5 dekabr tarixində Moskva şəhərində keçirilmiş MDB-nin "Kitabxanalararası abunə üzrə Bölmə"sinin 9-cu iclasında Nazirliyin iştirakı təmin edilmişdir. İclasda Bölmənin 2016-2018-ci illərdəki fəaliyyəti haqqında hesabat nəzərdən keçirilmiş, 2019-cu il üçün tədbirlər planı təsdiq edilmiş, digər cari məsələlər barəsində fikir mübadiləsi aparılmış, bir sıra qərarlar qəbul olunmuşdur.

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında dekabrın 5-də "Kitabxanalar - ənənələr və innovasiyalar" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilmişdir. Elmi tədbir kitabxananın 90 illiyinə həsr olunmuşdur. Yubiley çərçivəsində Azərbaycan Musiqili Teatrında təntənəli tədbir təşkil edilmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən yubiley münasibətilə Respublika Gənclər Kitabxanasının dörd əməkdaşı "Tərəqqi" medalına layiq görülmüşdür.

Dekabrın 11-də Azərbaycan Milli Kitabxanasında Ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə həsr edilmiş tədbir keçirilmişdir. Millət vəkillərinin, tanınmış ziyalıların iştirak etdiyi tədbirdə ulu öndərin siyasi fəaliyyətindən, gördüyü işlərdən, ölkəmizin inkişafındakı xidmətlərindən danışılmış, xatirəsi ehtiramla yad edilmişdir.

19 dekabr tarixində Dövlət Musiqili Teatrında şairə Nurəngiz Günün 80 illik yubileyi münasibətilə ədəbi-bədii tədbir təşkil edilmişdir.

Hesabat dövrü ərzində Mədəniyyət Nazirliyinin dəstəyi ilə N.Mehdiyeva "Qara Qarayevin kino musiqisi" («Киномузыка Кара Караева»), N.Cəfərov "Azərbaycan nitq mədəniyyəti", M.Abdullayeva "Qara Qarayevin kamera instrumental yaradıcılığında polifonik formalar", "Xəzər balladası" – 50. Fransada Azərbaycan baleti günləri", V.Babanlı "Əsərləri" (2 cild), Anar "Söz dünyası", Ü.Hacıbəyli "Azərbaycan xalq musiqisinin əsası", N.Dadaşova "Yeddi gözəl baleti – səhnə həyatının tarixi. Hadisələr və simalar" («Балет Семь красавиц – история сценической жизни. События и лица»), N.Şəmsizadə "İdrakın üfüqləri", "Qara Qarayevin

seçilmiş piano əsərləri" və s. kitablar işıq üzü görmüşdür. "Azərbaycan Kitabının Dünyaya Tanıdılması" (AKDT) layihəsi çərçivəsində, Türkiyədə fəaliyyət göstərən "Zengin Yayıncılık" nəşriyyatı ilə 2018-ci ildə bağlanmış müqavilədə nəzərdə tutulan 7 kitaba (Cəfər Cabbarlının "Hekayələr", Saday Budaqlının "Yolüstü söhbət", Məmməd Səid Ordubadinin "Qılınc və Qələm" (2 cild), Ənvər Məmmədxanlı "Babək", , İsi Məlikzadə "Quyu", Afaq Məsud "Azadlıq") əlavə olaraq, cari il ərzində 1 roman (Mövlud Süleymanlı "Dəyirman"), 1 elmi-ədəbi əsər (N.Cəfərov "Səməd Mənsurun poeziyası") və 20 uşaq ədəbiyyatının tərcüməsi və çapı başa çatdırılmışdır. Ümumilikdə isə layihə üzrə bu günə qədər 27 Azərbaycanlı müəllifin 38 kitabı Türkiyəli oxucuların diqqətinə təqdim edilmişdir. Türkiyənin 400 000 tirajla çap olunan "Sabah" qəzetinin Kitab əlavəsinin iyul nömrəsində "Azərbaycan Kitabının Dünyaya Tanıdılması" (AKDT) layihəsindən bəhs edən "Azərbaycan kitablarının Türkiyədə yüksəlişi" adlı məlumat dərc olunmuşdur.

## REGİONAL SİYASƏT SAHƏSİ

2018-ci il ərzində Mədəniyyət Nazirliyinin iş planına əsasən Regional siyasət şöbəsi tərəfindən aşağıdakı işlər görülmüşdür:

Cari il mart ayının 19-da Bakı şəhərində keçirilmiş Novruz bayramı şənliklərində Nazirliyin Regional mədəniyyət idarələrinə daxil olan şəhər və rayonlar "Şərq bazarı", milli mətbəx və tədbirin bədii hissələrində fəal iştirak etmişlər.

20-26 mart tarixində Milli Turizm Təbliğat Bürosunun təşkilatçılığı ilə Bakı şəhəri Fəvvarələr meydanında keçirilən Novruz karnavalında regionlarda fəaliyyət göstərən kollektivlərin, sənətkarların, incəsənət ustalarının iştirakı ilə konsert proqramları təqdim olunmuşdur. Bununla yanaşı regional idarələr tərəfindən bütün bölgələrdə Novruz bayramına həsr olunmuş silsilə tədbirlər keçirilmiş, bayram tədbirlərində kollektivlərin və sənət adamlarının qarşılıqlı mübadiləsi əsasında onların regional idarələrə daxil olan rayonlarda çıxışları təşkil olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin "Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 20 aprel tarixli 4 nömrəli Sərəncamı və "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanına əsasən struktur islahatları ilə əlaqədar regional mədəniyyət idarələrinin fəaliyyətinin tənzimlənməzi məqsədilə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq zəruri tədbirlər həyata keçirilmişdir.

Regional mədəniyyət idarələrinin və onların tabeliyində fəaliyyət göstərən mədəniyyət müəssisələrinin əsasnamələri hazırlanmış, Nazirliyin müvafiq Kollegiya qərarları ilə təsdiq edilmişdir.

Həyata keçirilən struktur islahatları regionlarda təşkil olunan tədbirlərin, göstərilən mədəni xidmətlərin keyfiyyətinə müsbət təsir göstərmiş, regionlararası mübadilə layihələrinin icrasına geniş təkan vermişdir.

Zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqının mədəni irsinin təbliği, regionların mədəni potensialının nümayiş etdirilməsi, bölgələrarası mübadilənin genişləndirilməsi məqsədi ilə 2018-ci ilin iyun-avqust ayları ərzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş "Bölgələrdən-bölgələrə" yaradıcılıq festivalı keçirilmişdir. Nazirliyin 15 regional mədəniyyət idarəsini əhatə edən şəhər və rayonlarda (Masallı, Lənkəran, Ağdam, Sabirabad, Naftalan, Oğuz, İsmayıllı, Salyan, Füzuli, Göyçay, Mingəçevir, Göygöl, Qusar, Sumqayıt, Tovuz) keçirilmiş festival çərçivəsində 50-yə yaxın folklor və rəqs kollektivi, 130-dan çox incəsənət ustası rəngarəng konsert proqramı ilə çıxış etmiş, xalq sənətkarlıq nümunələri, rəssamların əl işlərinin sərgi-yarmarkaları təşkil edilmişdir.

Festivalda iştirak edən hər bir regionun müxtəlif meyarlar üzrə (təşkilatçılıq, musiqi kollektivləri, sənətkarların iştirakı, repertuar, səhnə mədəniyyəti və s.) qiymətləndirilməsi aparılmışdır.

2018-ci il noyabr ayının 30-da Cəlilabad şəhərində keçirilən "Bölgələrdən-bölgələrə" festivalının yekun tədbirində festivalda fəal iştirak edən musiqi kollektivləri, incəsənət ustaları, sənətkarlar, yerli icra hakimiyyəti orqanlarının rəhbərləri Nazirlik tərəfindən fəxri Fərmanla təltif edilmişdir. Eyni zamanda Cəlilabad rayonundakı Heydər Əliyev Mərkəzində Mədəniyyət Nazirliyin regional idarələrinin fəaliyyətinə həsr olunmuş Respublika müşavirəsi keçirilmişdir.

Nazirliyin bütün regional idarələrin rəhbərləri, rayon üzrə nümayəndələr, bölgələrdə çalışan mədəniyyət işçilərinin iştirakı ilə keçirilmiş müşavirədə "Nazirliyin regional idarələrinin fəaliyyəti: nailiyyətlər, problemlər, vəzifələr" mövzusunda məruzə edilmiş, bir sıra idarə rəhbərlərinin, rayon üzrə nümayəndələrin çıxışları olmuşdur.

Müşavirədə son dövrdə müvafiq sahədə aparılan struktur islahatları, regionlararası mübadilə, qabaqcıl beynəlxalq təcrübənin tətbiqi, mədəniyyət müəssisələrinin optimallaşdırılması, müasir texnologiyalardan istifadə, müəssisələrin maddi-texniki bazasının gücləndirilməsi, bölgələrdəki kitabxana, muzey, klub müəssisələrin, Heydər Əliyev Mərkəzlərinin, Uşaq Musiqi və İncəsənət Məktəbləri, Rəsm Qalereyalarının fəaliyyəti, regionlarda sənətkarlığın, folklorun inkişafı, kadr siyasəti, ödənişli xidmətlərin təşkili və s. məsələlər ətraflı müzakirə edilmişdir.

Tədbirdə regional idarələrin fəaliyyətinin daha da təkmilləşdirilməsi, bölgələrdə əhaliyə keyfiyyətli mədəni xidmətin təşkili, istiqamətində konkret tapşırıq və tövsiyələr verilmişdir.

Regionlarda kino mövsümünün açılışı ilə bağlı silsilə tədbirlər və təqdimat mərasimləri keçirilmişdir. Regional İdarələrə daxil olan bütün rayonlar üzrə müəyyənləşdirilmiş məkanlarda milli filmlərin nümayişinin təşkili təmin edilmişdir.

Cari il ərzində regionlarda mədəniyyət müəssisələrinin şəbəkəsinin optimallaşdırılması istiqamətində tədbirlər davam etdirilmişdir. Fəaliyyəti günün tələblərinə cavab verməyən, zəruri bina şəraiti olmayan, zəif maddi-texniki bazaya malik 10 klub müəssisəsi və mədəniyyət evi, 11 kitabxana (cəmi 21 müəssisə) müvafiq qaydada ləğv edilmişdir.

İlkin olaraq Lənkəran şəhər, Ağcabədi, Laçın, Lerik, Şuşa, Balakən rayonları üzrə şagird və müəllimlərinin sayı az olan 5 məktəbin daha böyük məktəblərə qoşulması və 2 məktəbin birləşdirilməsi ilə bağlı aidiyyəti üzrə müraciət edilmişdir.

Nazirliyin əməkdaşları cari ilin 1-9 oktyabr tarixində Kürdəmir, Ağdaş, Gəncə, Şəmkir, Ağstafa, Şəki və İsmayıllı, 11-12 oktyabr tarixində Xaçmaz və Sumqayıt, 15-20 oktyabr tarixində Ağcabədi, Bərdə, Sabirabad, Biləsuvar, Masallı və Lənkəran şəhərlərinə ezam olunmuşlar. Ezamiyyə zamanı Regional idarələrin fəaliyyəti yerlərdə təhlil olunmuş, təhlil nəticəsində bir sıra nöqsan və çatışmazlıqlar aşkar edilmişdir.

Aparılmış təhlil idarələrin Əsasnaməsindən irəli gələn vəzifələrin icrasına kompleks şəkildə yanaşılmadığını, bölgələrdə mədəniyyət sahələrinin inkişafı, yaradıcı şəxslərin məlumat bazasının formalaşdırılması, müəssisələrin monitorinqi və onların fəaliyyətinin qiymətləndirilməsi, qeyri-hökumət təşkilatları, sahibkarlarla işin lazımi səviyyədə qurulmadığını göstərmişdir.

Regional idarələrin monitorinqi hər bir regionun və həmin regiona aid olan rayonların potensialını, problem və xüsusiyyətlərini nəzərə almaqla növbəti mərhələ üçün yeni fəaliyyət planlarının hazırlanması zərurətini göstərmişdir.

Regional idarələrin 2019-cu il üçün xüsusi fəaliyyət planının layihəsi Nazirlik üzrə müvafiq işçi qrupunun yaradılmasını, növbəti il üçün bölgələrdə aparılacaq mədəniyyət sahələrinin təhlili, idarə rəhbərləri və əməkdaşlara keçiriləcək təlim və əsas tədbirləri, icraya məsul qurumları və konkret icra müddətini özündə əks etdirir.

Mədəniyyəti idarəetmə sahəsində beynəlxalq təcrübə ilə tanış olmaq məqsədilə şöbənin əməkdaşları və regional idarələrin bir qrup rəhbəri cari il ərzində Litva və İtaliya Respublikasına səfər etmişl'r. Səfər zamanı nümayəndə heyəti həmin ölkələrin mədəniyyət müəssisələrinin qabaqcıl iş təcrübəsi – optimallaşdırma, ödənişli xidmətlərin göstərilməsi, müasir dövrdə klub və kitabxana şəbəkəsinin uğurlu fəaliyyətinin təşkili üsulları, mədəniyyət işçilərinin əməyinin stimullaşdırılması mexanizminin təkmilləşdirilməsi ilə yerində tanış olmuşlar.

Cari ilin fevral ayında Avropada – Litvanın Vilnus şəhərində İsmayıllı regional Mədəniyyət idarəsi tərəfindən Qəbələ rayonunun mədəni potensialının təqdimatı keçirilmişdir.

Avropa İttifaqı tərəfindən maliyyələşdirilən, Mədəniyyət Nazirliyinin İtaliyanın Mədəni İrs, Fəaliyyət və Turizm Nazirliyi ilə birgə icra etdiyi Tvinninq layihəsi çərçivəsində İsmayıllı Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən mədəniyyət ocaqlarının işinə yerində baxış keçirilmiş, mədəniyyətin idarə olunmasında Avropa təcrübəsindən istifadə məsələləri ətraflı müzakirə olunmuşdur. Tvinninq Layihəsi çərçivəsində İsmayıllı, Şəmkir və Lənkəran Regional Mədəniyyət idarələri üçün inteqrasiyalı idarəetmə planları, həmçinin Lahıcda Mədəniyyət Klubu üçün Pilot Layihəsi hazırlanaraq təqdim olunmuşdur.

Şöbənin əməkdaşları cari ilin 14-19 noyabr tarixində İtaliya Respublikasının Paestum şəhərində "XXI Arxeoloji turizm üzrə Aralıq dənizi yarmarkası"nda, 6-7 dekabr tarixində Avstriyanın Vyana şəhərində "Avropa Mədəni İrs İli-2018" adlı tədbirin bağlanış mərasimində iştirak etmişlər.

Mərkəzi İcra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların səyyar qəbulu cədvəlinə əsasən Azərbaycan Respublikasının mədəniyyət naziri tərəfindən 30 yanvar tarixində Abşeron, 23 fevral tarixində Göyçay, 15 mart tarixində Naftalan, 25 may tarixində Salyan, 22 iyun tarixində Qəbələ, 20 iyul tarixində Qazax, 31 avqust tarixində Zaqatala, 25 sentyabr tarixində Qusar, 17 oktyabr tarixində Mingəçevir, 30 noyabr tarixində Cəlilabad və 14 dekabr tarixində Hacıqabul şəhərlərində qəbulun keçirilməsi ilə bağlı müvafiq təşkilati işlər görülmüşdür.

Azərbaycan Respublikası Prezidentinin "2 fevral - Gənclər günü kimi qeyd olunması haqqında" Sərəncamına, habelə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramına əsasən 2018-ci il 2-6 fevral tarixində ənənəvi "Gəncliyin səsi" festivalı keçirilmişdir. Festivalın keçirilməsində məqsəd gənc istedadların üzə çıxarılması, onların yaradıcılıq axtarışlarının, bilik və bacarıqlarının, yaradıcılıq nailiyyətlərinin dəstəklənməsi, yeni simaların aşkar olunmasıdır. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birgə Bakı, Sumqayıt, Mingəçevir şəhərlərində, Şəmkir, Gədəbəy, Quba və Masallı rayonlarında bir sıra tədbirlər təşkil olunmuşdur. 2 fevral 2018-ci il tarixində Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında festivalın açılış mərasimi baş tutmuşdur. Festival çərçivəsində M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında gənc yazarlar Şəhanə Müşfiq, Fuad Cəfərli, Şəmkir rayon Mədəniyyət Mərkəzində gənc yazarlar Şəhriyar del Gerani və Ulucay Akif ilə görüşlər, Sumqayıt şəhər Heydər Əliyev Mərkəzində Prezident təqaüdçüsü olan gənc musiqiçilərin konserti və gənc rəssamların sərgisi, Gədəbəy Aşıq Məktəbində gənc aşıqların konserti keçirilmişdir. Quba və Masallı "ASAN Həyat" Komplekslərində gənclərin fotoəsərlərindən ibarət sərgilər təşkil edilmiş, gənc rejissorlarla görüş keçirilmiş, onların çəkdikləri qısametrajlı filmlər nümayiş etdirilmişdir. Masallıda Pərviz Həsənov və Ruslan Hüseynov "Ayaqqabı əməliyyatı", "Usta Yusifin kamançası" filmlərini, Qubada Ayşad Səfərəliyev və Amil Məmiyev "Qara bağ", "İnikas" filmlərini təqdim etmişlər. Mingəçevir Dövlət Dram Teatrında "ASAN Könüllüləri"nin təqdimatında "Kölgə" tamaşası nümayiş etdirilmişdir. 6 fevral 2018-ci il tarixində Azərbaycan Dövlət Musiqili Teatrında festivalın bağlanış mərasimi keçirilmiş və ASAN Könüllüləri"nin təqdimatında "Bankir adaxlı" tamaşasının premyerası olmuşdur.

İncəsənət sahəsində istedadlı uşaq və gənclərin üzə çıxarılması və onların gələcək yaradıcılıq inkişafı üçün tədbirlər görülməsi, habelə Prezident təqaüdçüləri olan gənc istedadların fəaliyyətinin diqqət mərkəzində saxlanılması məqsədilə Nazirliyin müvafiq əmri ilə Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin nəzdində “Gənc İstedadlar Mərkəzi” yaradılmışdır. Mərkəz tərəfindən respublikanın uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərində, incəsənət sahəsi üzrə müvafiq orta ixtisas və ali təhsil müəssisələrində, o cümlədən xarici ölkələrdə təhsil alan, respublika və beynəlxalq müsabiqələr laureatları olan, xüsusi istedadı ilə fərqlənən uşaq, yeniyetmə və gənclərin bir araya gətirilməsi, onlarla mütəmadi olaraq görüşlər keçirilməsi, Bakı şəhərində və bölgələrdə onların iştirakı ilə konsertlərin, sərgilərin təşkil olunması, beynəlxalq müsabiqə və festivallarda iştirak etmək üçün şagird və tələbələrin seçilməsi, ən istedadlı uşaq və gənclərin mükafatlara təqdim edilməsi, müəllimlərin yaradıcılıq fəaliyyətinin aktivləşdirilməsi və s. sahəsində iş aparılır.

Prezident təqaüdçüləri olan gənc istedadlı musiqiçilərin respublikada tanınması və gənc nəsildə bədii-estetik zövqün inkişaf etdirilməsi məqsədilə mütəmadi olaraq respublikanın bölgələrində onların konsertləri təşkil edilir. Növbəti belə tədbirlərdən biri 7 dekabr 2018-ci il tarixində Şamaxı şəhərində baş tutmuşdur. Şamaxı şəhər İncəsənət Təhsili Mərkəzində keçirilən konsertdə istedadlı gənc musiqiçilərin ifasında Azərbaycan və dünya bəstəkarlarının əsərlərindən, xalq mahnı və muğamlarımızdan ibarət musiqi nömrələri səslənmişdir. Konsertdə Şamaxı rayon İcra Hakimiyyətinin, İsmayıllı Regional Mədəniyyət İdarəsinin nümayəndələri, rayonun mədəniyyət və təhsil müəssisələrinin işçiləri, yeniyetmə və gənclər iştirak etmişlər.

İstedadlı gənclərin dəstəklənməsi və müvafiq sahələr üzrə yüksək ixtisaslı kadrların hazırlanması çərçivəsində görülən işlərin davamı olaraq gənc musiqiçilərin xarici ölkələrin tədris müəssisələrində təhsil almaları üçün Nazirlik tərəfindən maliyyə dəstəyi göstərilmişdir. Belə ki, Prezident təqaüdçüsü Elvin Hoca Qəniyevin (violin) İsveçrənin Kalaidos Tətbiqi Elmlər Universitetində, Prezident təqaüdçüsü Aytac Şıxəlizadənin (vokal) Vyana Musiqi və İncəsənət Universitetində, Prezident təqaüdçüsü Ağarəhim Quliyevin (fleyta) A.Cortot adına Paris Musiqi Məktəbində, gənc dirijor Fərhad Qarayusiflinin Almaniyanın R.Şuman adına Ali Musiqi Məktəbində təhsil almaları ilə bağlı Nazirlik tərəfindən maddi dəstək göstərilmişdir.

2-9 iyun 2018-ci il tarixində Rusiya Federasiyasının Samara vilayətində tanınmış dirijor və musiqiçı Yuri Başmetin yaradıcılıq dəstəyi ilə keçirilən MDB və Baltikyanı ölkələrin VIII Uşaq Musiqi Akademiyasında gənc pianoçu, Bakı şəhər G.Şaroyev adına 35 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi Şirin Əmiraslanova iştirak etmişdir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sistemində 211 uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzləri, o cümlədən Ağcabədi şəhər Ü. Hacıbəyli adına Qarabağ Muğam Mərkəzi, Şamaxı şəhər İncəsənət Təhsili Mərkəzi, Gədəbəy Aşıq Məktəbi, Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbi, 159 uşaq musiqi, 47 uşaq incəsənət və 2 uşaq rəssamlıq məktəbi fəaliyyət göstərir. 2018/2019-cu tədris ilində bu məktəblərdə 34 ixtisas üzrə 59093 şagird (58000 şagird dövlət hesabına, 1093 şagird ödənişli əsaslarla) təhsil alır. Ödənişli təhsil Bakı (510), Sumqayıt (290), Ağcabədi (81), Masallı (58), Şəki (1) Regional Mədəniyyət İdarələri üzrə, habelə Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbində (153) aparılır. Şagirdlərin təlim-tərbiyəsi ilə 15064 müəllim məşğul olur.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 mart tarixli Sərəncamı ilə Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin müəllimi Zenfira Nurullayeva “Azərbaycan Respublikasının əməkdar müəllimi”, Ağcabədi şəhər Uşaq İncəsənət Məktəbinin direktoru Sevda Malışova “Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi” fəxri adına layiq görülmüşlər.

Nazirliyin tabeliyində olan uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin strukturunun və idarə olunmasının, habelə normativ-hüquqi bazasının təkmilləşdirilməsi, onların maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi, məktəblər üzrə yeni dövlət standartlarının hazırlanması və bu standartlar əsasında, həmçinin beynəlxalq təcrübədən

istifadə olunmaqla müvafiq təhsil proqramlarının tərtib və tətbiq edilməsi, təlim-tərbiyə prosesində müasir üsul və metodlardan istifadə olunması, məktəblərdə çalışan müəllimlərin sosial statusunun artırılması, onların peşəkarlıq səviyyəsinin yüksəldilməsi, istedadlı uşaq və gənclərin yaradıcılıq inkişafının təmin edilməsi üçün zəruri şəraitin yaradılması istiqamətində işlərin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasında uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin inkişafı üzrə Xüsusi Fəaliyyət Proqramı (2016-2020-ci illər)" hazırlanmış, Nazirliyin Kollegiyasının 21 dekabr 2015-ci il tarixli 11/6 nömrəli qərarı ilə qəbul edilmiş və 1 fevral 2016-cı il tarixli 21 nömrəli əmri ilə icraya yönəldilmişdir.

Ölkədə orkestr alətləri üzrə yüksək peşəkar ifaçı və pedaqoji kadrların hazırlanması və mütəxəssis çatışmazlığının tədricən aradan qaldırılması məqsədilə uşaq musiqi və incəsənət məktəblərində simli, nəfəsli və zərb alətləri üzrə təhsilin canlandırılması və keyfiyyətinin yüksəldilməsi, müəllimlərin fəaliyyətinin stimullaşdırılması, ən çox tələbat olan musiqi alətlərinə şagird və valideynlərdə maraq yaradılması kimi vəzifələrin həlli üçün "Uşaq musiqi və incəsənət məktəblərində simli, nəfəsli və zərb alətləri üzrə tədrisin inkişaf etdirilməsinə dair Proqram (2016-2020-ci illər)" hazırlanmış və Nazirliyin 17 mart 2016-cı il tarixli 98 nömrəli əmri ilə təsdiq edilmişdir.

Hesabat dövrü ərzində hər iki Proqramın icrası ilə bağlı müəyyən tədbirlər həyata keçirilmişdir.

Uşaq musiqi və incəsənət məktəblərinin zəruri tədris vəsaitləri və not ədəbiyyatı ilə təmin olunması məqsədilə Nazirlik tərəfindən məktəblərin tədris portalı yaradılmışdır. Portalda Azərbaycan və dünya bəstəkarları, musiqi alətləri, respublikanın uşaq musiqi, incəsənət və rəssamlıq məktəbləri haqqında məlumatlar, tədris repertuarına daxil olan əsərlərin notları, metodiki vəsaitlər, tədris proqramları, ustad dərslərinə dair videomateriallar yerləşdirilmişdir. Hesabat dövründə portalın istifadəsinin aktuallaşdırılması, zəruri vəsaitlərlə daha da zənginləşdirilməsi sahəsində iş davam etdirilmiş, bu məqsədlə müvafiq işçi qrup yaradılmışdır.

Hesabat dövrü ərzində Nazirlik sistemindəki bədii təhsil müəssisələrinə əvəzsiz olaraq verilməsi məqsədilə çap edilmiş 13 adda dərslik və tədris vəsaitinin bölünərək müəssisələrə çatdırılması işi təşkil edilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi sistemindəki uşaq musiqi, incəsənət, rəssamlıq məktəb və mərkəzlərində təhsilin keyfiyyətinin yüksəldilməsi, kadrlara olan tələb-təklif prinsiplərinin gözlənilməsi, bilikli və bacarıqlı ixtisaslı kadrların bərabərhüquqlu, şəffaf və sağlam rəqabət şəraitində seçilib yerləşdirilməsi məqsədi ilə 2015/2016-cı tədris ilindən etibarən məktəblərə müəllimlərin işə qəbulu vakant yerlər əsasında müsabiqə yolu ilə aparılır. Bununla əlaqədar 2018/2019-cu tədris ili üçün pedaqoji kadrların işə qəbulu üzrə V müsabiqə elan edilmiş, 2018-ci il 15-28 avqust tarixlərində müsabiqənin I mərhələsi (elektron ərizələrin qəbulu və qiymətləndirilməsi), 28 avqust-10 sentyabr tarixlərində isə II mərhələsi (müsahibə) keçirilmişdir.

Müsabiqəyə çıxarılmış 230 vakant yerə 526 elektron ərizə daxil olmuş, müsabiqənin qaydalarına uyğun olan 517 ərizə ikinci mərhələyə (müsahibə mərhələsinə) buraxılmışdır. Müsabiqənin müsahibə mərhələsində iştirak edən 450 nəfərdən 107 nəfəri məktəb və mərkəzlərdə işləmək hüququ qazanmışdır.

Uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərində təhsilin keyfiyyətinin yüksəldilməsi, müəllimlərin peşəkarlığının artırılması məqsədilə Nazirlik tərəfindən mütəmadi olaraq müxtəlif ixtisaslar üzrə təcrübəli müəllimlərin ustad dərsləri təşkil edilir, bu məqsədlə xarici ölkələrdən mütəxəssislər də dəvət olunur.

12 aprel 2018-ci il tarixində Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbində Türkiyənin Anadolu Universitetinin dosenti, violin ifaçısı H.Bülent Akdenizin solo konserti və ustad dərsləri keçirilmişdir. 16-20 aprel 2018-ci il tarixində tanınmış pianoçu, Azərbaycan Respublikasının Əməkdar artisti, Fransa Ali Beynəlxalq Musiqi Akademiyasının direktoru, professor Adilə Əliyeva tərəfindən Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbində, Bakı şəhər L. və M.

Rostropoviçlər adına 21 nömrəli və G.Şaroyev adına 35 nömrəli onbirillik musiqi məktəblərində uşaq musiqi və incəsənət məktəblərinin müəllim və şagirdləri üçün ustad dərsləri təşkil edilmişdir.

Cari ilin 21-30 noyabr tarixlərində Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda fəaliyyət göstərən Ağdam, Cəbrayıl, Füzuli, Xocalı, Xocavənd, Kəlbəcər, Qubadlı, Laçın, Şuşa, Zəngilan rayon uşaq musiqi və incəsənət məktəblərinin müəllim və şagirdləri üçün Bakıda və Abşeron rayonunun Xırdalan şəhərində fortepiano, violin, tar, kamança, saz, qarmon, musiqi nəzəriyyəsi, xor dirijorluğu, xanəndəlik, rəssamlıq ixtisasları üzrə ustad dərsləri təşkil edilmişdir. Ustad dərslərini Q.Qarayev adına Mərkəzi İncəsənət, Bakı şəhər R.Behbudov adına 2 nömrəli, Niyazi adına 22 nömrəli, L. və M. Rostropoviçlər adına 21 nömrəli, G.Şaroyev adına 35 nömrəli, Abşeron rayon Xırdalan şəhər onbirillik musiqi məktəblərinin təcrübəli müəllimləri aparmışlar.

Uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin 2017/2018-ci tədris ilinin məzunları üçün şəhadətnamələr sifariş olunaraq çap edilmiş və regional mədəniyyət idarələrinə verilmişdir. 2018/2019-cu tədris ilinə regional idarələr üzrə məktəblərə 9768 şagird qəbulu planı müəyyənləşdirilmişdir.

Uşaq musiqi və incəsənət məktəblərində fortepiano alətinin təmiri, köklənməsi və nizamlanması üzrə mütəxəssislərə böyük ehtiyac olduğunu nəzərə alaraq, nazirlik tərəfindən Bakı şəhərində müvafiq təlim kursları təşkil edilir. 2018-cı ilin fevral və aprel aylarında keçirilmiş təlim kurslarında Bakı, Sumqayıt, Naftalan şəhər, Ağdam, Ağdaş, Xocalı, Laçın, Neftçala, Ucar, Zərdab rayon uşaq musiqi və incəsənət məktəblərindən 13 müəllim iştirak etmişdir. 2018-cı il 3 oktyabr tarixində Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında "Yamaha" şirkətinin mütəxəssisləri tərəfindən texniki seminar keçirilmiş, seminarda Bakı və regionların uşaq musiqi və incəsənət məktəblərindən 50-dən çox müəllim və kökləyici iştirak etmişdir.

Təhsil müəssisələrində təlim-tərbiyə işinin təşkili vəziyyətinin öyrənilməsi, təhlil edilməsi və müvafiq tədbirlərin görülməsi məqsədilə regionlar üzrə məktəb və mərkəzlərin monitorinqləri aparılır. Bununla əlaqədar 2018-ci ilin dekabr ayında Lənkəran, Naftalan şəhər, Astara, Lerik, Ağdaş, Zərdab, Samux rayonlarının bəzi məktəblərində monitorinqlər keçirilmişdir.

Uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərində tədrisin səviyyəsinin yüksəldilməsi, gənc istedadların üzə çıxarılması, onların peşəkar inkişafının istiqamətləndirilməsi, müəllimlərin yaradıcılıq fəaliyyətinin aktivləşdirilməsi məqsədilə Mədəniyyət Nazirliyi mütəmadi olaraq baxışlar, festivallar, müsabiqələr, sərgilər təşkil edir. Hesabat dövründə respublika miqyaslı 2 müsabiqə keçirilmişdir.

Ölkədə kamança ifaçılığının təbliği və kamança ixtisası üzrə musiqi təhsilinin inkişaf etdirilməsi, istedadlı uşaq və gənclərin aşkara çıxarılması, onların dəstəklənməsi, habelə milli musiqi mədəniyyətimizin görkəmli nümayəndəsi, məşhur kamança ifaçısı Habil Əliyevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə Habil Əliyev adına gənc kamança ifaçılarının II respublika müsabiqəsi keçirilmişdir. Kamança hazırlanması və ifaçılıq sənətinin YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ siyahısına daxil edilməsinə həsr olunmuş müsabiqədə 3 yaş qrupu üzrə respublikada fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəblərindən, musiqi və humanitar kolleclərdən, İncəsənət Gimnaziyasından, Bülbül adına orta ixtisas musiqi məktəbindən 100-ə yaxın şagird və tələbə iştirak etmişdir. Müsabiqənin I turu regional mədəniyyət idarələri üzrə yerlərdə, II turu Bakı şəhərində keçirilmişdir. Münsiflər heyətinin qərarına əsasən Bakı, Gəncə, Lənkəran, Şəki, Şirvan şəhər, Abşeron, Ağcabədi, Ağdaş, Ağstafa, Balakən, Bərdə, Biləsuvar, Cəbrayıl, Cəlilabad, Füzuli, Goranboy, Kürdəmir, Qazax, Samux, Şəmkir, Şamaxı, Tovuz, Yevlax rayon uşaq musiqi və incəsənət məktəblərinin şagirdləri müsabiqənin müxtəlif dərəcəli diplomlarına, hədiyyələrə və fəxri fərmanlara layiq görülmüş, onların müəllim və konsertmeysterləri fəxri fərmanlarla təltif olunmuşlar. Müsabiqənin yekun konserti və qaliblərin təltifolunma mərasimi 17 may 2018-ci il tarixində Beynəlxalq Muğam Mərkəzində keçirilmişdir.

“Uşaq musiqi və incəsənət məktəblərində simli, nəfəsli və zərb alətləri üzrə tədrisin inkişaf etdirilməsinə dair Proqram (2016-2020-ci illər)”ın müvafiq bəndinin icrası ilə bağlı, habelə görkəmli Azərbaycan bəstəkarı, akademik Qara Qarayevin yubiley ili ilə əlaqədar 2018-ci ilin aprel-may aylarında Q.Qarayevin 100 illiyinə həsr olunmuş simli, nəfəsli və zərb alətləri üzrə gənc ifaçıların respublika müsabiqəsi keçirilmişdir. Müsabiqədə üç yaş qrupunda simli alətlər (violin, viola, violonçel), nəfəsli alətlər (fleyta, klarnet, valtorna, truba) və zərb alətləri (ksilofon, vibrofon) üzrə respublikanın uşaq musiqi və incəsənət məktəblərindən, Azərbaycan Milli Konservatoriyası tərkibində İncəsənət Gimnaziyasından 120-ə yaxın şagird iştirak etmişdir. Müsabiqənin I turu regional mədəniyyət idarələri üzrə yerlərdə, II turu Bakı şəhərində keçirilmişdir. Münsiflər heyətinin qərarına əsasən Bakı, Gəncə, Sumqayıt, Şəki, Şirvan şəhər, Bərdə, Quba, Qusar, Şamaxı rayon uşaq musiqi və incəsənət məktəblərinin şagirdləri müsabiqənin diplom, fəxri fərman və hədiyyələrə layiq görülmüş, müəllimlər və konsertmeysterlər fəxri fərmanlarla təltif olunmuşlar. Müsabiqənin yekun konserti və qaliblərin təltifolunma mərasimi 30 may 2018-ci il tarixində Azərbaycan Dövlət Akademik Filarmoniyasında keçirilmişdir.

2018-ci ilin aprel-may aylarında uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin ənənəvi hesabat tədbirləri keçirilmişdir. Bakı şəhər uşaq musiqi və incəsənət məktəblərinin şagirdləri M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında, Beynəlxalq Muğam Mərkəzində, R.Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında simfonik və kamera orkestrlərinin müşayiəti ilə konsertlərdə çıxış etmiş, incəsənət məktəbləri şagirdlərinin rəsm əsərlərindən və əl işlərindən ibarət sərgilər təşkil edilmişdir.

Milli mədəniyyətimizin tanıdılması, habelə istedadlı gənclərin yaradıcılıq bacarıqlarının inkişafı məqsədilə ölkəmizin müxtəlif beynəlxalq tədbirlərdə təmsil olunmasının əhəmiyyətini nəzərə alaraq, hesabat dövrü ərzində uşaq və gənclərin xarici ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə iştirakı üçün Nazirlik tərəfindən maliyyə və təşkilati dəstək göstərilmişdir. Bakı şəhər G.Şaroyev adına 35 nömrəli Onbirillik Musiqi Məktəbinin fortepiano ixtisası üzrə X sinif şagirdi Jalə İslamova 3-8 yanvar 2018-ci il tarixində Rusiyanın Sankt-Peterburq şəhərində keçirilmiş Mariya Yudina adına gənc pianoçular, fortepiano duetləri və kamera ansambllarının XIX Beynəlxalq müsabiqəsində uğurla iştirak etmiş, III dərəcəli Diploma layiq görülmüşdür.

Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin, Bakı şəhər L. və M.Rostropoviçlər adına 21 və 24 nömrəli onbirillik uşaq musiqi məktəblərinin şagirdləri 1-5 aprel 2018-ci il tarixində Gürcüstanın Tbilisi şəhərində keçirilən Y.Mikeladze adına Orkestr alətləri üzrə gənc musiqiçilərin III beynəlxalq müsabiqəsində uğurla iştirak etmiş, 2 şagird Qran Pri, 4 şagird I dərəcəli, 1 şagird II dərəcəli, 1 şagird III dərəcəli Diplomlara layiq görülmüşdür.

Abşeron rayon Xırdalan şəhər Onbirillik Musiqi Məktəbinin müəllim və şagirdləri 2018-ci il 19-23 fevral tarixində Qara Qarayevin anadan olmasının 100 illiyi, 14-16 may tarixində Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibəti ilə Türkiyənin İstanbul şəhərində keçirilən tədbirlərdə iştirak etmişlər. Həmin məktəbin kollektivi cari ilin 23-26 may tarixində Gürcüstandakı M.F.Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyi tərəfindən Tbilisi və Marneuli şəhərlərində keçirilən Azərbaycan Xalq Cümhuriyyətinin və Gürcüstan Respublikasının yaranmasının 100 illik yubileylərinə, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə, 3-5 dekabr tarixlərində Q.Qarayevin 100 illik yubileyinə həsr olunmuş tədbirlərdə iştirak etmişdir.

Bakı şəhər G.Şaroyev adına 35 nömrəli Onbirillik Musiqi Məktəbinin fortepiano ixtisası üzrə şagirdi Ləman Seyidova 2018-ci il 8-13 iyun tarixində İtaliyanın Milan şəhərində “Piano talents” və Padua şəhərində “Premio Citta” adlı beynəlxalq müsabiqələrdə I dərəcəli Diplomlara, 22-27 oktyabr tarixlərində Rusiyanın Lipetsk şəhərində keçirilmiş Gənc pianoçuların K.İqumnov adına XI beynəlxalq müsabiqə-festivalında II dərəcəli Diploma layiq görülmüşdür.

Məktəblərin və uzun illər musiqi təhsili sahəsində səmərəli fəaliyyət göstərmiş işçilərin yubiley tarixləri Nazirlik tərəfindən qeyd olunur. 2018-ci ildə Lənkəran şəhər C.Cabbarlı adına 1 nömrəli Uşaq Musiqi Məktəbinin yaradılmasının 60 illik yubileyi ilə əlaqədar məktəbin direktoru və 16 nəfər müəllimi Nazirliyin Fəxri Fərmanı ilə təltif edilmişdir. Şəki şəhər Uşaq İncəsənət Məktəbinin 80 illik yubileyi ilə bağlı məktəb Fəxri Fərman ilə təltif olunmuş, qabaqcıl və təcrübəli müəllimlərə təşəkkür elan edilmiş və pul mükafatı verilmişdir.

Sabirabad şəhər Üzeyir Hacıbəyli adına Uşaq Musiqi Məktəbinin sabiq direktoru, hazırda məktəbdə müəllim işləyən Əfiqə Süleymanova anadan olmasının 70, həmin məktəbdə əmək fəaliyyətinin 50 illiyi, Samux rayon Sərkar kənd Uşaq Musiqi Məktəbinin direktoru Səadət Məmmədbəyova 60 illik yubileyi ilə əlaqədar Nazirliyin Fəxri Fərmanı ilə təltif edilmiş və onlara pul mükafatı verilmişdir. 37 il Lənkəran şəhərində musiqi təhsili sahəsində çalışmış İbrahim Nəsirli "Fəxri Mədəniyyət İşçisi" döş nişanı ilə təltif olunmuşdur.

## BEYNƏLXALQ ƏMƏKDAŞLIQ VƏ İNNOVATİV İNKİŞAF SAHƏSİ

2018-ci il ərzində Mədəniyyət Nazirliyinin beynəlxalq əməkdaşlıq və innovativ inkişaf sahəsində fəaliyyəti aşağıdakı istiqamətlərdə həyata keçirilmişdir:

- ***İkitərəfli əməkdaşlığın inkişafı və dərinləşdirilməsi istiqamətində fəaliyyətin təmin edilməsi***

*Mədəniyyət sahəsində müqavilə-hüquq bazasının genişləndirilməsi:*

2018-ci il 28-29 mart tarixində İran İslam Respublikasının Prezidenti cənab Həsən Ruhaninin Bakıya səfəri çərçivəsində "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə İran İslam Respublikasının Mədəniyyət və İslami İrşad Nazirliyi arasında 2018 – 2021-ci illər üçün Mədəni Mübadilə Proqramı", Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Xorvatiyaya rəsmi səfəri çərçivəsində 6 sentyabr 2018-ci il tarixində "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Xorvatiya Respublikasının Mədəniyyət Nazirliyi arasında 2019-2021-ci illər üçün mədəni əməkdaşlıq Proqramı", Hindistanın Nyu Dehli şəhərində Azərbaycan Respublikası və Hindistan Respublikası arasında ticarət, iqtisadi, elmi və texnoloji əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 5-ci iclası çərçivəsində 11 oktyabr 2018-ci il tarixində "Azərbaycan Respublikası Hökuməti ilə Hindistan Respublikası Hökuməti arasında 2019-2023-ci illər üzrə Mədəni Mübadilə Proqramı", "Azərbaycan Respublikasının 2020-ci ildə Sankt-Peterburq Beynəlxalq Forumunda "fəxri qonaq ölkə" statusunda təmsil olunması haqqında Birgə Bəyanat" imzalanmışdır. Qeyd olunan sənədlər mədəniyyət sahəsində gələcək əməkdaşlıq istiqamətlərini müəyyən etməklə, adıçəkilən ölkələrlə mədəni mübadilənin intensivləşdirilməsinə səbəb olacaqdır. Bununla yanaşı, "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə İordaniya Haşimilər Krallığının Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Peru Respublikasının Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Bosniya və Herseqovinanın Mülki İşlər Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Çin Xalq Respublikasının Mədəniyyət Nazirliyi arasında 2018-2022-ci illər üzrə mədəni əməkdaşlıq haqqında Protokol", "Azərbaycan Respublikasının Hökuməti ilə Əlcəzair Xalq Demokratik Respublikasının Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Protokol", "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Misir Ərəb Respublikasının Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" layihələri imzalanmağa hazır vəziyyətə gətirilmişdir. Bu müqavilələrin bağlanması gələcək dövrdə kitərəfli sahədə birgə layihələrin həyata keçirilməsinə hüquqi zəmin yaradacaqdır.

*Hökumətlərarası Komissiyaların iclaslarında iştirak, iclasların yekun protokollarının mədəniyyət bölmələrinin işlənib hazırlanması:*

Cari il ərzində İran, Misir, İordaniya, Mərakeş, Hindistan, Vyetnam, Rumıniya, Serbiya, Türkmənistan, Qırğızıstan, Qazaxıstan, Xorvatiya, Litva, İsrail, Rusiya, Moskva, Sankt-Peterburq ilə Hökumətlərarası Komissiyaların iclaslarında iştirak təmin olunmuş, iclas protokollarının mədəniyyət sahəsinə dair hesabat və qərar bölmələrinə Nazirlik tərəfindən aparılan işlər barədə məlumatlar və təkliflər təqdim edilmişdir.

*Xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzləri ilə iş:*

Avstriya, Fransa və Özbəkistanda Azərbaycan səfirliklərinin nəzdindəki mədəniyyət mərkəzləri tərəfindən aparılmış fəaliyyət nəticəsində musiqi, teatr, rəssamlıq, ədəbiyyat, kino və mədəniyyətimizin digər sahələri uğurla təbliğ olunmuşdur. 2018-ci ildə həmin ölkələrdə keçirilmiş çoxsaylı tədbirlər ölkə mədəniyyətinin daha çox tanıdılması və milli diasporumuzla əlaqələrin inkişafına müsbət təsir göstərmişdir. Hazırda Almaniya və Türkiyədə Azərbaycan mədəniyyət mərkəzlərinin açılması istiqamətində sənədləşmə işləri aparılır. Azərbaycanın tarixi, mədəniyyəti, dövlətçiliyi, adət və ənənələri, mədəni turizm potensialı, görkəmli şəxsiyyətlərinin layiqincə təbliği işində qeyd olunan mərkəzlərin açılması vacib rol oynayacaqdır.

*Müxtəlif beynəlxalq əhəmiyyətli tədbirlər və ikitərəfli səfərlər:*

20-22 yanvar 2018-ci il tarixində nazir Əbülfəs Qarayevin rəhbərliyi ilə nümayəndə heyəti İsveçrənin Davos şəhərində keçirilən Mədəniyyət Nazirlərinin konfransında iştirak etmişdir. “Yüksək səviyyəli Baukultura doğru” mövzusunda keçirilən konfrans şəhərsalma mədəniyyətinə vahid və kompleks yanaşma mövzusunu əhatə etmişdir. Tədbirdə çıxış edən nazir Əbülfəs Qarayev Azərbaycanda mədəniyyət və irs sahəsində həyata keçirilən islahatlar, habelə Prezident cənab İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən “Bakı Prosesi” və mədəniyyət sahəsində beynəlxalq layihələr barədə iştirakçılara məlumat vermişdir. Konfransın sonunda Davos Bəyannaməsi qəbul olunmuşdur.

Mədəniyyət naziri Əbülfəs Qarayevin rəhbərliyi ilə nümayəndə heyəti 15-17 noyabr 2018-ci il tarixində keçirilən VII Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumunda iştirak etmişdir. Səfər çərçivəsində Azərbaycanın 2020-ci ildə VII Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumunda fəxri “qonaq ölkə” statusunda təmsil olunması haqqında Birgə Bəyanat imzalanmışdır. Fəxri “qonaq ölkə” statusu forum müddətində müxtəlif tədbirlər keçirməklə Azərbaycan mədəniyyətinin təbliği üçün geniş imkanlar yaradacaqdır.

İl ərzində Azərbaycan Respublikasında İran İslam Respublikasının Kino Günləri (23-27 fevral 2018), İranın Mədəniyyət Günləri (26 iyun - 1 iyul 2018), İndoneziya Mədəniyyət Festivalı (11-16 sentyabr 2018) keçirilmişdir. Sözügedən tədbirlərdə iştirak məqsədilə ölkəmizə səfər etmiş yüksək səviyyəli nümayəndə heyətləri ilə ölkəmizin müxtəlif qurumları arasında təşkil edilmiş ikitərəfli görüşlər zamanı gələcək əməkdaşlıq perspektivləri, birgə layihələrin həyata keçirilməsi mövzusunda müzakirələr aparılmışdır. Bununla yanaşı, cari ildə Azərbaycanın görkəmli şəxsiyyətlərinin yubileylərinə həsr olunmuş tədbirlərdə və digər beynəlxalq əhəmiyyətli mərasimlərdə iştirak təmin olunmuş, qarşılıqlı səfərlər təşkil edilmişdir. Rusiyanın Moskva şəhərində Azərbaycanın görkəmli bəstəkarı Qara Qarayevin 100 illiyi münasibətilə (20-23 sentyabr 2018) tədbirlərdə, Kiyev şəhərində görkəmli Azərbaycan müğənnisi Müslüm Maqomayev adına parkın təntənəli açılış mərasimində (18 iyul 2018) iştirak məqsədilə Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayevin səfərləri təşkil edilmiş, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəvətinə əsasən Tailand Krallığının mədəniyyət naziri Vira Rojpojçanaratın rəhbərlik etdiyi nümayəndə heyəti (29-30 sentyabr 2018) Azərbaycanda səfərdə olmuşdur. Qətər Milli Kitabxanasının yeni binasının açılış

mərasimində iştirak etmək məqsədilə nazirin birinci müavini Vaqif Əliyev (15-18 aprel 2018) Qətər Dövlətində səfərdə olmuşdur.

- **Beynəlxalq təşkilatlarla əməkdaşlıq və yeni platformaların müəyyən edilməsi**

*YUNESKO üzrə:*

Digər sahələrdə beynəlxalq fəaliyyətlərlə yanaşı Nazirlik hökumətlərarası və beynəlxalq qurumlarla əməkdaşlıq kontekstində bir sıra vacib uğurlar əldə etmişdir.

Mədəniyyət sahəsində qlobal təşkilat olan YUNESKO ilə bağlı vurğulamaq lazımdır ki, bu il Azərbaycan YUNESKO-nun Qeyri-maddi mədəni irsin mühafizəsi üzrə Hökumətlərarası Komitəsinə II qrup üzrə 7 namizəd ölkə arasından 90 səs toplayaraq birinciliklə yenidən üzv seçildi. Bu isə o deməkdir ki, növbəti dörd il ərazində Qeyri-maddi mədəni irs üzrə YUNESKO siyahılarının formalaşmasında və bununla bağlı qərarların qəbulunda Azərbaycan bilavasitə iştirak edəcəkdir. Sözügedən Komitə çərçivəsində daha bir mühüm nailiyyət 26 noyabr – 1 dekabr tarixlərində Mavriki Respublikasının paytaxtı Port Luis şəhərində keçirilən sessiyada iki mədəni irs elementimizin YUNESKO siyahılarına daxil edilməsi oldu. Belə ki, "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" YUNESKO-nun Təcili Qorunmaya Ehtiyacı olan Qeyri-maddi Mədəni İrs Siyahısına daxil edildi. Namizədlik sənədinin məhz Naxçıvan adı ilə təqdim edilməsində əsas məqsəd ölkəmizin qədim və tarixi regionu olan Naxçıvanda yaşayan əhalinin ənənəvi mədəniyyətinə və xalq yaradıcılığına dünya miqyasında işıq salmaq və tanıtmaq, bu ənənələri YUNESKO səviyyəsində qorumaq, eyni zamanda Ermənistan tərəfindən blokadaya alınmış Naxçıvan əhalisinin öz mədəni dəyərlərini qorumaq üçün necə mübarizə apardığını nümayiş etdirmək olmuşdur. İkinci element YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilən Azərbaycanın Türkiyə və Qazaxıstanla birgə təqdim etdiyi "Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" adlı çoxmillətli fayl idi. "Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" adlı çoxmillətli mədəniyyət nümunəsi Azərbaycanda, Türkiyədə və Qazaxıstanda birlik, bərabərlik və müxtəlifliyi, həmçinin xalqlarımızın ailə dəyərlərini, qadının cəmiyyətdə rolu, qonaqpərvərlik və ədalət prinsiplərini təbliğ etdiyini ifadə edir.

Bununla yanaşı, 2013-cü ildə YUNESKO-nun Təcili Qorunmaya Ehtiyacı olan Qeyri-maddi Mədəni İrs Siyahısına daxil edilmiş Azərbaycanın "Çövkən - ənənəvi Qarabağ atüstü oyun ənənələri"nə dair 5 illik hesabat qəbul edilmişdir. Hesabatda Çövkən atüstü oyun ənənələrinin inkişafı ilə bağlı ölkəmizdə həyata keçirilmiş tədbirlər, həmçinin Ermənistanın Azərbaycanın Qarabağ regionunu işğalı nəticəsində bu oyun ənənələrinin həyata keçirilməsinin mümkünsüzlüyü əksini tapmış, Qarabağdan zorla qovulmuş Azərbaycan əhalisinin müharibənin və təcavüzün acı nəticələrinə baxmayaraq Çövkən oyununu yaşatmağa çalışdığı və bu istiqamətdə dövlətin icmaları dəstəklədiyi göstərilmişdir.

Sessiya zamanı Ermənistanın Azərbaycanın nominasiyalarına qarşı təxribat xarakterli cəhdlərinin qarşısı alınmış, Azərbaycan Respublikasının aidiyyəti dövlət orqanları tərəfindən sessiyadan öncə müvafiq iş aparılmış və ölkəmizin nümayəndə heyəti tərəfindən Ermənistan tərəfinə layiqli cavab verilmişdir.

YUNESKO-nun digər Komitəsinin üzvü olaraq isə uğurumuz ondan ibarət oldu ki, 24 iyun - 4 iyul tarixində Bəhreyn Krallığının Manama şəhərində keçirilən 42-ci sessiyası zamanı Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının 2019-cu ildə ölkəmizdə keçirilməsi barədə qərar qəbul edildi və Azərbaycan Respublikasının mədəniyyət naziri Komitənin sədri seçildi., Azərbaycan 2015-ci ildən etibarən 3 il müddətində İSESKO Baş Konfransının sədri qismində İslam dünyasının təhsil, elm və mədəniyyət sferasında baş verən proseslərə rəhbərlik etmişdir. 2018-ci ildə İSESKO-da ölkəmizin sədrliyi yekunlaşdı və daha geniş miqyaslı olan Dünya İrs Komitəsində sədrlik başladı. Bununla da, qərar qəbul olunduğu vaxtdan növbəti bir il ərzində YUNESKO çərçivəsində mədəni irslə bağlı bütün proseslər Azərbaycanın rəhbərliyi ilə həyata keçirilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında" 9 avqust 2018-ci il tarixli 392 nömrəli Sərəncam imzalamışdır. Öz növbəsində Nazirlikdə Beynəlxalq əməkdaşlıq və innovativ inkişaf şöbəsinin rəhbərliyi ilə əməliyyat komitəsi formalaşdırılıb. Cari ilin 14 sentyabr tarixində Təşkilat Komitəsinin ilk iclası keçirilmişdir. İclasda tədbirlə bağlı hazırlıq işləri və təşkilati məsələlərin həlli müzakirə olunmuş, vəzifə bölgüsü aparılmışdır.

YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının 2019-cu ildə Bakı şəhərində təşkili ilə əlaqədar YUNESKO Katibliyi tərəfindən "Azərbaycan Respublikası Hökuməti və YUNESKO arasında Büronun 43-cü sessiyası və Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası ilə bağlı Saziş" və onun əlavəsi olan "Tələblər barədə Bəyanat" layihəsi hazırlanmış və Mədəniyyət Nazirliyinə təqdim olunmuşdur. Sözügedən Saziş və "Tələblər barədə Bəyanat" layihələri dövlətdaxili prosedurdan keçirilməsi məqsədilə Nazirlər Kabinetinə təqdim olunmuş və aidiyyəti qurumların təklifləri əsasında düzəlişlər edilmiş Saziş layihəsi YUNESKO Katibliyinə göndərilmişdir. 6-9 noyabr tarixində YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının 2019-cu ildə ölkəmizdə keçirilməsi ilə əlaqədar YUNESKO Katibliyinin 1-ci texniki missiyasının ölkəmizə səfəri təşkil olunmuş və YUNESKO Katibliyinin nümayəndələri tərəfindən tədbirin keçiriləcəyi məkana baxış keçirilmişdir. Səfər çərçivəsində YUNESKO Katibliyi ilə tədbirin Təşkilat Komitəsinin üzv qurumlarının nümayəndələri arasında görüşlər keçirilmiş, tədbirə hazırlıq, qonaqların yerləşdirilməsi, tədbirin internet vasitəsilə canlı yayımının təşkili, tədbir məkanının avadanlıqlarla təchiz edilməsi və tədbir iştirakçılarının təhlükəsizliyinin təmin olunması kimi məsələlər müzakirə olunmuşdur.

YUNESKO-nun "Əlamətdar hadisələrin və görkəmli şəxsiyyətlərin yubileyləri" Proqramı çərçivəsində mayın 14-də təşkilatın Parisdəki Baş qərargahında dahi bəstəkar Qara Qarayevin 100 illik yubileyi yüksək səviyyədə qeyd olunmuşdur. 2020-ci ildə Bakı Dövlət Universitetinin təsis edilməsinin 100 illik yubileyi YUNESKO miqyasında qeyd olunacaqdır. Hal-hazırda növbəti iki illik dövr 2020-2021-ci illər üçün Yubileylər Proqramına namizədlik faylları üzərində iş aparılır.

11-14 dekabr tarixlərində YUNESKO-nun Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi üzrə Hökumətlərarası Komitəsinin 12-ci sessiyası keçirilmişdir. Sessiyada Nazir müavini Sevda Məmmədəliyevanın rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmişdir. "Createl 2030" adı altında keçirilmiş sessiya çərçivəsində yaradıcılığın BMT-nin Davamlı İnkişaf Məqsədlərinə təsiri, o cümlədən süni intellektin yaradıcılıqda rolu, bədii azadlığa təhdidlər, gənc qadın sahibkarların mədəniyyət sənayelərinə töhfələri və digər əlaqədar mövzularla bağlı fikir mübadiləsi aparılıb. Sessiyada həmçinin Azərbaycanın adıçəkilən Konvensiya çərçivəsində son 5 illik fəaliyyətinə dair AR Mədəniyyət Nazirliyi tərəfindən hazırlanmış hesabata baxılıb. Hesabat, bütün kriteriyalara uyğunluğu, eləcə də məlumat baxımdan dolğun və peşəkar hazırlandığı nəzərə alınaraq, Hökumətlərarası Komitə tərəfindən təsdiqlənib. Qeyd etmək lazımdır ki, hesabatda ölkədə mədəniyyət və yaradıcılıq sahəsində son illərdə görülən işlər, qəbul olunan sənədlər və təbliğat fəaliyyəti barədə məlumat öz əksini tapmışdır. Bundan əlavə, hesabatda Ermənistan tərəfindən Azərbaycanın Qarabağ regionunun işğalı nəticəsində bu regionda yaşamış əhalinin öz ənənələrinin və mədəni özünüifadəsinin həyata keçirilməsinin mümkünsüzlüyü göstərilmiş, Qarabağdan zorla qovulmuş Azərbaycan əhalisinin müharibənin və təcavüzün acı nəticələrinə baxmayaraq, öz yaradıcılığını və mədəniyyətini yaşatmağa çalışdığı və bu istiqamətdə dövlətin icmaları dəstəklədiyi göstərilmişdir.

3-5 dekabr tarixində İstanbul şəhərində YUNESKO və Birləşmiş Millətlərin Ümumdünya Turizm Təşkilatının (BMÜTT) birgə təşkilatçılığı ilə "3-cü Ümumdünya Turizm və Mədəniyyət Konfransı" adlı tədbir keçirilmişdir. Tədbirdə mədəniyyət nazirinin müavini Rafiq Bayramovun rəhbərliyi ilə nümayəndə heyəti iştirak etmişdir. Konfransın məqsədi BMT-nin Davamlı İnkişaf Məqsədlərinin implementasiyasına töhfə vermək məqsədilə mədəniyyət və turizm sahələri arasında inklüziv əlaqələrin qurulması və mədəni mübadiləni aktivləşdirmək üçün turizmin inkişafını təşviq etmək idi. Konfransın əsas seqmenti Nazirlər Toplantısı idi. BBC telekanalının

aparıcısı Rajan Datarın moderatorluğu ilə keçirilən toplantı mədəniyyət və turizm sahəsindəki maraqlı tərəflər arasında əməkdaşlığın gücləndirilməsinə həsr olunmuşdu. Birləşmiş Millətlərin Ümumdünya Turizm Təşkilatının və YUNESKO üzv dövlətlərinin mədəniyyət və turizm sahələrinə məsul olan nazirlərini bir araya gətirən Nazirlər Toplantısında davamlı inkişafa doğru irəliləyişi sürətləndirmək, dövlət və özəl sektor arasında əməkdaşlığı dəstəkləmək kimi istiqamətlərdə ən yaxşı təcrübələr barədə fikir mübadiləsi aparılmışdır. Yekunda Turizm və Mədəniyyət üzrə İstanbul Bəyannaməsi qəbul edilmişdir.

*İSESKO üzrə:*

11-12 oktyabr 2018-ci il tarixində Mərakeş Krallığının Rabat şəhərində İSESKO Baş Konfransının 13-cü sessiyası keçirilmişdir. Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev Baş konfransın sədri qismində tədbirdə iştirak etmişdir. Sessiya çərçivəsində İSESKO və TÜRKSOY arasında əməkdaşlıq sazişi imzalanmış, Baş Konfrans tərəfindən 2019-2027-ci illər üzrə orta müddətli strateji fəaliyyət planı, İSESKO-nun 2019-2021-ci illər üzrə üç illik fəaliyyət planı və büdcəsi qəbul olunmuş və İSESKO Baş katibinin təşkilatın 2015-2017-ci illər üzrə həyata keçirdiyi fəaliyyətlə əlaqədar hesabatı təsdiq edilmişdir. Daha sonra Türkiyə və Özbəkistan respublikaları İSESKO-ya üzvlüyə qəbul olunmuş, Sessiya çərçivəsində ölkəmizdə konsert, teatr, idman və əyləncə tədbirlərinə bilet satışını həyata keçirən “iTicket.az” saytının təqdimatı baş tutmuşdur. “iTicket.az” 2016-cı ildən etibarən fəaliyyətə başlamışdır və IV İslam Həmrəyliyi Oyunları, Formula 1 Azərbaycan Qran-Pri yarışları, Voleybol üzrə Qadınlararası Avropa Çempionatı, UEFA Çempionlar Liqasının qrup mərhələsi, Bakıda keçirilən velosiped idmanının “BMX Racing” növü üzrə 2018-ci il dünya çempionatı, “ЖАРА'18” musiqi festivalı kimi mötəbər tədbirlərin rəsmi tərəfdaşı və bilet satışı üzrə təchizatçısıdır. Sonda Baş Konfransın 14-cü sessiyasının 2021-ci ilin ikinci yarısında Malayziyanın Kuala Lumpur şəhərində keçirilməsinə dair qərar qəbul edilmişdir..

28-29 noyabr 2018-ci il tarixində Bəhreyn Krallığının Manama şəhərində İSESKO təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin İslam Konfransının növbədənkənar sessiyası keçirilmişdir. Tədbirdə AR mədəniyyət nazirinin birinci müavini vaqif Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmişdir. Sessiya “Bəşəri irsin qorunması və ekstremizmin qarşısının birgə alınması” mövzusunda keçirilmişdir. Sessiya zamanı İslam dünyasında mədəni inkişaf üzrə Məşvərətçi Şuranın 16-cı sessiyasının hesabatı, Əl Qüds Əl Şərifdə bəşəri və mədəni irsin qorunması məsələsinə beynəlxalq dəstəyin təşviqi üzrə Fəaliyyət Proqramı və ekstremizm, sektarianizm və terrorizmə qarşı mübarizə məqsədilə birgə fəaliyyətin gücləndirilməsinə dair “Manama prosesi”nin layihələri müzakirə edilmişdir. Sonda “Bəşəri irsin qorunması və ekstremizmin qarşısının birgə alınması” haqqında Bəhreyn Bəyannaməsi qəbul olunmuşdur.

*BMTSA (Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansı) üzrə:*

Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayevin rəhbərliyi ilə nümayəndə heyəti 19-20 noyabr 2018-ci il tarixində ABŞ-ın Nyu-York şəhərində “Dialoqa sadiqlik: Qarşısıalınma və davamlı sülh naminə əməkdaşlıq” şüarı altında keçirilən BMT-nin Sivilizasiyalar Alyansının 8-ci Qlobal Forumunda iştirak etmişdir. 20 noyabr tarixində BMT-nin Sivilizasiyalar Alyansının Nazirlər Konfransı çərçivəsində “Bakı prosesi”nin təqdimatı keçirilmiş və yubileyə həsr olunan film nümayiş etdirilmişdir. Səfər çərçivəsində, həmçinin BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nasir Əbdüləziz Əl-Nasir, İspaniyanın keçmiş xarici işlər naziri, 2019-cu ilin yanvar ayından etibarən BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi kimi fəaliyyət göstərəcək Migel Angel Moratinos, BMT baş katibinin qlobal kommunikasiyalar üzrə müavini Alison Smeyl və BMT baş katibinin terrorizmlə mübarizə məsələləri üzrə müavini Vladimir Voronkovla görüşlər keçirilmişdir.

*Avropa İttifaqı üzrə:*

2018-ci ilin 5 iyul tarixində Belçikanın Brüssel şəhərində Avropa İttifaqının Şərq Tərəfdaşlığı proqramının Təhsil, gənclər və mədəniyyət panelinin növbəti iclasında nazirliyin əməkdaşı iştirak etmişdir. İclasda təhsil və mədəniyyət vasitəsilə Avropa identikliyinin gücləndirilməsi, təhsil, mədəniyyət və gənclər sahəsində Avropa Komissiyası-Şərq Tərəfdaşlığı əməkdaşlığı, təhsil və mədəniyyət üzrə Avropa Komissiyasının 2016-2020-ci illər üzrə Strateji Planı çərçivəsində əməkdaşlıq, 4-cü platformanın görüşünün nəticələri və digər məsələlər müzakirə olunmuşdur.

*2016-2018-ci illərdə Avropa İttifaqının dəstəyi ilə İtaliyanın Mədəni İrs, Fəaliyyətlər və Turizm Nazirliyi ilə birgə icra edilmiş Tvinninq layihəsinin tövsiyələrinin həyata keçirilməsi:*

2016-2018-ci illərdə Avropa İttifaqının dəstəyi ilə İtaliyanın Mədəni İrs, Fəaliyyətlər və Turizm Nazirliyi ilə birgə icra edilmiş Tvinninq layihəsi çərçivəsində hazırlanan yekun sənədlərin icrası məqsədilə müvafiq işlər aparılmışdır. Bu məqsədlə Nazirlikdə İşçi Qrupun yaradılması və nəticələrin icrasının diqqət mərkəzində saxlanması nəzərdə tutulmuşdur. Mədəniyyət nazirinin 23.10.2018 tarixli, 143 nömrəli əmrinə müvafiq olaraq, 2016-2018-ci illərdə Avropa İttifaqının dəstəyi ilə İtaliyanın Mədəni İrs, Fəaliyyətlər və Turizm Nazirliyi ilə birgə icra edilmiş mədəniyyət sektorunun siyasəti və idarə olunması sisteminə dair Tvinninq layihəsinin yekun sənədlərində təklif edilən islahatlar paketinin həyata keçirilməsi üçün sözügedən islahatlar üzrə istiqamətlər və cavabdeh struktur bölmələrinin siyahısı təsdiqlənmişdir. Müvafiq olaraq, aidiyyəti struktur bölmələri tərəfindən İşçi Qrupun tərkibinə daxil edilməsi məqsədilə əlaqələndirici şəxslər təyin edilmiş və bu haqda Beynəlxalq əməkdaşlıq və innovativ inkişaf şöbəsinə məlumatlar təqdim olunmuşdur. Aidiyyəti struktur bölmələrinin təkliflərini nəzərə almaqla, Tvinninq layihəsinin tövsiyələrinin həyata keçirilməsi üzrə İşçi Qrupun tərkibi, həmçinin fəaliyyət reqlamenti hazırlanaraq qısa zamanda təsdiq olunacaqdır.

Həmçinin Sözügedən Tvinninq layihəsinə əsasən İsmayılı Regional Mədəniyyət İdarəsi pilot region müəyyən edilmiş və İtaliya təcrübəsi nəzərə alınaraq İnteqrasiyalı İdarəetmə Planı hazırlanmışdır. Planın icrası və ölkədə daha geniş miqyasda tətbiqi məqsədilə yaxından araşdırılması zərurəti yaranmışdır. Bu məqsədlə Nazirliyin nümayəndə heyəti 2018-ci ilin 11-15 dekabr tarixində İtaliya Respublikasında tədqiqat səfərində olmuşdur.

*Avropa Şurası üzrə:*

Avropa Şurası (AŞ) Mədəni Marşrutları üzrə Genişləndirilmiş Hissəvi Sazişin (EPA) İdarə Heyətinin 2018-ci ilin 18-19 aprel tarixində keçirilmiş iclasında şöbənin əməkdaşı iştirak etmişdir. Azərbaycan qeyd olunan platformanın yaradılması üçün Genişləndirilmiş Hissəvi Sazişi (EPA) imzalayaraq 2011-ci ildən sazişə qoşulan ilk ölkələrdəndir və 2014-cü ildə AŞ Nazirlər Komitəsində sədrliyi çərçivəsində ölkəmiz illik məşvərət forumuna ev sahibliyi etmişdir. İclasda İdarə Heyətinin fəaliyyətinə və "Avropa Şurasının Mədəni Marşrutu" mükafatının sertifikasiyasına dair Prosedur Qaydalarına dəyişikliklər (Əlavə 4) müzakirə edilmişdir. Tədbir zamanı mədəni mülkiyyətin qeyri-qanuni dövriyyəsi ilə bağlı müasir çağırışlar və irəliləyişlər, onlayn satışlar, mədəni irs yerlərinin monitorinqi üçün dronlardan istifadə, mədəni irsin mühafizəsi üçün blokçeyn texnologiyası, risk altında olan, xüsusilə də münaqişə zonalarında mədəni irsin vəziyyəti ilə bağlı məsələlər müzakirə olunmuş və Komitənin nəzərdən keçirdiyi mübahisələr (Yunanıstan və Böyük Britaniya arasında, Türkiyə və ABŞ arasında) dinlənilmişdir. Səfər çərçivəsində, həmçinin YUNESKO Katibliyi ilə işğal olunmuş ərazilərdə, münaqişə zonalarında olan (Azərbaycanın nümunəsində) mədəni irs nümunələrinə dair hesabatın hazırlanması məsələsi müzakirə olunmuşdur.

*MDB (Müstəqil Dövlətlər Birliyi) üzrə:*

2018-ci ilin MDB-də Mədəniyyət ili elan olunması ilə əlaqədar təsdiq olunmuş Tədbirlər Planına əsasən aidiyyəti üzrə tədbirlərin həyata keçirilməsi təmin edilmişdir.

MDB iştirakçı dövlətlərinin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun (DHƏF) iştirakı ilə 2019-cu ildə həyata keçirilməsi nəzərdə tutulan tədbir və layihələrlə bağlı Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təqdim etdiyi layihələrdən 4-ü DHƏF-in 2019-cu il üçün Plan-smetasına daxil edilmişdir. Layihələrin 2019-cu il ərzində icrası nəzərdə tutulur.

12-13 oktyabr 2018-ci il tarixində Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində MDB iştirakçı dövlətlərinin Mədəni əməkdaşlıq üzrə Şurasının 33-cü iclası keçirilmişdir. Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti iclasda iştirak etmişdir.

28-29 noyabr 2018-ci il tarixində Tacikistanın Düşənbə şəhərində keçilən Periodik nəşr, kitab çapı, kitab yayımı və poliqrafiya sahəsində əməkdaşlıq üzrə Dövlətlərarası Şuranın 33-cü iclasının nəticələrinə əsasən 2019-ci ildə Şurada sədrlik Azərbaycan Respublikasına ötürülmüşdür. Şuranın sədri Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin əməkdaşı Elbəy Əli təyin olunmuşdur. Şuranın növbəti iclasının 2019-cu ilin 4-cü rübündə Azərbaycanda keçirilməsi planlaşdırılır.

*TÜRKSOY üzrə:*

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı ilə əməkdaşlıq çərçivəsində hesabat dövründə bir sıra mədəniyyət və incəsənət xarakterli tədbirlər keçirilmişdir. Belə ki, hesabat dövründə dahi bəstəkar Qara Qarayevin 100, yazıçı Anarın 80, H.Cavidin 135, Azərbaycan Kinosunun 120 illiyi, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyi üzv ölkələrdə yüksək səviyyədə qeyd edilmişdir.

2018-ci ilin 18 dekabr tarixində Türkiyə Respublikasının Kastamonu şəhərində türkdilli ölkələrin mədəniyyət nazirləri Daimi Şurasının 36-cı Dönəm Toplantısı keçirilmişdir. Toplantıda Azərbaycanın təklifinə əsasən dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyi münasibətilə 2019-cu il TÜRKSOY çərçivəsində "Nəsimi ili" elan olunmuşdur.

*QDİƏT (Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı) üzrə:*

22 noyabr 2018-ci il tarixində Serbiyanın sədrliyi ilə keçirilən QDİƏT-in mədəniyyət üzrə İşçi Qrupunun görüşündə nazirliyin əməkdaşı iştirak etmişdir. Görüşdə Türkiyə 2019-cu ilin 1 yanvar tarixindən etibarən QDİƏT-in mədəniyyət üzrə İşçi Qrupunun növbəti iki il müddətinə koordinator ölkəsi müəyyən edilmiş və yekunda QDİƏT üzv dövlətlərinin Mədəniyyət Nazirlərinin Belqrad Bəyannaməsi qəbul edilmişdir.

### ● Beynəlxalq layihələr və proqramlar üzrə əməkdaşlığın gücləndirilməsi, innovasiyaların tətbiqi və yaradıcı sənayelərin inkişaf etdirilməsi

Hesabat dövrü ərzində beynəlxalq layihələr və innovasiyalar üzrə bir sıra istiqamətlərdə iş aparılmışdır:

*Azərbaycanda milli mədəniyyət siyasətinin modernləşməsi və yaradıcı sənayelərin inkişaf etdirilməsi;*

Ən yaxşı beynəlxalq təcrübələrin yerli şəraitə uyğunlaşdırılması vasitəsilə milli mədəniyyət siyasətinin modernləşməsi və yaradıcı sənayelərin inkişaf etdirilməsi, ölkə iqtisadiyyatında rolunun gücləndirilməsi məqsədilə bir sıra addımlar atılır.

Xarici ekspertlə birgə Yaradıcı və Mədəniyyət Sənayelərinin inkişafına dair Strategiya və Fəaliyyət Planı hazırlanır. Bu məqsədlə ölkədə yaradıcı və mədəniyyət sahələrinə dair ilkin qiymətləndirmə və təhlil sənədi hazırlanmışdır. Sahə üzrə fəaliyyət göstərən fiziki və hüquqi şəxslərlə 70-dən artıq görüş və müzakirələr təşkil olunmuş, eləcə də İqtisadiyyat, Vergilər Nazirlikləri, Dövlət Statistika Komitəsi, Milli Televiziya və Radio Şurası, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və digər qurumlarla məsləhətləşmələr aparılmışdır.

Şöbə tərəfindən "Yaradıcı Sənayelər üzrə startaplar müsabiqəsi"nin layihəsi hazırlanmışdır. Layihə yaradıcı və mədəniyyət sənayeləri üzrə istedadların aşkar olunması, təşəbbüslərin dəstəklənməsi, hökumət-biznes əlaqələrinin inkişaf etdirilməsi və bu sahədə ictimai maariflənmə səviyyəsinin artırılması məqsədi daşıyır. Müsabiqə çərçivəsində incəsənət, memarlıq, dizayn, əl işləri, sənətkarlıq, teatr, muzey, kitab, nəşriyyat və audio-vizual (film, musiqi, radio və TV) sahələr üzrə müxtəlif layihələr, kompüter proqramları və tətbiqlər, video oyunlar və s. ilə əlaqədar layihələrin qəbulu, münsiflər heyəti tərəfindən qiymətləndirilməsi, seçilmiş qaliblərin mükafatlandırılması və layihələrin icrasının monitorinqi həyata keçiriləcəkdir. Müsabiqənin geniş miqyasda işıqlandırılması və ictimaiyyət tərəfindən maraqla qarşılanması məqsədilə müxtəlif tərəfdaşlarla birgə həyata keçirilməsi planlaşdırılır. Belə bir müsabiqənin mədəniyyət sahəsi üzrə biznes mühitinin formalaşmasına, yeni şirkətlərin yaranmasına və güclənməsinə, eləcə də dövlət və özəl sektor arasında əməkdaşlığın inkişafına töhfə verməsi gözlənilir.

Artıq 2 ildir ölkəmizdə Respublika İnnovasiya Müsabiqəsi təşkil olunur. Bu müsabiqə İqtisadiyyat Nazirliyinin təşkilatçılığı, bir neçə qurumun tərəfdaşlığı ilə keçirilir. Bu ildən etibarən müsabiqənin təşkilatçılığına Mədəniyyət Nazirliyi də qoşulmuşdur. Nazirliyin dəstəyi ilə mədəniyyət və yaradıcı sənaye sahələrində həyata keçirilən innovasiyalar qiymətləndiriləcək və onlara dəstək tədbirləri təşkil olunacaqdır.

*Beynəlxalq layihələr və proqramlar üzrə əməkdaşlığın gücləndirilməsi;*

Hazırda yaradıcı və mədəniyyət sənayeləri üzrə beynəlxalq təşkilatlar və ölkələrlə əməkdaşlıq imkanlarına dair ətraflı araşdırma aparılır. Bu məqsədilə geniş əməkdaşlıq imkanlarının mövcud olduğu səfirlik və təşkilat nümayəndələri ilə görüşlər keçirilmişdir. Sözügedən araşdırma nəticəsində beynəlxalq layihə və proqramlarla bağlı strateji sənədin hazırlanması və fəaliyyətin intensivləşməsi planlaşdırılır.

Yaradıcı və Mədəniyyət Sənayeləri üzrə yüksək bilik və təcrübəyə malik kadrların hazırlanması, innovasiya mərkəzlərinin yaradılması, layihə və təhsil proqramlarının dəstəklənməsi məqsədilə yerli və nüfuzlu xarici universitetlərlə əməkdaşlığın intensivləşdirilməsi istiqamətində iş aparılmışdır.

Azərbaycan Memarlıq və İnşaat Universiteti ilə birgə "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Azərbaycan Memarlıq və İnşaat Universiteti arasında təhsil, elm, ixtisasartırma və məşğulluq sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" layihəsi hazırlanmışdır. Layihənin 2019-cu ilin əvvəlində imzalanması nəzərdə tutulur.

Yaradıcı iqtisadiyyatın inkişaf etdirilməsi istiqamətində universitetlərarası bilik və təcrübə mübadiləsinə dəstək məqsədilə Britaniya Şurası (British Council) tərəfindən "Creative Spark" proqramı həyata keçirilir. Proqramının əsas məqsədi yeddi post-sovet ölkəsində (Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Ukrayna və Ermənistan) yerləşən müxtəlif universitetlərin yaradıcı sənayelər, startaplar, biznes və inkişaf sahələrində Birləşmiş Krallığın universitetləri ilə əməkdaşlığın qurulması və birgə proqramların həyata keçirilməsidir. Proqram çərçivəsində 2018-ci ilin 25-29 iyun tarixində şöbənin əməkdaşı Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında səfərdə olmuş, səfər çərçivəsində bir sıra müzakirələr aparılmışdır. Proqramla əlaqədar şöbə tərəfindən nüfuzlu London İncəsənət Universiteti və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti ilə danışıqlar aparılmış və bu universitetlərarası əməkdaşlığa dair layihə hazırlanaraq Nazirliyin dəstək məktubu ilə birgə 2018-ci ilin 8 oktyabr tarixində Britaniya Şurasına təqdim edilmişdir.

Layihəyə “YARAT” təşkilatı da cəlb olunmuşdur. Layihə Britaniya Şurası tərəfindən qiymətləndirilmiş, Azərbaycan tərəfindən təqdim olunan 10 layihə arasından seçilən 3 layihədən biri olmuşdur. Layihənin icrasına Şura tərəfindən 50000 funt sterlinq məbləğ ayrılacaqdır.

2018-ci ilin 20-21 noyabr tarixində Gürcüstanın Tbilisi şəhərində keçirilmiş proqramın rəsmi açılış mərasimində nazirliyin əməkdaşı iştirak etmiş və proqramın icrasına dair müzakirələr baş tutmuşdur. Böyük Britaniya və proqramın həyata keçirildiyi ölkələr arasında milli siyasət, strategiyalar və onların icrası, universitetlər və digər təşkilatlar arasında tərəfdaşlıq planlarına dair fikir mübadiləsi aparılmışdır.

Layihənin uğurla həyata keçirilməsi nəticəsində gələcəkdə Azərbaycan Dövlət və Mədəniyyət Universiteti bazasında innovasiya mərkəzinin yaradılmasının müzakirə olunması və proqram çərçivəsində əməkdaşlığın davamlılığına nail olmaq məqsədilə müvafiq işlər aparılması nəzərdə tutulmuşdur.

Magistr və bakalavr dərəcələri üzrə yuxarı kurs tələbələri üçün ADA Universiteti tərəfindən təşkil olunan “Capstone” adlı elmi-praktiki tədqiqat layihəsi çərçivəsində əməkdaşlıq aparılacaqdır. Layihə gənclərin maariflənməsi baxımından böyük elmi-praktiki əhəmiyyətə malikdir, həmçinin geniş auditoriya kütləsini hədəfləyir. Sözügedən layihə çərçivəsində universitetin təyin etdiyi müəllim heyətinin rəhbərliyi ilə təqribən 3-5 tələbədən ibarət qruplar formalaşdırılır və müxtəlif qurumlarla əməkdaşlıq edilərək layihənin elmi və praktik tədqiqat mövzusu müəyyənləşdirilir. Layihə 1 akademik il ərzində universitet və qurum arasında əməkdaşlıq zəminində həyata keçirilir və geniş auditoriyaya təqdim olunur. Məsələ ilə bağlı Universitet tərəfindən 2 qrup müəyyənləşdirilmişdir. Bu qrupların Nazirlik tərəfindən seçilmiş 2 mövzu üzrə araşdırma aparması nəzərdə tutulmuşdur.

YUNESKO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının nümayəndələri ilə birgə 2020 və ya 2021-ci illərdə Beynəlxalq Caz Günü Qlobal Konsertinin Bakı şəhərində təşkili məqsədilə müraciət forması hazırlanaraq YUNESKO-ya təqdim olunmuşdur.

Beynəlxalq tədbirlər:

*VI Bakı Beynəlxalq Humanitar Forumu:*

Cari ilin ən mühüm tədbirlərindən biri 25-26 oktyabr 2018-ci il tarixində Bakı şəhərində “Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı” mövzusunda keçirilmiş VI Bakı Beynəlxalq Humanitar Forumu olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 17 noyabr 2017-ci il tarixli Sərəncamına əsasən Mədəniyyət Nazirliyi tədbirin əlaqələndirici qurumu təyin olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə baş tutan forumda BMT baş katibinin iki müavini, İSESKO, İRSİKA, TÜRKPA, TÜRKSOY, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (BSEC), Türk Mədəniyyəti və İrsi Fondu, Parlamentlərarası Birlik (İPU), BMT-nin İqtisadi və Sosial Şurası (ECOSOC) kimi təşkilatların rəhbərləri, YUNESKO, Müstəqil Dövlətlər Birliyinin (MDB) İcraiyyə Komitəsi rəhbərlərinin müavinləri, həmçinin Sudanın vitse-prezidenti, Rusiya, Slovakiyanın baş nazir müavinləri, Sloveniya, Uruqvay, Rusiya, Misir, Belarus, İtaliya, Estoniya parlamentlərinin sədr və sədr müavinləri, Gürcüstan, Monteneqro, Özbəkistan, Bolqarıstan, Türkiyə, Sudan, Tacikistan, Qazaxıstan, Ukrayna, Əfqanıstan, Filippin, Bolqarıstandan nazir və nazir müavinləri, Qazaxıstan, Türkiyə, Tacikistan, Özbəkistandan ombudsmanlar, habelə 15 ölkədən 40-dan çox millət vəkili, 46 ölkənin diplomatik nümayəndəliklərinin rəhbərləri, çoxsaylı respublikalardan şirkət rəhbərləri, elm xadimləri və ekspertlərin də qatıldığı 97 ölkə və 24 beynəlxalq təşkilatdan 581 nəfər xarici, ümumilikdə isə 1000 nəfərdən artıq nümayəndə iştirak etmişdir.

Forum çərçivəsində “Təhsil və elm insan kapitalının inkişafı kontekstində”, “İnnovasiyalar yaradıcı iqtisadiyyatın yeni mənbəyi kimi”, “Multikulturalizm siyasəti cəmiyyətdə sabitliyin təminatı amili kimi”, “Gələcəyimizə sərmayə: davamlı və inklüziv inkişafa doğru”, “Yanlış məlumatlandırma siyasəti – müasir dünyada sabitliyə təhdid”, “Bakı Prosesi – İnsan

təhlükəsizliyi, sülh və davamlı inkişaf naminə mədəniyyətlərarası dialoq: 10 ilin dərsləri və perspektivləri" mövzuları üzrə plenar sessiyalar baş tutmuşdur.

Bu tədbir öz özlüyündə sübut etmişdir ki, Azərbaycan müasir dünyada insan inkişafına, yaradıcı qabiliyyətlərin və düşüncə tərzinin dərinləşməsinə həm milli səviyyədə, həm də beynəlxalq səviyyədə xüsusi önəm verir.

*"Naxçıvan - İslam mədəniyyətinin paytaxtı":*

İlin ən mühüm hadisələrindən biri 2018-ci il üçün qədim Azərbaycan şəhəri olan Naxçıvan "İslam mədəniyyətinin paytaxtı" kimi qeyd edilməsi olmuşdur. Məlum olduğu kimi, hələ 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə Bakıda Keçirilmiş İslam ölkələrinin mədəniyyət nazirlərinin toplantısında bununla bağlı qərar verilmişdir. 20 iyun 2018-ci il tarixində "Naxçıvan – İslam Mədəniyyətinin Paytaxtı 2018" mədəniyyət ilinin açılış mərasimi keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən yaradılmış Təşkilat Komitəsinin üzvləri, İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (İSESKO) baş direktoru, TÜRKSOY-un baş katibi, İndoneziya, Tacikistan, Özbəkistan və Əlcəzairin mədəniyyət nazirləri, İran, Birləşmiş Ərəb Əmirlikləri, Qazaxıstan, Türkmənistan və Qətərin mədəniyyət nazirlərinin müavinləri və digər ölkələrin vəzifəli şəxslərindən ibarət nümayəndə heyətləri iştirak etmişdir.

15 dekabr 2018-ci il tarixində Naxçıvan şəhərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Naxçıvan mədəniyyət naziri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin üzvləri, İSESKO baş direktorunun müavini, TÜRKSOY-un baş katibinin müavininin iştirakı ilə "Naxçıvan – İslam Mədəniyyətinin Paytaxtı 2018" mədəniyyət ilinin bağlanış mərasimi keçirilmişdir. Mərasim çərçivəsində baş tutan konsertdə Azərbaycan Respublikasının Xalq artisti Alim Qasımov və Əməkdar artist Fərqanə Qasımova xalq mahnıları və muğam ifaları dinlənilmiş və "Şərur" Xalq Yallı Ansamblının ifasında təqdim olunan "Köçəri" və "Tənzərə" yallıları nümayiş etdirilmişdir.

İSESKO-nun Fəaliyyət Planına uyğun olaraq "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı - 2018" mədəniyyət ili çərçivəsində İSESKO üzrə Azərbaycan Respublikası Milli Komissiyası və İSESKO-nun birgə təşkilatçılığı ilə 2018-ci il 20-21 iyun tarixində Bakıda "Mədəniyyət sənayelərində investisiyanın vacibliyi və onun gənc insanlar arasında işsizliyin azaldılmasında rolu üzrə milli seminar" və 21-22 iyun tarixində Naxçıvanda "ISESKO-ya üzv ölkələrdə Yaşıl Şəhərlər üzrə İSESKO strategiyasının həyata keçirilməsi ilə bağlı ekspertlər görüşü" təşkil olunmuşdur.

Bundan əlavə, "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı - 2018" mədəniyyət ili çərçivəsində 2018-ci il 21-23 dekabr tarixlərində Bakıda İSESKO üzrə Azərbaycan Respublikası Milli Komissiyası və İSESKO-nun birgə təşkilatçılığı ilə İSESKO-ya üzv ölkələrin (Asiya regionu ölkələri) Milli Komissiyalarının əməkdaşları üçün FLOSS proqramından (Use of Free/Libre & Open Source Software) istifadə ilə bağlı təlim seminar keçirilmişdir.

*"Nəsimi – şeir, sənət və mənəviyyat Festivalı"*

2018-ci ilin 27-30 sentyabr tarixlərində Azərbaycanda ilk dəfə olaraq Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə şərqin dahi şair və mütəfəkkiri İmadəddin Nəsimiyə həsr olunmuş "Nəsimi – şeir, sənət və mənəviyyat Festivalı" keçirilmişdir. Layihə beynəlxalq miqyasda – müasir cəmiyyətdə mənəviyyatı tərənnüm edən dünya şöhrətli ifaçıların, filosofların, alimlərin, habelə bu sahədə həvəskar gənclərin, o cümlədən interaktiv formatda geniş tamaşaçı kütləsinin iştirakı ilə keçirilmişdir.

Festival çərçivəsində sentyabrın 27-də şairin doğulduğu Şamaxı şəhərində onun şərəfinə ucaldılmış heykəl önündə Xalq artisti Alim Qasımovun təqdimatında şeir-musiqi məclisi, Şamaxı Tarix-Diyarşünaslıq Muzeyinin yeni ekspozisiyasının açılışı, Söz ədəbi layihəsi, Etik moda nümayişi, konsert və digər tədbirlər baş tutmuşdur.

Sentyabrın 28-də Festival çərçivəsində ADA Universitetində keçirilmiş Nəsimi yaradıcılığına dair beynəlxalq konfransda Azərbaycanla yanaşı, Böyük Britaniya, Almaniya, Rusiya, Türkiyə və və İrandan tanınmış tədqiqatçılar, türkoloqlar, nəsimişünaslar iştirak etmişdirlər.

Eyni zamanda Azərbaycan Xalça Muzeyinin "Nadir Azərbaycan xalça nümunələrinin tarixi Vətəninə qaytarılması" layihəsi çərçivəsində muzeyə hədiyyə olunmuş XVII əsrə aid "Naxçıvan" və XIX əsrə aid Qubanın "Hacıqayıb" xalçalarının təqdimatı keçirilmişdir. Heydər Əliyev Mərkəzində almaniyalı alim, tanınmış nəsimişünas Mixael Hessin "Nəsimi dühası müasir kontekstlərdə" mövzusunda mühazirəsi və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın iştirakı ilə üç sərginin - "Live Life", "Hürufilik: incəsənət və identiklik" və Brayn İnonun "77 milyon rəsm əsəri" sərgilərinin açılışı keçirilmişdir.

Sentyabrın 28-də, həmçinin, Heydər Əliyev Mərkəzində keçirilmiş Festivalın təntənəli açılış konsertində müxtəlif ifaçılar, o cümlədən Azərbaycan əsilli, tanınmış britaniyalı müğənni Sami Yusuf, Kamera və Orqan Musiqi Salonunda keçirilən cazz konsertində Rain Sultanov və İsfar Sarabski "Cycle" layihəsi ilə çıxış etmişdirlər.

29 sentyabr Festival çərçivəsində silsilə tədbirlər – Şirvanşahlar Sarayında və Muğam Mərkəzində xarici ifaçıların konsertləri, Bakı Kitab Mərkəzində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın kitablarının təqdimatı, Səadət Şıxıyevanın Nəsimi və ardıcıllarına həsr olunmuş mühazirələri, Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində Leyla bəyim Cəfərovanın "İmmolitio" tamaşası, Daş Salnamə Muzeyində məşhur amerikan iqtisadçısı Ceremi Rifkinin onlayn mühazirəsi və baş tutmuşdur. Mühazirədən sonra muzeydə "Bahariyyə" muğam layihəsi təqdim edilmişdir.

Festivalın son günü - 30 sentyabr tarixində də davam edən silsilə tədbirlərin yekununda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın və Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyevanın iştirakı ilə Bakı Media Mərkəzində Nəsimi – şeir, incəsənət və mənəviyyat Festivalının bağlanış və Mədəniyyət Nazirliyinin "Söz" ədəbi layihəsi çərçivəsində Nəsiminin xatirəsinə həsr etdiyi ədəbi müsabiqənin qaliblərinin mükafatlandırılması mərasimləri keçirilmişdir Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Mədəniyyət Nazirliyinin qeyd edilən müsabiqənin qaliblərinə mükafatları təqdim etmişdir.

*Bakı Prosesi*

Bu il Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü olan "Bakı Prosesi"nin 10-cu ildönümüdür. Bununla əlaqədar olaraq, Azərbaycan Respublikasının Prezidenti tərəfindən müvafiq Sərəncam imzalanmışdır. Bundan əlavə, il ərzində Qoşulmama hərəkatına üzv olan ölkələrin Xarici İşlər Nazirlərinin Toplantısında, 19 fevral tarixində Böyük Britaniyanın Koventri Universitetində, 18 aprel tarixində YUNESKO-nun Baş qərargahında, 11 oktyabr tarixində İSESKO-nun Baş qərargahında, 11 iyun tarixində Fransanın Paris şəhərində, 20 noyabr tarixində BMT Sivilizasiyalar Alyansının VIII Qlobal Forumu çərçivəsində BMT Baş qərargahında "Bakı Prosesi"nin 10-cu ildönümü ilə bağlı təqdimat mərasimləri təşkil olunmuşdur. 2019-cu ilin əvvəlində isə bununla bağlı Yekun tədbir keçiriləcəkdir. 10-cu ildönümü ilə əlaqədar olaraq ingilis dilində "Baku Process 10" adlı kitabça hazırlanmışdır. Hazırda kitabçanın Azərbaycan və rus dillərində hazırlanması ilə əlaqədar iş aparılır. Həmçinin Böyük Britaniyanın Koventri Universiteti ilə birgə "Baku Process 10" kitabının beynəlxalq səviyyədə nəşr olunması istiqamətində iş gedir.

Cari ilin 28 sentyabr tarixində YUNESKO mənzil qərargahında İslam Əməkdaşlıq Təşkilatının (İƏT) üzv dövlətlərinin YUNESKO-dakı qrupu tərəfindən təşkil edilən "İƏT günü" çərçivəsində "Mədəniyyətlərarası dialoq zorakı ekstremizm və münaqişələrin qarşısının alınması üçün vasitə kimi – mədəniyyətlərarası dialoqun təşviqi sahəsində İƏT üzv dövlətləri arasında uğurlu təcrübələr" mövzusunda dəyirmi masa təşkil olunmuşdur. Dəyirmi masada YUNESKO və İƏT Katibliyinin nümayəndələri, eləcə də İraq, Qazaxıstan və Azərbaycandan dəvət edilmiş ekspertlər çıxış etmişdirlər. Ekspert Jan Kristof Bas Azərbaycan Respublikası Prezidenti tərəfindən 2008-ci ildə irəli sürülmüş "Bakı Prosesi" təşəbbüsü və onun çərçivəsində

təşkil edilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları haqqında, həmçinin ölkəmizin bu sahəyə verdiyi önəm və töhfələr barədə məlumat vermişdir.

V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun 2019-cu ildə təşkili ilə bağlı Mədəniyyət Nazirliyi və YUNESKO ilə birgə Avstraliyalı, ingilis və ispan ekspertlərdən ibarət işçi qrup yaradılmışdır.

Cari ilin 25-26 oktyabr tarixində Bakı şəhərində "Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı" mövzusunda keçirilmiş VI Beynəlxalq Humanitar Forumu çərçivəsində "Bakı Prosesi – İnsan təhlükəsizliyi, sülh və davamlı inkişaf naminə mədəniyyətlərarası dialoq: 10 ilin dərsləri və perspektivləri" adlı plenar sessiya təşkil olunmuşdu.

## DÖVLƏT QULLUĞU VƏ KADR MƏSƏLƏLƏRİ SAHƏSİ

"Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Aparatının fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 14 iyun 2018-ci il tarixli 32-k nömrəli əmri ilə "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Aparatının təminedici və yardımçı şöbələrinin siyahısı" və "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Aparatının ştat cədvəli" təsdiq edilmişdir. Bundan sonra Nazirliyin strukturunda çalışan 284 nəfər dövlət qulluqçusu müvafiq vəzifələrə təyin edilmişdir.

Dövlət qulluğuna qəbul üzrə müsabiqələrdə müvəffəqiyyət qazanmış namizədlərdən 15 nəfər cari dövr ərzində müvafiq olaraq nazirliyin strukturunda daimi dövlət qulluğuna qəbul edilmişdir. Onlardan 3 nəfər Nazirliyin aparatında, 1 nəfər Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətində, 11 nəfər regional mədəniyyət idarələrində dövlət qulluğu vəzifələrinə təyin edilmişlər.

Vakant inzibati dövlət qulluğu vəzifələrin tutulması məqsədilə 2018-ci il ərzində Nazirliyin aparatında, Dövlət Xidmətində və regional mədəniyyət idarələrində ümumilikdə 35 vəzifə üzrə daxili və ümumi müsahibələr keçirilmişdir. Müsahibələrdən uğurla keçən namizədlər müvafiq vəzifələrə təyin edilmişlər.

Hesabat dövrü ərzində Dövlət qulluğu və kadr məsələləri şöbəsi tərəfindən kadr məsələlərinə aid ümumilikdə 400-dən çox əmr hazırlanmışdır ki, bunlar da əsasən Nazirliyin aparatında, Dövlət Xidmətində, Bakı Şəhər Mədəniyyət Baş İdarəsində, regional mədəniyyət idarələrində, həmçinin tabe müəssisə və təşkilatlarda işə qəbul, başqa vəzifəyə keçirilmə və işdən azad edilmə ilə bağlı əmrlərdir.

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 iyun tarixli 183 nömrəli qərarı ilə təsdiq edilmiş "Əmək müqaviləsi bildirişinin forması və onun elektron informasiya sisteminə gücləndirilmiş elektron imza vasitəsilə daxil edilməsi qaydaları, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə göndərilən məlumat forması, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı Qaydalar"a uyğun olaraq əmək müqavilələrinin bağlanılmasının, ona dəyişiklik edilməsinin və xitam verilməsinin elektron qaydada qeydiyyata alınması məqsədi ilə cari dövr ərzində Nazirliyin vəzifələr nomenklaturası üzrə bağlanılmış əmək müqavilələri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Elektron İnformasiya Sisteminə daxil edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 21 iyun tarixli 420 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Qulluqçuları Reyestrinin aparılması Qaydaları"na uyğun olaraq Nazirliyin dövlət qulluqçuları barədə müvafiq məlumatlar Dövlət Qulluqçularının Reyestri İnformasiya Sisteminə (DQRİS-ə) göndərilmişdir.

Hesabat dövründə Maliyyə Nazirliyinin təqdim etdiyi "Büdcə təşkilatları üçün Maliyyə və Mühasibatlıq Hesabatları" avtomatlaşdırılmış informasiya sisteminə (SERP) Dövlət qulluğu və kadr məsələləri şöbəsi tərəfindən Nazirliyin aparatının işçiləri barədə kadr məlumatları (işçilərin

əmək fəaliyyəti, əmək haqqı, məzuniyyətlər, ixtisas dərəcələrinə və qulluq stajlarına görə əlavə haqların verilməsi, əmək qabiliyyətinin olmaması barədə məlumatlar və sair) daxil edilmişdir.

Dövlət İmtahan Mərkəzi və dövlət orqanları tərəfindən idarə olunan “Vəzifələrin İdarə Edilməsi Sistemi”nə Nazirliyin dövlət qulluğu vəzifələri üçün “Vəzifə təlimatları” və “Müsahibə proqramları”na aid məlumatlar daxil edilir və daim yenilənir.

Çalışmanın yaş həddi ilə bağlı Azərbaycan Respublikasının Əmək Məcəlləsində və “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş müddəaların icrası ilə əlaqədar, 2018-ci il ərzində 43 nəfər işçinin çalışma müddəti uzadılmışdır.

Cari dövr ərzində Nazirliyin Aparatının, Dövlət Xidmətinin, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin və regional mədəniyyət idarələrinin 9 nəfər dövlət qulluqçusuna müvafiq ixtisas dərəcələri verilmişdir.

Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydaları”na əsasən, dövlət qulluqçularının 2017-ci il üçün qiymətləndirilməsinin yekunlarına dair məlumatlar cari ilin əvvəlində aidiyyəti üzrə təqdim edilmişdir. Məlumatlara əsasən, xidməti fəaliyyəti qiymətləndirilən dövlət qulluqçularından 233 nəfər 3.6-4.5, 5 nəfər isə 3.0-3.6 arası qiymətlər almışdır. 2018-ci il üçün müvafiq işlərin görülməsi davam etdirilir.

Nazirliyin və tabeliyində olan təşkilat və müəssisələrində işləyən və brona alınmış (təxsislənmiş) hərbi mükəlləfiyyətlilərin sayı haqqında 1 yanvar 2018-ci il tarixinə olan hesabatlar (47036 nəfər üzrə) Forma 6-ya uyğun olaraq ümumiləşdirilərək cari ilin əvvəlində aidiyyəti üzrə təqdim edilmiş, cari il üçün müvafiq işlər qanunvericiliyə uyğun davam etdirilir.

Ümumilikdə hesabat dövründə təşkilat və müəssisələr, həmçinin vətəndaşlar tərəfindən Dövlət qulluğu və kadr məsələləri şöbəsinə daxil olmuş 500-ə yaxın müxtəlif məzmunlu ərizə, müraciət və sənədlərə qanunvericiliyə uyğun olaraq baxılmışdır.

Hesabat dövrü ərzində Azərbaycan Respublikasının Prezidenti, Zati-Aliləri cənab İlham Əliyev tərəfindən mədəniyyət və turizm sahəsində çalışan 233 nəfər fəxri ad, orden və medallarla təltif edilmişdir. 10 may və 15, 16, 17 may 2018-ci il tarixlərində şöbə tərəfindən təşkil edilmiş dövlət təltiflərinin təqdimat mərasimində mədəniyyət naziri Əbülfəs Qarayev təltif olunan şəxslərin 196 nəfərinə fəxri ad, orden və medalları təqdim etmişdir.

2018-ci il ərzində Nazirliyinin Kollegiyasının Qərarı ilə mədəniyyət və turizm sahəsində səmərəli fəaliyyətlərinə görə ümumilikdə 28 nəfər Nazirliyin “Fəxri Mədəniyyət İşçisi” və 9 nəfər isə “Fəxri Turizm İşçisi” döş nişanları ilə təltif edilmişdir.

Həmçinin, hesabat dövründə qanunvericiliyə uyğun olaraq, 2018-ci il üçün təsdiq edilmiş məzuniyyət qrafikinə əsasən Nazirliyin əməkdaşlarının əmək məzuniyyətinə çıxmaları təmin edilir.

Statistik məlumatların təhlili onu göstərir ki, hazırda Nazirliyin aparatında çalışan 37 nəfərin (29%) dövlət qulluğunda qulluq stajı 15 ildən yuxarı, 34 nəfərin (27%) 10-15 il arası, 14 nəfərin (11%) 5-10 il arası, 37 nəfərin (29%) 1-5 il arası, 4 nəfərin (3%) qulluq stajı isə 1 ildən azdır. Dövlət qulluqçularından 12 nəfər (10%) dövlət qulluğunun müşaviri, 48 nəfər (40%) dövlət qulluğunun kiçik müşaviri, 14 nəfər (12%) 1-ci dərəcə dövlət qulluqçusu, 34 nəfər (29%) 2-ci dərəcə dövlət qulluqçusu, 9 nəfər (8%) isə yardımçı vəzifə tutan dövlət qulluqçularıdır.

## İQTİSADİYYAT VƏ PLANLAŞDIRMA SAHƏSİ

Hesabat dövrü ərzində Heydər Əliyev Mərkəzlərinin yeni Nümunəvi strukturu və ştat vahidlərininin layihəsinin hazırlanması ilə əlaqədar 5 il ərzində müvafiq işlər görülmüş, Azərbaycan Respublikası Maliyyə, Ədliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirlikləri və Nazirlər Kabineti ilə yazışmalar aparılmış və nəhayət bu il Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin 08.12.2017-ci il tarixli 08 nömrəli əmri ilə təsdiq edilmişdir.

Eyni zamanda hər bir rayon Heydər Əliyev Mərkəzinin ştat cədvəli hazırlanmış, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasına "Akademik" statusun verilməsi ilə bağlı maliyyə təminatı öz həllini tapmışdır. Ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən qaytarılmış ƏDV məbləğindən tutulan xidmət haqqının Mədəniyyət və Turizm Nazirliyinin büdcədənkənar gəlirlərinə aid edilən hissəsinin Nazirliyin hesabına köçürülməsi təmin edilmiş və bununla bağlı nazirliyin büdcədənkənar ümumi limit çərçivəsində Mərkəzi aparat bölməsi üzrə xüsusi vəsait hesabının açılmasına nail olunmuşdur.

Mərkəzləşdirilmiş maliyyələşmə sisteminin tətbiqindən sonra büdcənin hazırlanması və proqnozlaşdırılması Regional idarələrlə birgə aparılmış, hər bir regional idarə, habelə hər bir rayon üzrə smetalar hazırlanmış və maliyyələşmə hər ay vaxtında təmin edilmişdir. Eyni zamanda operativliyin, şəffavlığın təmin edilməsi məqsədi ilə İqtisadiyyat şöbəsi tərəfindən bütün lazımı forma, cədvəl nümənələri hazırlanaraq Regional idarələrə təqdim olunmuş, Regional idarələrlə daimi olaraq elektron yazışmalar aparılmış və bu da onların iş fəaliyyətlərini səmərəli qurulmasında, yaranmış problemlərin tez bir zamanda həll olunmasında böyük rol oynamışdır.

Regional İdarələr üzrə əmək haqqı çatışmazlığını aradan qaldırmaq, mədəniyyət müəssisələrində optimallaşdırma aparmaq məqsədi ilə müxtəlif hesabatlar hazırlanmış, təhlillər aparılmış və bu təhlillər nəticəsində bölmələr arasında yerdəyişmə aparılaraq əmək haqqı çatışmazlığı qismən aradan qaldırılmışdır. Regional Mədəniyyət müəssisələri üzrə 2016-cı il dekabr ayı üçün yaranmış əmək haqqı borclarının ödənilməsi üçün Maliyyə nazirliyi ilə dəfələrlə yazışmalar aparılmış və yaranmış əmək haqqı borclarının ödənilməsinə nail olunmuşdur.

Büdcədənkənar vəsaitlərin artırılması sahəsində müvafiq işlər aparılmış, Regional idarələr üzrə xüsusi hesabların açılması təmin edilmiş, smetalar təsdiq olunmuş və əvvəlki ilə nisbətən büdcədən kənar vəsaitlərin artırılmasına nail olunmuşdur. Uşaq musiqi və İncəsənət məktəblərində ödənişli təhsil sisteminin tətbiqi ilə əlaqədar müvafiq işlər aparılmış, ilk dəfə olaraq xüsusi hesabların açılması təmin edilmiş, smetalar təsdiq olunmuşdur.

## İNFORMASİYA VƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR SAHƏSİ

İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsi tərəfindən nazirliyin təşkilatçılığı və iştirakı ilə 2018-ci ilin iyul-dekabr ayları ərzində həyata keçirilən tədbirlərin kütləvi informasiya vasitələrində geniş işıqlandırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmiş, müxtəlif təhlillər və analizlər aparılmışdır. Yarımil ərzində ümumilikdə qeyd olunan əlamətdar günlər, anım mərasimləri, yubileylər, film təqdimatları, kitab sərgiləri və digər tədbirlər barədə çoxsaylı məlumatlar hazırlanmış, müxtəlif mətbuat vasitələrində yayımlanması təmin edilmiş və həmin informasiyaların aylıq hesabatı aparılmışdır.

Ümumilikdə il ərzində nazirliyin fəaliyyəti və ölkəmizin mədəniyyəti ilə bağlı informasiya saytlarında 122308, televiziya kanallarında 21440, qəzetlərdə 32072 məlumat yayımlanmışdır. Mədəniyyət Nazirliyinin rəsmi saytına 6 ay ərzində təxminən 1600-ə qədər xəbər yerləşdirilmişdir ki, bu da sayt vasitəsi ilə 1 iş günü ərzində orta hesabla 12-ə qədər xəbərin yayılması deməkdir.

Hesabat dövründə ölkəmizdə təşkil olunan yerli və beynəlxalq əhəmiyyətli tədbirlərin mətbuatda geniş işıqlandırılması həyata keçirilmişdir.

Ölkə başçısının "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 17 may 2017-ci il tarixli və 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi haqqında 10 yanvar 2018-ci il tarixli sərəncamlarının icrası ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi Tədbirlər Planına əsasən, Mədəniyyət Nazirliyinin mətbu orqanı olan "Mədəniyyət" qəzetinin xüsusi buraxılışı hazırlanıb. Nəfis tərtibatlı, rəngli, 48 səhifəlik xüsusi

buraxılış “Mədəniyyət” qəzeti redaksiyasının və “Baku Guide” MMC-nin birgə nəşri olaraq ərsəyə gəlib.

VI Bakı Beynəlxalq Humanitar Forumunun qonaqlarına təqdim olunması üçün “Mədəniyyət” qəzetinin xüsusi buraxılışı nəşr olunmuşdur. Nəşrdə həmçinin VI Bakı Beynəlxalq Humanitar Forumunun qonaqlarını Azərbaycanın zəngin tarixi-mədəni irsi barədə məlumatlandırmaq məqsədilə müxtəlif materiallar – müsahibə, reportaj və xəbərlər dərc edilib.

Yeni format və dizaynda, rəngli tərtibatda nəşrə başlayan “Mədəniyyət” qəzeti noyabr və dekabr ayları üzrə ilk “Afişa” əlavəsi ilə növbəti dəfə nəşr olunmuşdur. Mədəniyyət Nazirliyinin təşəbbüsü və dəstəyi ilə hazırlanaraq nəşr olunan “Afişa” əlavəsində Bakı şəhərindəki teatr və konsert müəssisələrinin aylıq repertuarı, sərgi salonlarının, kino nümayişi mərkəzlərinin afişası ətraflı şəkildə oxuculara təqdim olunur. Mədəniyyət Nazirliyinin və “ASAN Könüllüləri" təşkilatının dəstəyi ilə nəşr olunan “Mədəniyyət+Afişa” əlavəsi paytaxtın müxtəlif məkanlarında – “ASAN xidmət” mərkəzlərində, metronun “İçərişəhər”, “Elmlər Akademiyası” stansiyalarının giriş və çıxışlarında, Nazirliyin teatr-konsert müəssisələrində pulsuz olaraq paylanılmışdır.

Bununla yanaşı, bu ilin oktyabr ayından etibarən "Mədəniyyət" qəzetinin nazirliyin 15 regional mədəniyyət idarəsinin tabe müəssisələrində fəaliyyət göstərən xidmət və dərnəkləri əks etdirən “Region+” əlavəsi mütəmadi olaraq nəşr edilmişdir.

VI Bakı Beynəlxalq Humanitar Forumu ilə əlaqədar 23 oktyabr tarixində mətbuat konfransı təşkil edilmişdir. Heydər Əliyev Mərkəzində baş tutan VI Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak ediblər.

Böyük Britaniyanın nüfuzlu “İndependent” nəşrində müəllif Stephanie d'Arc Taylorun “Bakı incəsənət marşrutuna necə çevrilir?” başlıqlı dərc edilmiş yazısı şöbə tərəfindən tərcümə edilərək Nazirliyin saytında və kütləvi informasiya vasitələrində yayımlanması həyata keçirilmişdir. Məqalədə 6-11 noyabr tarixlərində Bakıda YARAT Müasir İncəsənət Məkanının layihəsi üzrə ikinci dəfə keçirilən M.A.P. (musiqi, incəsənət, performans) Beynəlxalq teatr festivalından bəhs olunur.

Muzey Mərkəzində 3 oktyabr tarixində Mədəniyyət Nazirliyi tərəfindən hazırlanmış “Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin Dövlət Reyestri” portalının (www.intangible.az) təqdimat mərasimi keçirilmişdir. Bununla bağlı, mədəniyyət nazirinin müavini Rafiq Bayramovun “Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin Dövlət Reyestri” portalı (www.intangible.az) mədəni irsimizin sistemli şəkildə qorunması və təbliği işinə töhfədir.” başlıqlı AZƏRTAC-a müsahibəsi dərc olunmuşdur.

“Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri” və Azərbaycan, Türkiyə və Qazaxıstan ilə birgə təqdim etdiyi “Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi” çoxmillətli mədəniyyət nümunəsi kimi YUNESKO-nun Təcili Qorunma Siyahısına daxil edilməsi ilə bağlı 6 dekabr tarixində Milli Kitabxanada Hökumətlərarası Komitəsinin 13-cü sessiyasının nəticələrinə həsr edilmiş mətbuat konfransı təşkil olunmuşdur.

“Azərbaycan” qəzetinin 13 noyabr 2018-ci il tarixli nəşrində qədim milli-mənəvi dəyərləri, ənənələri özündə yaşadan, dünya xalqları arasında öz rolunu və mövqeyini qoruyub saxlayan mədəniyyətimizin son 15 ilini əhatə edən nazir Əbülfəs Qarayevin geniş məqaləsi hazırlanmış və çap olunması tərəfimizdən təmin olunmuşdur.

Mədəniyyət Nazirliyi və Azərbaycan Televiziyasının “Mədəniyyət” Kanalı arasında regionlarımızın mədəni irsinə, xalq yaradıcılığına, incəsənətinə həsr olunmuş müştərək televiziya verilişinin hazırlaması ilə bağlı işlər həyata keçirilməyə başlanmışdır. Şərti adı “Bölgələrdən bölgələrə” olması nəzərdə tutulan verilişin 2019-cu ildən etibarən (45 dəqiqə - 1 saatlıq) ayda 2 dəfə efirə getməsi planlaşdırılır.

Nazirliyin rəsmi internet resursu olan “mct.gov.az” saytına və Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəsmi internet saytı olan “heritage.gov.az” saytına mütəmadi olaraq məlumatlar yüklənməkdədir.

Nazirliyin “Ministry of Culture of the Republic of Azerbaijan” adında rəsmi “Facebook” səhifəsini bəyənən (izləyən) istifadəçilərin sayı 17115 nəfərə, yeni açılmış “Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi” adında rəsmi facebook səhifəsini bəyənən istifadəçilərin sayı isə 1256 nəfərdən 4377 nəfərə çatmışdır. Səhifələri bəyənən istifadəçilərin sayının artırılması üçün müntəzəm olaraq yeni məlumatlar (xəbərlər, elanlar və s.) yüklənməkdədir.

Eyni zamanda, nazirliyin rəsmi “Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi” adında “Twitter” hesabı, “AR Mədəniyyət Nazirliyi” adında “Youtube” kanalı, “Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi” adında “Instagram” səhifəsi yaradılmışdır.

Elektron xidmətlərin siyahısına əlavə olunan yeniliklərdən biri də tədbirlərin və görüşlərin “Facebook” platforması üzərində canlı yayım vasitəsilə paylaşmadır.

Mədəniyyət Nazirliyinin rəsmi “Facebook” və “İnstagram” səhifələrində 2 noyabr 2018-ci il tarixindən etibarən “Mədəniyyətimizi tanıyaq tanıdaq” adlı sosial layihə həyata keçirilməyə başlanılmışdır. Layihə çərçivəsində mütəmadi olaraq Mədəniyyət Nazirliyinin fəaliyyəti, habelə mədəniyyət və incəsənətin müxtəlif sahələri (muzey, kino, teatr, musiqi, rəssamlıq, heykəltəraşlıq, memarlıq, ədəbiyyat, xalçaçılıq və s.) üzrə məlumat xarakterli və qarşılıqlı müzakirə şəklində paylaşımlar edilir.

## TEXNİKİ TƏCHİZAT VƏ ƏMLAKIN İDARƏEDİLMƏSİ SAHƏSİ

Azərbaycan Respublikası Prezidentinin “Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında” 6 iyun 2007-ci il tarixli 586 nömrəli Fərmanının icrası ilə əlaqədar 2018-ci il ərzində şöbə tərəfindən bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 15 iyun 2017-ci il tarixli 2984 nömrəli Sərəncamına uyğun olaraq Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun sifarişi ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi ərazisində 100 məcburi köçkün ailəsi üçün yeni yaşayış qəsəbəsində tikilmiş klub-icma mərkəzi binası nazirliyin tapşırığına əsasən Biləsuvar Regional Mədəniyyət İdarəsi tərəfindən balansa qəbul olunmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamına əsasən Mədəniyyət Nazirliyinin istifadəsində olan Bakı şəhəri, Səbail rayonu, Neftçi Qurban küçəsi, 136 ünvanında yerləşən beşmərtəbəli binanın 1-ci mərtəbəsindəki qeyri-yaşayış sahəsi və Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin balansında olan, Bakı şəhəri, Səbail rayonu, Bülbül prospekti, 14 ünvanında yerləşən dördmərtəbəli binanın 1-ci və 2-ci mərtəbələrindəki qeyri-yaşayış sahələrinin Dövlət Turizm Agentliyinin və Nazirlər Kabinetinin digər sərəncamına əsasən Qax şəhəri, İmam Mustafayev küçəsi, 93 ünvanındakı birmərtəbəli incəsənət məktəbinin binasında yerləşən qeyri-yaşayış sahəsi Azərbaycan Milli Elmlər Akademiyasının balansına verilmişdir. Əmlak Məsələləri Dövlət Komitəsinin müraciətinə əsasən Mədəniyyət Nazirliyinin tabeliyində olan bəzi müəssisə və təşkilatların yerləşdiyi binaların balans mənsubiyyəti barədə məlumat hazırlanmış və Komitəyə təqdim olunmuşdur. Bakı şəhəri, Nizami rayonu T.Abbasov küçəsi, 71 ünvanındakı qeyri-yaşayış sahəsinin balanssaxlayıcısının olmadığını və 15 nömrəli Onbirillik Musiqi Məktəbinin burada uzun illər fəaliyyət göstərdiyini nəzərə alaraq həmin binanın balansa götürülməsi və dövlət əmlakının Registrində qeydiyyata alınması məqsədilə sənədlərin Əmlak Məsələləri Dövlət Komitəsinə təqdim edilməsi barədə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinə verilən tapşırıq icra olunmuşdur. Bundan əlavə cari ildə F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 2 saylı filialının binası, L. və M.Rostropoviçlər adına 21 nömrəli onbirillik musiqi məktəbi, Səbail rayon MKS-in Mərkəzi kitabxanası, Səbail rayon MKS-in 3 saylı filialı və Nərimanov rayon MKS-in 2 saylı filialının istifadəsində olan qeyri-yaşayış sahələri, Səməd Vurğunun Ev Muzeyinin Qazax rayonunun Yuxarı Salahlı kəndindəki filialı olan Səməd Vurğunun Poeziya Evi nazirliyin balansına götürülmüşdür.

Cari ildə Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən keçirilən hərrac vasitəsilə Bakı, Şəki, Şəmkir, Zaqatala, Tovuz, Ucar, Masallı, Gədəbəy və Tərtər şəhərlərində 1 kinoteatr, Qəbələ və Cəlilabad rayonlarında 2 kənd mədəniyyət evi, Xaçmaz, Goranboy və Biləsuvar rayonlarında 1 kənd mədəniyyət evi, İsmayıllı rayonunda 2 kənd klubu, Şamaxı, Goranboy, Neftçala, Oğuz, Xaçmaz, Tərtər, Salyan, və Lənkəran rayonlarınnda isə 1 kənd klubu özəlləşdirilmiş və nazirliyin müvafiq əmrləri ilə hesabat reyestrdən çıxarılmışdır. Özəlləşdirilmiş, ləğv olunmuş, adları dəyişdirilmiş müəssisələrlə əlaqədar mədəniyyət müəssisələrinin balans mənsubiyyəti haqqında məlumat bazasında müntəzəm olaraq müvafiq dəyişikliklər aparılmışdır.

Cari ildə nazirliyin mərkəzləşdirilmiş vəsaiti hesabına bir neçə mədəniyyət müəssisəsində təmir və cari təmir işləri aparılmışdır. Azərbaycan Milli İncəsənət Muzeyinin Bakı şəhəri, Niyazi küçəsi, 9 ünvanında yerləşən binasında təmir-bərpa və yenidənqurma işləri, Şəki şəhərində xalq şairi Bəxtiyar Vahabzadənin ev-muzeyinin təmiri və muzeydə yerləşən uşaq bağçasının köçürülməsi üçün 40 yerlik yeni uşaq bağçasının tikintisi başa çatmış və hazırda şairin ev-muzeyi ziyarətçilərin istifadəsinə verilmişdir. Qusar rayonunda "Şahdağ" Turizm Kompleksinin 5 №-li kanat yolunun tikinti işləri başa çatmışdır.

Gəncə şəhərində "Şah Abbas" Karvansarayının bərpası, Şəki şəhərində yerləşən "Gileyli məscidinin minarəsi (XVIII əsr)" abidəsində bərpa-gücləndirmə və Şuşa Dövlət Musiqili Dram Teatrının fəaliyyət göstərdiyi Bakı şəhəri, Binəqədi rayonu, 8-ci mikrorayon S.S.Axundov küçəsi, 6 ünvanındakı binasının əsaslı təmiri və yenidən qurulması başa çatmaq üzrədir. Qazax rayonunda "Sınıq körpü" abidəsinin (XII əsr) bərpa-konservasiya işlərinə başlanmışdır.

Texniki və yanğın təhlükəsizliyi tədbirlərinin gücləndirilməsi, işçilərə, əmlaka və ətraf mühitə dəyə biləcək ziyanın qarşısının alınması, obyektlərin yanğın təhlükəsizliyinin təmin edilməsi, müəssisələrin elektrik enerjisi ilə təchizatında yarana biləcək fasilələrin aradan qaldırılması və onların normal fəaliyyətinin, kütləvi tədbirlər zamanı tamaşaçıların təhlükəsizliyinin təmin edilməsi məqsədilə nazirlik üzrə əmr hazırlanmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabineti Əmlak Məsələləri Dövlət Komitəsinin Nazirlər Kabinetinə ünvanlanan məktubu ilə əlaqədar Mədəniyyət Nazirliyinin balansında olan daşınmaz dövlət əmlakının və istifadəsindəki torpaq sahələrinin texniki pasportlarının hazırlanması ilə bağlı tədbirlərin görülməsi barədə nazirliyə tapşırıq vermişdir.

Bakı şəhərində yerləşən bir sıra respublika əhəmiyyətli mədəniyyət müəssisələrinin binalarında avadanlıqlara texniki servis xidmətlərinin göstərilməsi təmin edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarında, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarında, Dövlət Proqramlarında, Mədəniyyət Nazirliyinin əmr və sərəncamlarında, Kollegiyanın qərarlarında müəyyən edilmiş tapşırıqların, daxil olan məktub və sənədlərin icrası dövr ərzində yerinə yetirilmişdir

## ELM VƏ TƏDQİQAT SAHƏSİ

Hesabat dövründə elm və tədqiqat sahələri üzrə beynəlxalq təcrübənin öyrənilməsi diqqətdə saxlanılmışdır. Müstəqil Dövlətlər Birliyində mədəniyyət ili çərçivəsində 2018-ci il 13-16 may tarixində Rusiya Federasiyasının Tula şəhərində “Gələcəyə istiqamətlənmiş birlik: mədəniyyət, ənənələr, müasirlik” mövzusunda MDB ölkələrinin gənclərinin Mədəniyyət Forumunda Elm və tədqiqat sektorunun müdiri iştirak etmişdir.

Milli-mənəvi dəyərlərin təbliği, milli bayramlarımızın qeyd olunması, xalqımızın bu dəyərlərinin yaşadılması məqsədi ilə Bakı Xoreoqrafiya Akademiyasında cari ilin 15 mart tarixində “Elimizə bahar gəlir” mövzusunda şagirdlərin rəsm və əl işlərinin nümayişi, “Novruz milli-mənəvi dəyərimizdir” adlı klassik rəqs nömrələrindən ibarət konsert proqramı, habelə cari ilin 16 mart tarixində “Novruz yazım mənim” başlığı altında ədəbi-bədii kompozisiya təşkil olunmuşdur.

Nazirliyin dəstəyi ilə Bakı Xoreoqrafiya Akademiyası tərəfindən 25-27 iyun 2018-ci il tarixində Qəmər Almaszadə adına II Beynəlxalq Rəqs Müsabiqəsi keçirilmişdir. Adıçəkilən müsabiqəyə 10 ölkədən milli, modern və klassik rəqs nümayəndələri qatılmışlar. Müsabiqənin açılış mərasimi Heydər Əliyev Sarayında, I və II turları, eləcə də müsabiqə qaliblərinin mükafatlandırma mərasimi və Qala konsert Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında keçirilmişdir.

Respublika Mədəniyyət Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzi nazirlik tərəfindən təsdiq olunmuş Kontingent planına uyğun olaraq 2018-ci il ərzində müxtəlif sahələri əhatə edən 32 kateqoriya üzrə mədəniyyət müəssisələrinin işçiləri üçün ixtisasartırma kursları təşkil etmişdir. Ümumilikdə cari il ərzində 808 nəfər təşkil edilmiş ixtisasartırma kurslarında dinləyici kimi iştirak etmişdir.

Respublika Mədəniyyət Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzi tərəfindən cari ilin 27 iyun – 1 iyul tarixində Kürdəmir regional mərkəzində Kürdəmir, İmişli, Füzuli, Beyləqan və Xocavənd rayonları daxil olmaqla Mədəniyyət mərkəzləri və klub müəssisələri işçiləri üçün “Maddi və qeyri maddi-mədəni irsin yerlərdə qorunması və təbliği” mövzusunda keçirilən səyyar seminar-treninqdə 65 nəfər, 03-07 iyul tarixində Bərdə, Yevlax, Mingəçevir və Tərtər rayonları daxil olmaqla Mərkəzi kitabxana sisteminin və filialların işçiləri üçün “Kitabxana işinin təşkilində innovasiyaların tətbiqi” mövzusunda keçirilən səyyar seminar-treninqdə 67 nəfər, 10-14 iyul tarixində Şəmkir regional mərkəzində Şəmkir, Göygöl, Gədəbəy və Daşkəsən rayonları daxil olmaqla abidə mühafizəçiləri üçün “Tarixi abidələr bu gün və sabah:mühafizə problemləri” mövzusunda keçirilən səyyar seminar-treninqdə 32 nəfər, 17-21 iyul tarixlərində Ağstafa regional mərkəzində Ağstafa, Qazax və Tovuz rayonları daxil olmaqla abidə mühafizəçiləri üçün “Tarixi abidələr bu gün və sabah: mühafizə problemləri” mövzusunda keçirilən səyyar seminar- treninqdə isə 23 nəfər iştirak etmişdir. Ümumilikdə 2018-ci il ərzində keçirilən səyyar seminar-treninqdə cəmi 187 nəfər iştirak etmişdir. Mərkəzin müvafiq şöbə və bölmələrində kadr vəziyyətinin təhlili üzrə araşdırmalar aparılmış, aktual mövzular üzrə beş elmi-metodiki vəsait hazırlanmışdır.

İncəsənət sahəsində istedadlı uşaq və gənclərin üzə çıxarılması və onların gələcək yaradıcılıq inkişafı üçün tədbirlər görülməsi, habelə Prezident təqaüdçüləri olan gənc istedadların fəaliyyətinin diqqət mərkəzində saxlanılması məqsədilə nazirliyin müvafiq əmri ilə Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin nəzdində “Gənc İstedadlar Mərkəzi” yaradılmışdır.

Respublikanın və xarici ölkələrin bədii təhsil müəssisələri arasında əməkdaşlıq əlaqələrinin yaradılması istiqamətində müəyyən işlər görülür. Sankt-Peterburq Musiqi Liseyinin rəhbərliyi, müəllim və şagirdlərdən ibarət nümayəndə heyəti 2018-ci il 18-22 aprel tarixində Bakı şəhərində səfərdə olmuşdur. Səfər çərçivəsində Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, Bakı şəhər L. və M. Rostropoviçlər adına 21 nömrəli Onbirillik Musiqi Məktəbində konsert və ustad dərsləri keçirilmişdir. Azərbaycan Dövlət Filarmoniyasında Sankt-Peterburq Musiqi Liseyi ilə Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbi arasında 21 aprel tarixində əməkdaşlıq müqaviləsi imzalanmış, habelə liseyin şagirdləri konsert proqramı ilə çıxış etmişlər.

Beynəlxalq Musiqi Təhsili Cəmiyyətinin (International Society for Music Education – ISME) 33-cü Ümumdünya Konfransı 15-20 iyul 2018-ci il tarixində Bakı şəhərində keçirilmişdir. Tərkibinə 90 ölkənin nümayəndələri daxil olduğu İSME-nin 500-dən artıq iştirakçıları Azərbaycana səfər etmişlər. Konfrans çərçivəsində Heydər Əliyev Sarayında, Azərbaycan Milli Konservatoriyasında, Bakı Musiqi Akademiyasında və “Hilton” Otelində müxtəlif tədbirlər təşkil olunmuşdur. Eyni zamanda konfransın açılış mərasimi cari ilin 16 iyul tarixində Heydər Əliyev Sarayında, bağlanışı isə cari ilin 20 iyul tarixində Bakı Musiqi Akademiyasında keçirilmişdir.

Bakı Xoreoqrafiya Akademiyasının (BXA) 2017/2018-ci tədris ili üzrə yaz semestrinin nəticələri təhlil olunmuşdur. Hesabat dövrünə akademiyada orta ixtisas təhsili üzrə 141,

bakalavr üzrə 133, magistratura üzrə 27 nəfər təhsil alır. Cari tədris ilinin yaz semestrində ümumilikdə 278 nəfər imtahanlarda iştirak etmişdir. BXA-da müvəffəqiyyət göstəricisi subbakalavr üzrə 81%, bakalavr üzrə 77%, magistr səviyyəsi üzrə 89% təşkil edir. Akademiyada keyfiyyət göstəricisi subbakalavr üzrə 4%, bakalavr üzrə 10 %, magistr səviyyəsi üzrə isə 48%-dir.

"Azərbaycan gəncliyi 2017–2021-ci illərdə" Dövlət Proqramının həyata keçirilməsinə dair Nazirliyin Tədbirlər Planının müvafiq bəndlərinin ("Gənc istedadların beynəlxalq səviyyəli festival, müsabiqə, yarış və yay məktəblərində iştirakının dəstəklənməsi", "İstedadlı və yaradıcı gənclərin nailiyyətlərinin ölkədə və onun hüdudlarından kənarda təbliğ edilməsi") icrasının təmin edilməsi məqsədilə nazirliyin maddi və təşkilati dəstəyi ilə Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin şagirdləri 15-30 iyul 2018-ci il tarixində Belçikanın Brüssel şəhərində keçirilən gənc musiqiçilərin "Musica Mundi" beynəlxalq festivalında ölkəmizi layiqincə təmsil etmişlər. Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin nümayəndə heyəti 2018-ci ilin 10-14 oktyabr tarixində Litva Respublikasının Vilnüs şəhərində gənclər arasında keçirilən növbəti «World Harmony» beynəlxalq müsabiqəsində iştirak etmişdir. Cari ilin 17 noyabr tarixində ABŞ-ın Nyu-York şəhərində Azərbaycan Respublikasının Xalq artisti Cövdət Hacıyevin xatirəsinə həsr edilmiş gənc ifaçıların "Florida Keysl" Beynəlxalq musiqi müsabiqəsi keçirilmişdir.

"Uşaq musiqi və incəsənət məktəblərində simli, nəfəsli və zərb alətləri üzrə tədrisin inkişaf etdirilməsinə dair Proqram (2016-2020-ci illər)"ın icrası məqsədilə cari ilin mart ayında Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində musiqi alətlərinin emalatxanası açılmışdır.

Ukraynanın Milli Elmi-Tədqiqat Bərpa Mərkəzi ilə bərpa sahəsində əməkdaşlığın qurulması üçün 11-14 sentyabr 2018-ci il tarixində Kiyev şəhərində təşkil olunmuş "Elmi-bərpa. Tarix, müasirlik, modernləşmə üsulları" mövzusunda beynəlxalq elmi-praktiki konfransda Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi-Bərpa Mərkəzinin nümayəndələri iştirak etmişlər

Cari il ərzində Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi-Bərpa Mərkəzinə cəmi 602 ədəd əşya daxil olmuşdur ki, onlardan 466 ədədi bərpa olunaraq muzeylərə qaytarılmış, 65 ədədi bərpa olunaraq mərkəzdə saxlanılmış, 71 ədədi isə bərpa prosesindədir. Beləliklə, mərkəz tərəfindən 29 ədəd - xalça və xalça məmulatları, 37 ədəd tikmə, parça və geyim, 60 ədəd–ağac, 84 ədəd-keramika, 218 ədəd-metal, 15 ədəd-boyaqkarlıq, 159 ədəd-qrafika nümunələri bərpa və konservasiya olunmuşdur. Hazırda 239 ədəd əşyaya mərkəzdə xüsusi şəraitdə nəzarət olunur.

Muzey əşyalarının saxlanılması və onların aşınmasının qarşısının alınması istiqamətində qabaqlayıcı tədbirlərin görülməsi məqsədilə Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi-Bərpa Mərkəzi tərəfindən dövr ərzində respublikanın müxtəlif rayonlarının müəssisələrində çalışan muzey əməkdaşları, habelə qalereya və Heydər Əliyev Mərkəzlərinin əməkdaşları üçün "Cümhuriyyət 100: Bərpa edilmiş mədəni sərvətlər" adlı regional sərgi-seminarlar, ustad sinifləri, praktik kurslar təşkil edilmişdir.

Bakı Xoreoqrafiya Akademiyasının mütəxəssisləri respublikanın bölgələrdə yerləşən mədəniyyət və təhsil müəssisələrinin xoreoqrafiya sahəsi üzrə mütəxəssisləri üçün ustad dərsləri keçirilmişdir.

Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbi və Dənizkənarı Bulvar İdarəsinin təşkilatçılığı ilə 18 sentyabr tarixində məktəbin müəllim və şagird kollektivi tərəfindən Dənizkənarı Milli Parkda açıq havada "Milli Musiqi Günü" nə həsr olunmuş təntənəli konsert keçirilmişdir.

Mədəniyyət Nazirliyinin dəstəyi və Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin təşkilatçılığı ilə 7 oktyabr tarixində Bilgəh qəsəbəsində yerləşən müharibə və əmək əlilləri üçün pansionatda, daha sonra Binəqədi rayonunda yerləşən "Qadın və uşaq sığınacağı"nda xeyriyyə məqsədilə tədbirlər keçirilmişdir

Cari tədris ili üzrə Bakı Xoreoqrafiya Akademiyasının orta ixtisas pilləsinə qəbul üçün 170 yer ayrılmışdır. Müvafiq yerlərə 59-u ümumi orta, 33-ü tam orta təhsil bazasından olmaqla cəmi

92 nəfər qəbul olmuşdur. Onlardan 27 nəfər dövlət sifarişli, 65 nəfər isə ödənişli əsaslarla təhsil alacaqlar. Akademiyanın orta ixtisas səviyyəsinə qəbul 54.1%-dir. Akademiyanın bakalavriat səviyyəsinə qəbul üçün 2018/2019-cu tədris ili üzrə 236 yer müəyyən olunmuşdur.

Cari ilin 15-17 noyabr tarixində Rusiya Federasıyasının Sankt-Peterburq şəhərində keçirilmiş VII Beynəlxalq Forumunda nazirliyin nümayəndə heyəti iştirak etmiş, forum çərçivəsində keçirilən "Mədəniyyət və gənclik" adlı konfrans və sessiyada "Azərbaycan Respublikasında bədii təhsil gənclər siyasəti kontekstində" mövzusu üzrə təqdimatla çıxış təşkil edilmişdir.

Bakı Xreoqrafiya Akademiyası, Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin təşkilatçılığı ilə müxtəlif yubiley tədbirləri, xatirə gecələri keçirilmişdir.

İstedadlı gənclərin dəstəklənməsi və müvafiq sahələr üzrə yüksək ixtisaslı kadrların hazırlanması çərçivəsində görülən işlərin davamı olaraq istedadlı gənclərin xarici ölkələrin tədris müəssisələrində təhsil almaları üçün nazirlik tərəfindən maliyyə dəstəyi göstərilir.

## MƏDƏNİ İRSİN QORUNMASI, İNKİŞAFI VƏ BƏRPASI SAHƏSİ

Dövlət Xidməti tərəfindən 2018-ci il ərzində müvafiq qanunvericiliyə, o cümlədən "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"na uyğun olaraq işlər davam etdirilmişdir.

Dövlət Proqramının Tədbirlər Planında nəzərdə tutulmuş işlərin icrasının davam etdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 may 2016-cı il tarixli 208 nömrəli qərarı ilə təsdiq edilmiş "Mədəni sərvətlərin Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına və mədəni sərvətlərin mühafizə siyahısına daxil edilməsi Qaydası"na uyğun olaraq Nazirliyin müvafiq əmri ilə Dövlət Xidmətində daşınmaz mədəni sərvətlərin müəyyən olunması üzrə ekspert komissiyası yaradılmışdır. "Azərbərpa" Elmi-Tədqiqat Layihə İnstitutu ilə 28 aprel 2017-ci il tarixində Az/NS-RH/BM-001 nömrəli müqavilə bağlanmışdır. Müqaviləyə əsasən normativ sənədlərin hazırlanması üzrə nəzərdə tutulan işlər-"Tarix və mədəniyyət abidələri üzrə bərpa, konservasiya və yenidənqurma işlərinin qiymətlər toplusu" və "Tarix və mədəniyyət abidələri üzrə elmi layihə işlərinin qiymətlər toplusu başa çatdırılmışdır. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı ilə dövlət qeydiyyatına götürülmüş 21 abidənin pasportlarının hazırlanması işi üzrə "NKT-Bərpa" MMC ilə müvafiq müqavilə bağlanmışdır.

Bir sıra daşınmaz mədəni irs abidələrinin mühafizə zonalarının layihələrinin hazırlanması işləri üzrə tender prosedurları həyata keçirilmiş və "NKT-Bərpa" MMC ilə 21 sentyabr 2018-ci il tarixində Az/DTMAMZ/KS-006 nömrəli müqavilə bağlanmışdır.

Mühafizə zonası müəyyən edilmiş 11 abidənin (Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının binası, İnv. № 111 ; Azərbaycan Dövlət Filarmoniyasının binası, İnv. № 143 ; Səadət sarayının binası, İnv. № 149 ; Mahnı Teatrının binası, İnv. № 167 ; Əjdərbəy məscidi, İnv. № 120 ; Məscid (Aşumov məscidi ), İnv. №3511; Hacı Aslan hamamı, İnv. №3558 ; Fantaziya hamamı, İnv. № 3731 ; Yaşayış evi, İnv. № 3315 ; Yaşayış evi, İnv.№ 2866 ; Cəlilabad rayonu, Göytəpə qəsəbəsində yerləşən kilsə, İnv. № 4177 ) layihəsi şəhər və rayoni hakimiyyətləri və Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Kadastrı və Ünvan Reyestri Xidməti ilə razılaşdırılmış və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən təsdiq edilmişdir.

İl ərzində daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması ilə əlaqədar müvafiq işlər davam etdirilmişdir. Respublika ərazisində yerləşən bir çox abidəyə müdaxilə faktı qeydə alınmış, Dövlət Xidməti tərəfindən həmin halların aradan qaldırılması məqsədi ilə yerli icra hakimiyyəti və hüquq mühafizə orqanları ilə birgə iş aparılmış və qanunvericiliyə uyğun tədbirlər görülmüşdür.

Dövr ərzində Dövlət Xidməti tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinin tələblərinə uyğun olaraq 3 ədəd inzibati xəta haqqında protokol tərtib olunmuş, 3 ədəd inzibati tənbeh vermə və 2 inzibati xəta haqqında iş üzrə icraata xitam verilməsi haqqında qərar qəbul edilmişdir.

Respublika ərazisində təbii təsirlər (yağış və sel sularının təsiri və s.), habelə insan fəaliyyəti nəticəsində üzə çıxmış arxeoloji abidələrin və digər maddi mədəniyyət nümunələrinin qorunması və tədqiqi üçün Azərbaycan Milli Elmlər Akademiyası ilə birgə müvafiq tədbirlər həyata keçirilmişdir. Həmçinin, arxeoloji əhəmiyyətli digər ərazilərdə qabaqlayıcı tədbirlərin görülməsi və tədqiqatların aparılması ilə bağlı qarşılıqlı işlər həyata keçirilmişdir.

Dövlət Xidmətinin müvafiq razılığı olmadan rayon icra hakimiyyətləri tərəfindən Lerik rayonundan Şamaxı rayonuna aparılmış 6 ədəd daş qoç fiquru geri qaytarılmışdır.

Bakı şəhərində və respublikanın digər şəhərlərində baş planlar hazırlanarkən və yeni tikinti layihələri həyata keçirilərkən həmin ərazilərdə yerləşən tarix-mədəniyyət abidələrinin mühafizə zonalarının nəzərə alınması üçün nəzarətin artırılması məqsədi ilə Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə müraciət olunmuşdur. Həmçinin Komitənin müraciətinə əsasən hazırlanacaq Baş planda nəzərə alınması üçün Daşkəsən, Kürdəmir, Saatlı, Sabirabad, Şabran və Tərtər şəhərlərinin ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin siyahıları təqdim edilmişdir.

Şamaxı rayonu Dəmirçi kəndi yaxınlığında, Dəmirçi-Lahıc avtomobil yolunun kənarında yerləşən nekropol və qala divarlarının qalıqlarının qorunması məqsədi ilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi ilə birgə konservasiya və möhkəmləndirmə işləri aparılmışdır.

Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi (CQBKG) layihəsi çərçivəsində çəkilən xəttin 247-ci kilometrində, Goranboy rayonunun Borsunlu kəndinin, Kərpictəpə adlanan ərazisində aşkar edilmiş “Qala” tipli abidədə arxeoloji-tədqiqat işlərinin davam etdirilməsi və abidənin atmosfer çöküntülərinin təsirindən qorunması üçün üzərində qoruyucu təbəqənin quraşdırılması ilə bağlı məsələlərin müzakirəsi məqsədi ilə dövr ərzində Dövlət Xidmətinin, BP şirkətinin və AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşlarının iştirakı ilə bir neçə görüş keçirilmişdir. Həmçinin qeyd olunan boru kəmərinin istismara qəbul prosesində iştirak etmək üçün Dövlət Xidmətinin əməkdaşı Hacıqabul rayonuna ezam olunmuşdur.

Abidə mühafizəçilərinin iş şəraitinin, nizam-intizam və işə davamiyyətinin yerində yoxlanılması məqsədilə Dövlət Xidmətinin əməkdaşları Masallı, Yardımlı, Cəlilabad, Lerik və Lənkəran rayonlarına ezam olunmuşdur.

Mədəniyyət Nazirliyinin 2018-ci il 8 iyun tarixli 32 nömrəli əmrinə əsasən abidə mühafizəçilərinin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə Şəmkir və Ağstafa rayonlarında Dövlət Xidməti və Respublika Mədəniyyət Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzi tərəfindən səyyar seminar-treninqlər keçirilmişdir.

Gəncə şəhəri, Hüseyn Cavid küçəsi 1 ünvanında yerləşən 3983 inventar nömrəli “Tatlar” məscidinin uçması ilə əlaqədar abidədə təmir-bərpa işlərinin aparılması zərurəti müəyyən olunmuş və vəsaitinin ayrılması ilə bağlı Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinə müraciət olunmuşdur.

Respublika ərazisində yerləşən memarlıq abidələrinin ərazilərində, mühafizə zonalarında, abidələrin üzərində, dam örtüyündə reklam daşıyıcılarının qanunvericiliyə uyğun yerləşdirilməsinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyinə müraciət olunmuşdur.

İl ərzində “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Qanunun 20-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının rayonları ərazisində arxeoloji qazıntı işləri aparılması üçün Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən verilmiş 37 vəkalətnamə Dövlət Xidmətində qeydiyyatdan keçirilmiş və aparılan qazıntı işlərinə aidiyyəti üzrə yerli abidə mühafizəçiləri tərəfindən mütəmadi olaraq nəzarət təşkil edilmişdir.

2018-ci il ərzində Dövlət Xidməti tərəfindən respublika ərazisində yerləşən abidələrin mülkiyyətçisi və ya istifadəçiləri olan fiziki və hüquqi şəxslər ilə abidələrin qorunması və onlardan istifadə qaydalarına dair 98 mühafizə müqaviləsi bağlanmışdır.

Goranboy rayonu üzrə yeni aşkar olunmuş 30 arxeoloji və 11 memarlıq obyektinin tarixi-arxeoloji və memarlıq əhəmiyyətinin müəyyən edilməsi ilə bağlı Azərbaycan Milli Elmlər Akademiyasının müvafiq İnstitutlarına müraciət olunmuşdur. Hazırda Memarlıq və İncəsənət İnstitutu tərəfindən 11 memarlıq abidəsi ilə bağlı rəy təqdim edilmişdir.

18 aprel "Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü" münasibətilə respublikanın şəhər və rayonlarında, o cümlədən tarix-mədəniyyət qoruqlarında silsilə tədbirlər keçirilmiş, tarix və mədəniyyət abidələrinə ekskursiyalar təşkil olunmuşdur.

UNESCO-nun Ümümdünya İrs Siyahısına salınması ilə bağlı hazırlanmış Şəki şəhərinin tarixi hissəsinin "Xan Sarayı" ilə birgə nominasiya faylına dair Komitənin təqdim etdiyi rəy və təkliflərin nəzərə alınması üçün və sənədin yenidən işlənilməsi üçün ekspertlər dəvət olunmuşdur. Hazırda onların tövsiyəsi və iştirakı işlər davam etdirilir.

Dövr ərzində "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"na, "Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair 2011-2013-cü illər üzrə Dövlət Proqramı"na və Mədəniyyət Nazirliyinin 2018-ci ilin birinci yarısı üçün iş planına uyğun olaraq tikinti-təmir və bərpa işləri aparılan mədəniyyət ocaqlarında və bərpa işlərinin aparıldığı bir neçə tarix-mədəniyyət abidəsində işlər davam etdirilmişdir. Belə ki, Şəki şəhərindəki Bəxtiyar Vahabzadənin ev-muzeyi yenidən qurulmuş və ev-muzeyində tərtibat işləri aparılmışdır. Qırx yerlik uşaq bağçasının tikinti-quraşdırma işləri tam yekunlaşdırılmış və istifadəyə verilmişdir. Xəzər rayonu, Şağan qəsəbəsində yerləşən Mədəniyyət Mərkəzində aparılan işlər tamamlanmış və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın iştirakı ilə açılışı olmuş, Qaradağ rayonu, Qızıldaş qəsəbəsində tikilən mədəniyyət mərkəzinin tikintisi başa çatdırılmışdır.

Bakı şəhəri, Nərimanov rayonunda inşa olunan Rostropoviç adına 21 nömrəli musiqi məktəbi və Sabunçu rayonu Maştağa qəsəbəsində tikilən H. Abbasov adına mədəniyyət mərkəzində (13 nömrəli kitabxana filialı daxil olmaqla) aparılan işlər başa çatdırılaraq istismara verilmişdir.

Mart ayında Bərdə şəhərində Nüşabə qalası ərazisində yerləşən, 1322-ci ilə aid dünya əhəmiyyətli abidə olan "Allah-Allah" türbəsində (inventar №-6) aparılan bərpa işləri tam yekunlaşdırılmış və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə açılışı olmuşdur.

Həmçinin martın 26-da Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən ABŞ Dövlət Departamentinin Səfirlərin Mədəni İrsin Qorunması Fondunun maliyyə dəstəyi ilə bərpa olunmuş Quba şəhərində yerləşən, yerli əhəmiyyətli memarlıq abidəsi olan "Hündür günbəzli hamam"ın (inventar №-4606) mədəniyyət naziri Əbülfəs Qarayev və ABŞ-ın ölkəmizdəki səfiri Robert Sekutanın iştirakı ilə açılışı olmuşdur.

Ölkə əhəmiyyətli memarlıq abidəsi (inventar №-127, tikilmə tarixi-1385) kimi dövlət qeydiyyatına götürülmüş "Hacı Şəhla məscidi"ndə "Azərbərpa" Elmi-Tədqiqat Layihə İnstitutu tərəfindən hazırlanmış layihəyə uyğun aparılan təmir-bərpa işləri yekunlaşdırılmışdır.

Qazax rayonunda yerləşən, dünya əhəmiyyətli memarlıq abidəsi (inventar №-7, tikilmə tarixi-XII əsr) kimi dövlət qeydiyyatına götürülmüş "Sınıq körpü" (Qırmızı körpü) abidəsində bərpa işlərinə başlanılmışdır.

Ölkə əhəmiyyətli memarlıq abidələri olan Azərbaycan Milli İncəsənət muzeyinin Bakı şəhəri, Səbail rayonu, Niyazi küçəsi, 9 ünvanında yerləşən binasında (inventar №-154, tikilmə

tarixi-1888-ci il) bərpa işləri başa çatdırılmış və dekabr ayında dövlət başçısının iştirakı ilə açılışı olmuşdur.

Bakı şəhəri, Binəqədi rayonu, 8-ci mikrorayon S.S.Axundov küç, 6 ünvanında yerləşən Şuşa Dövlət Dram Teatrında aparılan tamamlanma işləri yekunlaşdırılmış və istismara təhvil verilmiş, Gəncə şəhərində yerləşən Şah Abbas karvansarasında (inventar №-183, tikilmə tarixi-XVII əsr) aparılan bərpa və tamamlama işləri, "Şəki şəhərindəki Gileyli məscidinin minarəsi (XVIII əsr) abidəsində yaranmış qəza vəziyyətinin qarşısının alınması məqsədilə zəruri bərpa-gücləndirmə və minarənin yerləşdiyi ərazidə çay yatağında bərkitmə işlərinin aparılması" obyekti üzrə bərpa və gücləndirmə işləri yekunlaşmaq üzrədir.

Bakı şəhəri, Binəqədi rayonunda yerləşən İrəvan Azərbaycan Dövlət Dram Teatrı binasında əsaslı təmir və yenidənqurma işlərinin başlanması üçün müvafiq sənədləşmə işləri aparılmış, Zaqatala Tarix-Diyarşünaslıq Muzeyinin əsaslı təmiri və yenidənqurulması" obyekti üzrə nəzərdə tutulan tender prosedurlarının həyata keçirilməsi məqsədilə ehtimal qiymətin təyin edilməsi üçün Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi "Azərdövlətlayihə" Dövlət Baş Layihə İnstitutuna müraciət olunmuş, müvafiq akt alınmış və layihə sənədləri hazırlanır.

Hesabat dövründə dövlət orqanlarından, müəssisə və təşkilatlardan poçt, elektron poçt, faks, telefonoqram, feldyeger rabitəsi vasitəsilə daxil olan məktublar, vətəndaş müraciətləri, sərəncamlar, əmrlər və digər sənədlər müvafiq qaydada icra edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında" 2016-cı il 29 mart tarixli 1932 nömrəli Sərəncamının 3-cü bəndinin ("Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsinin və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin regional idarələrinin abidə mühafizəçiləri ştatları Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinə verilsin") aidiyyəti üzrə icrası ilə əlaqədar olaraq müvafiq işlər yerinə yetirilmişdir.

Belə ki, respublikanın rayonları üzrə yeni işə qəbul edilmiş abidə mühafizəçilərinin şəxsi işləri tərtib edilmiş və əmək müqavilələri bağlanılmış, əmək müqavilələrinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sistemində elektron qaydada qeydiyyata alınmışdır.

"Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 nömrəli qərarında dəyişiklik edilməsi barədə qərar layihəsi hazırlanmışdır.

Mədəni irsin qorunması üzrə dövlət nəzarətinin təkmilləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının bir sıra məcəllələrinə və qanunlarına dair təkliflər verilmiş, habelə Dövlət Xidmətinin Əsasnaməsinə dəyişikliklər və əlavələr olunmuş, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamlarının, Nazirlər Kabinetinin qərarlarının və digər normativ hüquqi sənədlərin müvafiq sahəyə aid qanunlara uyğunlaşdırılması ilə bağlı təqdim edilmiş layihələr ilə əlaqədar rəylər bildirilmişdir.

Cari müddət ərzində Xidmət rəisinin iştirakı ilə Qobustan Milli Tarixi-Bədii, Gəncə Dövlət Tarix-Mədəniyyət, "Avey" Dövlət Tarix-Mədəniyyət, Qəbələ Dövlət Tarixi-Bədii, "Pir Hüseyn Xanəgahı" Tarix-Memarlıq Qoruqları və Nizami Gəncəvi Məqbərə Kompleksinə baxış keçirilmiş, "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğunda infrastrukturun təşkili ilə bağlı İqtisadiyyat Nazirliyinə müraciət hazırlanmış,"Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğunun ərazisində müvafiq infrastrukturun təşkili ilə bağlı təkliflər hazırlanmış və yuxarı orqanlara təqdim edilmişdir.

“Qədim Şəmkir” və “Orta əsr Ağsu şəhəri” tarix-memarlıq qoruqlarının yaradılması ilə bağlı Azərbaycan Respublikası Prezidentinə, Qobustan Milli Tarix-Bədii Qoruğunun Böyükdaş dağından Kiçikdaş dağı ərazisinə yolun çəkilməsi üçün Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə və İqtisadiyyat Nazirliyinə müraciətlər olunmuşdur.

İl ərzində tarix-mədəniyyət qoruqları ərazisində elmi-tədqiqat və arxeoloji işlərin aparılması davam etdirilmişdir. Belə ki, üç tərəfli memorandum əsasında Yapon mütəxəsislərinin iştirakı ilə “Avey” qoruğunda arxeoloji işlər davam etdirilmiş, Qobustan qayaüstü rəsmlərinin tədqiqi ilə bağlı “Yeni baxış” layihəsi davam etdirilmiş, “Keşikçidağ” qoruğunda kəşfiyyat xarakterli elmi tədqiqatlar aparılmışdır.

Noyabrın ayında Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanovun rəhbərlik etdiyi nümayəndə heyəti YUNESKO, İKKROM, İKOMOS və ÜTT kimi nüfuzlu beynəlxalq təşkilatların tərəfdaşlığı ilə İtaliyanın Paestum şəhərində keçirilən XXI “Arxeoloji turizm üzrə Aralıq dənizi yarmarkası”nda Azərbaycan dövlətini təmsil etmişdir.

Həmçinin, dekabr ayında Dövlət Xidmətinin rəis müavini və Ümumi işlər sektorunun müdiri Türkmənistanın Aşqabad şəhərində keçirilən “Böyük İpək Yolunun vacibliyi: təqdimat və inkişaf” beynəlxalq konfransında və “Mərkəzi Asiya ölkələrində Beynəlxalq Humanitar Hüququn implementasiyasını milli səviyyədə həyata keçirən Milli Komissiyalar və müvafiq qurumların” Birinci Regional Görüşündə iştirak etmişlər.

## SƏNƏDLƏRLƏ VƏ VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ İLƏ İŞ

2018-ci il ərzində Mədəniyyət Nazirliyinə ümumi 7887 sənəd daxil olmuşdur. Onlardan 354-ü Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından, 951-i Azərbaycan Respublikası Nazirlər Kabinetindən, 20-si Azərbaycan Respublikasının Milli Məclisindən, 762-i xarici ölkələrdən, 4041-i müxtəlif yerli təşkilatlardan, 1759-u vətəndaşlardan daxil olmuşdur.

İl ərzində nazirlikdən 5532 məktub göndərilmişdir ki, onlardan 244-ü Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, 182-i Nazirlər Kabinetinə, 16-sı Milli Məclisə, 434-ü xarici ölkələrə, 4656-ı müxtəlif yerli təşkilatlara və ayrı-ayrı şəxslərə ünvanlanmışdır.

Hesabat dövrü ərzində Nazirlik üzrə 1109 əmr (əsas fəaliyyət üzrə 336, ezamiyyələr üzrə 189, kadrlar üzrə 584), 297 sərəncam, 3 qərar qeydiyyata alınmışdır.